**“Əhli-beyt və səhabələr birliyi”**

**Əhli-Sünnə ilə İmamilər arasında müştərək hədislər silsiləsi (1)**

# “İBADƏT TÖVHİDİ” mövzusunda Əhli-sünnə ilə İmamilər arasındakı M Ü Ş T Ə R Ə K H Ə D İ S L Ə R

**Said Subhi Qatum**
“Elmi tədqiqatlar və araşdırmalar mərkəzi”ndə araşdırmaçı

# KİTABIN İÇİNDƏKİLƏR

Mərkəzin müqəddiməsi ....................................................................4
Müqəddimə ......................................................................................9
İbadət tövhidi. “Tövhidin fəziləti” babı .....................................20
İbadətdə Uca Allaha ixlaslı olmaq .............................................25
Kim ixlasla “Lə iləhə illəllah” deyərsə... ....................................30
“Riyakarlıq şirkdir” fəsli..............................................................32
Hər bir abid ibadət etdiyinə tabe olar.........................................34
Əməl olmadan “Lə iləhə illəllah” demək sahibinə fayda verməz ..........................................................................................35
“İslamın əsasları” fəsli .................................................................37
“Uca Allahın qəza və qədəri ilə razılıq” fəsli.............................45
İnsanın başına gələn onu səhvə məhkum etmək üçün deyil, həmçinin onu səhvə məhkum edən də başına gələnə görə deyil ...........................................................49
Allaha bağlanmaq və Ona təvəkkül etmək ...............................52
Qorxu və rica ...............................................................................57
Allah üçün sevmək və Allah üçün nifrət etmək .......................62
Xaliqə asi olmaqla məxluqa tabe olan kəs ................................65
**“Amma xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə iman gətirməzlər”** ayəsi haqqında fəsil.................70
Dua fəsli........................................................................................72
Kədər və qəm anında nə deyilir ................................................77
Uca Allaha Onun adları, sifətləri, yaxşı işlər və əməlisaleh adamın duası vasitəsilə təvəssül etmək ...........................79
Allahdan başqasına and içmək .................................................87

Uca Allaha səcdə etməyin fəziləti ............................................94
Uca Allahdan başqasına səcdə etməyin haramlığı ................101
Ovsunlu ip və talismanlar barədə varid olanlar ....................107
Sehr barədə varid olanlar .........................................................114
Kahinlik barədə varid olanlar ..................................................121
Nəzir babı ...................................................................................124
İstifadə olunmuş ədəbiyyat .....................................................127

# MƏRKƏZİN MÜQƏDDİMƏSİ

Həmd aləmlərin rəbbi olan Allaha məxsusdur, O, əvvəlkilərin və sonrakıların Rəbbidir, göylərin və yerin Qəyyumudur, Din gününün Sahibidir. Onun Rəbb olmasına bütün məxluqatlar şahidlik edir, bütün məbudları Onun Rəbb olmasını təsdiq edir. Onun Əzəməti qarşısında zəlil olmadan izzət olmaz, Onun Rəhmətinə möhtac olmadan zənginlik olmaz, Onun Nuruna tabe olmadan hidayətə varmaq olmaz.

Şəhadət verirəm ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur, Onun şəriki də yoxdur. Bu elə bir sözdür ki, göylər və yer onun sayəsində dayanır, bütün məxluqat da ona görə yaradılmışdır. Buna görə Uca Allah rəsullar göndərmiş, kitablarını nazil etmiş, qanunlar qoymuşdur.

Həmçinin şəhadət verirəm ki, Muhəmməd ﷺ Onun qulu və elçisi, vəhyini etibar etdiyi şəxs, məxluqatının ən xeyirlisi, doğru din və dürüst yolla göndərilmişdir. Allah onu aləmlərə rəhmət, müttəqilərə imam, bütün məxluqatlar üzərində hüccət olaraq göndərmişdir.

Sonrasına gəlincə... Şəkk yoxdur ki, bu dinin ən böyük qayələrindən biri ümmətin birliyini və vəhdətini mühafizə etmək, hətta diqqət verilməyəcək qədər kiçik məsələlərdə belə, onu [ümməti] parçalayacaq amillərin pislənməsidir.

Necə ki, Əbu Sələbə əl-Xuşənidən ﷺ nəql olunmuş hədisdə o demişdir: "Rəsulullah ﷺ bir yerə getdikdə [ətrafındaklar] vadilərə və uzaq yerlərə ayrılardılar. Rəsulullah ﷺ dedi: "Sizlərin bu vadilərə və uzaq yerlərə getməyiniz şeytandandır." Bundan sonra o ﷺ, bir yerə getdikdə, insanlar dağılışmayıb bir-birilərinin yanında qalırdılar. Hətta onlar bir-birinə o qədər yaxın idilər ki, deyilərdi: – onların üzərinə libas sərilsəydi, hamısını əhatələyərdi".[1]

Əbu Məsud əl-Ənsari ﷺ demişdir: "Rəsulullah ﷺ namazda bizim çiyinlərimizə əlini sürtüb deyərdi: "Düzlənin! İxtilaf etməyin ki, qəlbləriniz də təfriqəyə varmasın, mənim arxamda yaşca böyük olanlar dayansın, sonra da onlardan sonra gələnlər, sonra da onlardan sonra gələnlər".[2]

Bir dəfə Peyğəmbər ﷺ gördü ki, sırada bir nəfərin sinəsi qabağa çıxıb. O ﷺ, namazın təkbirini deməyib gözlədi və tənbeh edib dedi: "Ey Allahın qulları, ya səflərinizi düzəldəcəksiniz, ya da Allah sizdən üz döndərəcək."[3]

---

[1] Əbu Davudun "Sünən" əsəri (2628), Əhmədin "Müsnəd" əsəri (17771), Nəsainin "Sünən əl-kubra" əsəri (8856), İbn Hibbanın "Səhih" əsəri (2690), Hakimin "Müstədrak" əsəri (2540). Albani demişdir: Səhihdir.

[2] Hədisi Muslim "Səhih" əsərində (432), Nəsai "Sünən" əsərində (807), İbn Macə "Sünən" əsərində (976), Əhməd "Müsnəd" əsərində (17101) rəvayət etmişlər.

[3] Hədisi Muslim "Səhih" əsərində (436), Nəsai "Sünən" əsərində (810), Əhməd "Müsnəd" əsərində (18434) rəvayət etmişlər.

Bundan sonra Peyğəmbər ﷺ namazda sıralara durmaq kimi sadə məsələlərdə ixtilaf etmələri səbəbindən möminləri vadilərə və uzaq yerlərə göndərdi. Çünki belə ixtilaflar qəlblərin təfriqəsinə səbəb olurdu.

Müsəlmanların camaatından müxtəlif formalarda ayrılmaq şəri baxımdan yolverilməz, əqli baxımdan rədd olunan, fitri baxımdan isə qəbuledilməzdir.

Bu səbəbdən Böyük və Uca Allah Öz elçisi Muhəmmədin ﷺ dində təfriqə salanlardan olmadığını bildirir. İzzət və Cəlal Sahibi olan Allah buyurur: **"Dinlərini parçalayıb firqə-firqə olanlarla sənin heç bir əlaqən yoxdur."**[4]

Həmçinin O, möminlərə Peyğəmbərin ﷺ izi ilə getməyə təşviq edir ki, sözləri və qəlbləri bir olsun: **"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz *bir-birinizə* düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində *bir-birinizlə* qardaş oldunuz. Siz odlu bir çuxurun lap kənarında ikən O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola yönələsiniz."**[5]

Həmçinin buyurur: **"Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, *o yollar* sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə *pis əməllərdən* çəkinəsiniz."**[6]

---

[4] "əl-Ənam" surəsi, 159.
[5] "Ali İmran" surəsi, 103.
[6] "əl-Ənam" surəsi, 153.

Rəbbimiz möminlərə təfriqə və mübahisə baxımından kafirlərə bənzəməyi nəhy etmiş, camaatını tərk edəni şiddətli bir əzabla hədələyərək buyurur: **"Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir."**[7]

O, açıq-aydın kitabda bəyan etmişdir ki, Əhli-kitabın düşdüyü ixtilaf və təfriqənin səbəbi onların cahilllik və dəlilsizlik səbəbindən deyil, əldə etdiklərində elmi olaraq bir-birilərinə haqsızcasına qarşı çıxmaları idi.

Uca və Ulu Allah buyurur: **"Onlara məhz elm gəldikdən sonra, öz aralarındakı paxıllıq ucbatından, ixtilafa düşdülər."**[8] Həmçinin buyurur: **"Kitab verilənlər onlara yalnız aydın bir dəlil gəldikdən sonra firqələrə bölündülər."**[9]

Ümmətimizdə də uzun müddətdən bəri ixtilaf odu alışmaqdadır. Həmin ixtilaf yaşı da, qurunu da yandırıb-yaxır. Bu ümmətin birliyi üçün çalışan azsaylı ixlaslı səylər də mövcuddur. Həmin səylərin çatışmayan cəhətləri də az deyil. Bu işdə gərək elm əhli də, onların nurundan faydalananlar da bu mühüm məsələ üçün əllərindən gələni təqdim etsinlər ki, Uca Allahın qəzəbini aradan qaldıraraq Onun razılığını qazansınlar və müsəlmanların qəlblərini bir araya gətirə bilsinlər.

---

[7] "Ali İmran" surəsi, 105.

[8] "əş-Şura" surəsi, 14.

[9] "əl-Beyyinə" surəsi, 4.

Bu möhtərəm prinsipə əsaslanaraq “Əhli-beyt və səhabələr birliyi”nin elmi araşdırmalar mərkəzi olaraq bu layihəmizi – “Əhli-sünnə ilə imamilər arasında müştərək hədislər silsiləsi”ni təqdim edirik ki, doğru yol istiqamətində növbəti bir addım olsun. Bu xüsusda vəhdət və müsəlmanlar arasında yaxınlıq mövzularında bir çox konfrans, forum və çağırışlar olmuşdur ki, onların da çoxu heç bir nailiyyət əldə etməmişdir. Çünki orada səmimiyyət, tam aydın olan və tətbiqi cəhətdən ciddi praktiki layihələr mövcud olmamışdır.

Hamılıqla Uca Allahdan diləyirik ki, bu silsilə hər şeydən öncə Uca və Ulu Allahın razılığını qazansın, sonra da bu ümmətin vəhdət və birlik üçün çalışan ixlaslı övladlarının da ürəyinə sirayət etsin.

Sonda da dua edib deyirik: həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur.

***Muhəmməd Salim əl-Xıdır***

*Elmi araşdırmalar mərkəzinin rəhbəri*

# MÜQƏDDİMƏ

Həmd aləmlərin rəbbi olan Allaha məxsusdur, peyğəmbərlərin ən xeyirlisi Muhəmmədə, onun pak ailəsinə, səhabələrinə, möminlərin anaları olan zövcələrinə və Qiyamətədək ona tabe olanlara Allahın salavatı və salamı olsun.

Sonrasına gəlincə...

Şübhəsiz ki, Uca Allahı təkləşdirmək bəndələrə əmr olunmuş ilk vacib əməldir. Uca Allah buyurur: **"Mən insanları və cinləri yalnız Mənə ibadət etsinlər deyə yaratdım."**[10] İmam İbn Cərir demişdir: "Yəni Mən insanları və cinləri bizə ibadət etsin və əmrimizə tabe olsun deyə yaratdım.[11]

Hafiz ibn Kəsir demişdir: "Mən onlara möhtac deyilkən, onlara Mənə ibadət etmələrini əmr etməyim üçün yaratdım.[12]

Bu tövhid, hörmətli elçilərin də dəvət etdikləri ilk şey olmuşdur. Tövhid Allah elçilərinin dəvətinin əsli, əsası, başı və dəvətin ən kamil məqamıdır. Uca Allah buyurur: **"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək."** [13] O, həmçinin

---

[10] "əz-Zariyat" surəsi, 56.

[11] "Təfsir ət-Təbəri", (22/445).

[12] "Təfsir İbn Kəsir", (7/425).

[13] "əl-Ənbiya" surəsi, 25.

buyurur: **“Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”–** ***deyən*** **elçi göndərdik.”**[14] Bu mövzuya işarət edən ayələr olduqca çoxdur, hətta demək olar ki, Quran əvvəldən-axıra tövhid mövzusundan kənara çıxmır. İmam İbn əl-Qeyyim əl-Cəuziyyə demişdir: “Qurandakı surələrin mütləq əksəriyyəti, hətta bütün surələr özündə tövhidin iki növünü ehtiva edir. Belə deyə bilərik ki, Qurandakı hər bir ayə ya tövhiddən bəhs edir, ya ona işarə edir, ya da ona çağırır. Quran ya Allah barəsində, Onun ad və sifətlərindən, feillərindən bəhs edir ki, bu da elmi və əməli tövhiddir. Ya da tək Ona ibadət etməyə, Ona şərik qoşmamağa, habelə Ondan başqa bütün məbudları inkar etməyə çağırır ki, bu da istək və tələb tövhididir. Ya da ki, əmr və qadağalarına tabeçiliyə çağırışdır ki, bu da tövhidin haqları və tamamlayıcılarıdır. Quran həm də tövhid və itaət əhlinə Allahın dünyada bəxş etdiyi üstünlük, axirətdə bəxş edəcəyi mükafatlardan bəhs edir. Bəzən də şirk və şirk qoşanların bu dünyada məruz qaldıqları alçalma, habelə axirətdə üzləşəcəkləri əzabdan söhbət açır – bu, tövhidin hökmündən kənara çıxanlar barəsində verilən xəbərdir. Beləliklə, Quran bütünlüklə həm tövhid, onun əhli, haqları və mükafatları, habelə şirk, onun əhli və onların cəzaları barədədir.”[15]

---

[14] “ən-Nəhl” surəsi, 36.
[15] “Mədaric əs-salikin”, (3/450).

Şeyxül-islam (Allah ona rəhmət eləsin) demişdir: "Bu, geniş bir mövzudur. Peyğəmbərlərin və elçilərin, onlara tabe olanların dinində, habelə aləmlərin rəbbi olan Allahın kitablarında tövhiddən daha əzəmətli bir şeyin mövcudluğu bəlli deyil. Tövratdakı ilk on kəlmənin birincisi, həmçinin "əl-Ənam" surəsindəki on tövsiyənin ilki tövhiddir.

Tövhid o qədər əzəmətlidir ki, Peyğəmbər ﷺ on üç il Məkkədə yalnız ona dəvət etmiş, səhabələrin qəlbini onun üzərində sabit etmiş, onlara tövhidin hər şeydən önəmli olduğunu bildirmişdir. Kim saf, təmiz və şirkin çirkinliklərindən uzaq halda tövhidlə Allahın hüzuruna çıxarsa, Allah ondan razı qalar. Kim də Ondan üz döndərərsə, Ona arxa çevirərsə, nəfsinin istəklərinə, şəxslərə və surətərə ibadət edərsə, Qiyamət günü onun aqibəti yalnız alçalma, həsrət və peşmançılıq olar.

Buxari və Muslim Əbu Zərdən رضي الله عنه Rəsulullahın ﷺ belə dediyini rəvayət etmişlər: "Rəbbimdən bir elçi gəlib məni müjdələdi və dedi: – Mənim ümmətimdən kim Allaha şərik qoşmadığı halda dünyasını dəyişərsə, Cənnətə daxil olar." Mən soruşdum: "Oğurluq etsə və zina etsə belə?" Dedi: – Oğurluq etsə və zina etsə belə."[16]

Utbən ibn Malikdən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: "Allahın üzü xatirinə "Lə iləhə illəllah" deyən kəsə Allah cəhənnəm odunu haram buyurmuşdur."[17]

---

[16] əl-Buxari, (1237); Muslim, (94).

[17] əl-Buxari, (425); Muslim, (33).

Abdullah ibn Məsud ﷺ demişdir: "Allahın Elçisi ﷺ demişdir: "Kim Allaha şərik qoşduğu halda ölərsə, Cəhəhhəmə girər". Mən də deyirəm: – Kim Allaha şərik qoşmadığı halda ölərsə, Cənnətə daxil olar".[18]

Tövhid Uca Allahın qulları üzərindəki haqqıdır. Muaz bin Cəbəl ﷺ rəvayət edərək demişdir: "Bir gün mən uzunqalığın üzərində Peyğəmbərin ﷺ tərkində oturmuşdum və o ﷺ mənə dedi: "Ey Muaz, bilirsənmi Allahın qullar üzərində, qulların da Allah üzərində haqqı nədir?" Dedim: "Allah və Elçisi daha yaxşı bilir." Peyğəmbər ﷺ buyurdu: "Allahın bəndələri üzərində olan haqqı odur ki, onlar Ona ibadət etsinlər və Ona heç nəyi şərik qoşmasınlar. Bəndələrin də Allah üzərində olan haqqı odur ki, Ona heç nəyi şərik qoşmayanlara əzab verməsin". Mən dedim: "Ey Allahın Elçisi, insanları müjdələməyimmi?" Dedi: "Mujdələmə, yoxsa onlar arxayınlaşarlar."[19]

İzzət və Cəlal Sahibi Allahın kitabına nəzər salmaqla Uca Allahın hidayət və müvəffəqiyyət bəxş etmək istədiyi kəs Allahın tövhidi nə üçün xüsusi olaraq vurğuladığından agah olacaqdır. O, Allah yanında nə qədər yüksək hörməti olsa belə, məxluqatından heç kəsə bundan bir pay ayırmamışdır. Nöqsansız Allahdan başqa ibadət haqqına malik məbud yoxdur, aləmlərin Rəbbidir, göylərin və yerin Qəyyumudur, əvvəlkilərin və sonrakıların İlahıdır,

---

[18] əl-Buxari, (1238).

[19] əl-Buxari, (2856); Muslim, (30).

nöqsansız sifətləri və kamil vəsfləri vardır. Naqisliklərdən, bənzərdən və oxşardan uzaqdır. O, Diri və Əbədidir, Onu yuxu tutmur və O, mürgüləmir. O, göylərin və yerin Malikidir. Onun izni olmadan heç kəs Onun yanında şəfaətçi ola bilməz. O, kamil elmi ilə məxluqatının gizlində və aşkarda olanlarını da bilir. Onun elmi olmadan yerə bir yarpaq belə düşmür, heç bir zərrə hərəkət etmir. O, heç kəsin bilmədiyini, qəlblərin dərinliyində olanları da bilir. O, qəlblərin də bilmədiyini, nələrin baş verəcəyini də bilir. O, Görəndir – kamil görməsi ilə məxluqatının ən kiçik zərrəsini, onun hissələrini, ətini, qanını, beynini və damarlarını görür. O, qaranlıq gecədə səhranın ortasındakı qara qarışqanın ayaq izlərini görür. O, yerin yeddi qat dərinliklərində olanları da, habelə göyün yeddi qat yüksəklərində olanları da görür. O, Eşidəndir – sözlərin gizli olanlarını da, aşkarda olanlarını da eşidir. Onun eşitməsi bütün səsləri əhatə edir. Məxluqatın səsləri Onun üçün qarışmır – heç bir səs Onun üçün anlaşılmaz deyil. Heç bir məsələ Onu çaşdırmır, istəyənlərin çoxluğu da Onu çətinliyə salmır. Aişə demişdir: "Həmd olsun o Allaha ki, Onun eşitməyi bütün səsləri əhatə edir. Bir dəfə bir qadın Rəsulullahın ﷺ yanına gəlib şikayət edir, məndən isə bəzi sözlərini gizlədir. İzzət və Cəlal Sahibi olan Allah da bu ayəni nazil etdi: "**Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin söhbətinizi eşidir. Həqiqətən, Allah Eşidəndir, Görəndir.**"

O, hər şeyə Qadirdir və öz qüdrəti ilə istədiyi kəsə hidayət verir, istədiyini də azdırır, mömini mömin edir, kafiri də kafir. Əməlisalehi əməlisaleh edir, günahkarı da günahkar. İbrahimi və onun zürriyyətini insanlara rəhbər edən də Odur. Onlar da Allahın hidayətinə varmış, Onun yoluna dəvət etmişlər. Fironu və qövmünü də Cəhənnəmə səsləyən rəhbərlər göndərmişdir. Kamil qüdrəti ilə heç kim Onun izni olmadan Onun elmindən heç bir şey əldə edə bilməz. O, kamil qüdrəti ilə göyləri və yeri altı gündə xəlq etmiş və yorulmamışdır. Məxluqatından heç kim onu aciz hala sala bilməz, əksinə, məxluqatı harada olsalar belə, Onun nəzarətindədir. Ondan qaçmaq istəyən kəs əllərindəki mərhələlərə düşər. Necə ki, demişlər:

*Əgər məxluq Sənin əllərindəki mərhələlərə qatlanırsa,*
*Günah edib Səndən necə qaça bilər?*

Möhtacsız olduğu üçün O, özünə nə övlad, nə yoldaş, nə şərik, nə də şəfaətçi götürməmişdir. Kamil əzəməti və ucalığı səbəbindən Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Məxluqatı Onu əhatə edə bilməz – O, hər şeydən Ucadır, hər şeyi Əhatə Edəndir. Onun sözləri tükənmir və dəyişmir – əgər bütün dənizlər mürəkkəb, yer üzündəki bütün ağaclar da qələm olsa, onlar tükənər, ancaq Allahın sözləri tükənməz.”[20]

Əgər Allah bütün bu vəsflərə və sifətlərə malikdirsə, O, həm ibadətə, həm də ibadətdə şərik qoşulmamağa layiqdir. İbadətdə, itaətdə, yönəlmədə, etimadda Onun

---

[20] “Tariqul-hicrateyn”, (211-213).

heç bir şəriki yoxdur. Uca və Nöqsansız Allah ibadətə layiq tək məbuddur. O ilah ki, qəlblər çətinlik zamanı ona yönəldikdə onlara cavab verməkdə acizdir, əsla ilah ola bilməz."[21]

Uca Allah buyurur: **"De: "Göylərin və yerin Rəbbi kimdir?" De: "Allahdır!" De: "Siz Onu qoyub özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə dost tutursunuz?" De: "Korla görən eyni ola bilərmi? Yaxud zülmətlə nur eyni ola bilərmi?" Yoxsa onlar Allaha, Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və *bu* yaradılış onlara bənzər göründü? De: "Hər şeyi yaradan Allahdır. O Təkdir, *hər şeyə* Qalib gələndir".**[22]

Uca və Nöqsansız Allah həmçinin buyurur: **"De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs *belə olduğu halda Allahdan* qorxmursunuz?" O sizin Haqq Rəbbiniz olan Allahdır. Haqdan sonra zəlalətdən başqa nə ola bilər? Siz necə də *haqdan* döndərilirsiniz! Beləliklə, fasiqlərin iman gətirməyəcəyinə dair Rəbbinin Sözü doğru çıxdı. De: "*Allaha* qoşduğunuz şəriklərdən eləsi varmı ki, *hər hansı bir* məxluqu ilk dəfə yaratsın, *öldükdən* sonra onu *əvvəlki halına* qaytarsın?" De: "Məxluqu ilk dəfə**

---

[21] "Məcmu əl-fətava", (1/88).

[22] "ər-Rəd" surəsi, 16.

**Allah yaradır, *öldükdən* sonra onu *əvvəlki halına* qaytarır. Siz necə də *haqdan* döndərilirsiniz!" De: "*Allaha* qoşduğunuz şəriklər arasında haqqa yönəldən bir kimsə varmı?" De: "Allah *Öz qullarını* haqqa yönəldir. Elə isə *deyin görək* haqqa yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa özünə doğru yol göstərilməyincə onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə edirsiniz?"**[23]

Cəlal sahibi olan Allah "əl-Əhqaf" surəsində Ondan başqasını ilah seçib ona ibadət edəni və bu ilaha itaətlərlə yaxınlaşanı inkar edərək buyurur: **"De: "Bir deyin görək, sizin Allahdan başqa tapındıqlarınız yer üzündə nə yaratmışlar? Yoxsa onların göylərin *yaradılmasında* bir şərikliyi var? Əgər doğru danışanlarsınızsa, mənə bundan əvvəl *nazil olmuş* bir kitab və ya elmdən qalan bir əsər gətirin". Allahı qoyub Qiyamət gününədək özünə cavab verə bilməyən əşyalara yalvaran kimsədən daha çox azmış kim ola bilər? Halbuki *o bütlər* onların yalvarışından xəbərsizdirlər."**[24]

Bütün bunlara görə də Uca Allaha şərik qoşmaq günahların ən pisi və ən böyüyü hesab olunur. Çünki bu, nəinki başqasına, hətta özünə belə heç bir xeyir və ya zərər verə bilməyən bir məxluqun Əzəmətli, Varlı, Həmd olunan Allahın məqamına layiq görülməsidir. Yaxşılıq etmək istəyənlərin Ona heç bir faydası ola bilməz,

---

[23] "Yunus" surəsi, 31-35.

[24] "əl-Əhqaf" surəsi, 4-5.

həmçinin heç kim də Ona bir pislik toxundura bilməz. Şirk zülmün və ədavətin ən böyüyüdür. Bu səbəbdən Uca Allah Loğman əl-Həkimin dilindən oğluna tövsiyə edərək buyurur: **"Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: "Oğlum! *Allaha* şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!"**[25] Sevimli Peyğəmbərimiz Mustafadan: "Ən böyük günah hansıdır?" – deyə soruşulduqda, o dedi: "Səni Allah yaratdığı halda ona şərikmi qoşursan?"[26]

Tövhid haqqında, onun tələbləri, vacibləri, müstəhəbləri, onu pozan amillər barədə uzun-uzadı danışmaq olar. Şeyxul-islam İbn Teymiyyə demişdir: "Şəkk yoxdur ki, tövhid Quranın sirri, imanın əsasıdır".[27] Belə olduğu halda bunu necə əhatələmək olar?

Məhv olmaq təhlükəsindən qurtarmaq istəyən ağıllı insan, ələlxüsus da müsəlman öz dinini qorumalı, bu əzəmətli elmi öyrənməlidir. O, bütün ömrünü buna sərf etsə belə, heç bir şey itirmiş olmaz. Xüsusən də bizlər – çünki biz haqqın batilə qarışdığı dolaşıq bir zamanda yaşayırıq. Bu dövrdə insanlardan və cinlərdən olan şeytanlar aktivləşərək insanları dinlərindən, Allahı təkləşdirməkdən uzaqlaşdırmağa, Uca Allahdan qeyrilərinə ibadət etməyə sövq edir, onları şəkillərdə yer alan ilahlar, adət-ənənələr və nəfsi istəklər qarşısında alçaltmağa səy göstərirlər.

---

[25] "Loğman" surəsi, 13.

[26] əl-Buxari, (4477); Muslim, (86). əl-Buxaridə digər rəvayət (4761).

[27] "Məcmu əl-fətava", (1/368).

Müxtəlif millətlər və tayfalar arasında ixtilafın baş verəcəyi Peyğəmbərdən ﷺ nəql olunmuş hədislə sabitdir. Əbu Davud və başqaları Əbu Hureyradan ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Yəhudilər yetmiş bir firqəyə, nəsranilər də yetmiş iki firqəyə bölünüblər. Mənim ümmətim isə yetmiş üç firqəyə bölünəcəkdir." [28] Hər bir firqə özünün haqq üzərində olduğunu, başqalarının isə batil üzərində olduğunu iddia edir. Bu səbəbdən müsəlman olan kəs bu qarşıdurmaların qarşısını almağa çalışmalı, Uca Allahın kitabına möhkəm sarılmalıdır. Bu elə bir kitabdır ki, onun nə önündə, nə də arxasında batil yoxdur. Həmçinin o, Peyğəmbərin ﷺ sünnəsindən də ümmətin sələflərinin və imamlarının fəhmi ilə möhkəm yapışmalı, çalışmalıdır ki, başqalarını müxtəlif fitnələrdən təhlükəsiz halda mühafizə etsin.

Bu istəklə, az görünsə belə, bu yöndən faydalı olmaq istədim ki, parçalanmış ümmətin birliyinə və vəhdətinə töhfə verim. Bu işdə isə bütün peyğəmbərlərin və Allah elçilərinin dəvətinin əsasını təşkil edən tövhiddən daha münasib mövzu tapmadım. Onlar məhz tövhidi bizim birliyimiz və vəhdətimiz üçün səbəb etmişlər. Beləliklə, həm əhli-sünnə, həm də imamilərin mənbələrindən tövhidin qismləri, əsasları, vacibləri, kamilləşdiriciləri və başqa qollarına dair bir sıra müştərək hədisləri topladım. Mümkün qədər çalışdım ki, iki məzhəb mənbələrindən

[28] Əbu Davud, (4596); İbn Macə, (3991). Albani bu hədisin səhih olduğunu demişdir.

daha oxşar ləfzləri bir araya gətirim. Bəzən daha kamil olan tam eyni ləfzləri, bəzən də ümumilikdə oxşar olan ləfzləri topladım.

Diqqətli oxucu görəcək ki, oxşar və eyni olan bir sıra hədislər mövcuddur. Bunun da səbəbi onların eyni mənbədən qaynaqlanmasıdır, çünki ola bilməz ki, Peyğəmbərin ﷺ əhli-beyti bir söz söyləsin, həmin söz də Allahın kitabına və Peyğəmbərinin ﷺ sünnəsinə müxalif olsun. Bu rəvayətlərin insanlar arasında həm yayılmasına, həm də insanların ona riayət etməsinə təşviq olunmasına hədsiz zərurət var.

Allahdan diləyirik ki, bizləri sevib razı qaldığı əməllərə müvəffəq etsin, İslam ümmətinin halını düzəltsin, insanları Onun dininə döndərsin – O, buna layiqdir və Qadirdir.

Son duamız isə belədir: Həmd aləmlərin rəbbi olan Allaha məxsusdur.

***Müəllif***

# İBADƏT TÖVHİDİ

## Tövhidin fəziləti

### a) Əhli-sünnə mənbələrindən:

1) Müaz bin Cəbəl ﵁ demişdir: "Bir gün mən uzunqulağın belində Peyğəmbərin ﷺ tərkində oturmuşdum, aramızda da yalnız miniyin arxa hissəsi var idi. O ﷺ mənə dedi: – Ey Muaz ibn Cəbəl! Mən dedim: – Buyur, ey Allahın Elçisi! O bir müddət getdikdən sonra dedi: – Ey Muaz ibn Cəbəl! Mən dedim: – Buyur, ey Allahın Elçisi! O, yenə bir müddət getdikdən sonra dedi: – Ey Muaz ibn Cəbəl! Mən dedim: – Buyur, ey Allahın Elçisi! Dedi: – Sən bilirsənmi Allahın qulları üzərində olan haqqı nədir? Dedim: – Allah və Elçisi daha yaxşı bilir. Peyğəmbər ﷺ buyurdu: "Allahın qulları üzərində olan haqqı odur ki, onlar Ona ibadət etsinlər və Ona heç nəyi şərik qoşmasınlar. O, bir müddət getdikdən sonra dedi: – Ey Muaz ibn Cəbəl! Mən dedim: – Buyur, ey Allahın Elçisi! Dedi: – Bilirsənmi ki, bunu etdikləri təqdirdə qulların Allah üzərindəki haqqı nədir? Dedim: – Allah və Elçisi daha yaxşı bilir. Dedi: – Onlara əzab verməsin".

**Mənbə:** Buxari, (7373); Muslim (30). Burada keçən mətn Muslimə məxsusdur.

2) Ubadə ibn Samitdən رضي الله عنه rəvayət olunur ki, Allahın Elçisi ﷺ demişdir: "Kim Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin Onun elçisi olmasına şəhadət verərsə, Cəhənnəm odu ona haram olar".

**Mənbə:** Muslim, (29).

3) Utban bin Malik رضي الله عنه demişdir: – Mən Allahın Elçisinin ﷺ belə dediyini eşitmişəm: "Allah xatirinə Ondan başqa ibadətə layiq məbudun olmadığını deyən hər bir bəndəyə Cəhənnəm odu haram olar."

**Mənbə:** Hədisi əl-Buxari rəvayət etmişdir (6423).

4) Ubadə ibn Samitdən رضي الله عنه nəql olunmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim: – Allahdan başqa ibadətə layiq məbud yoxdur, Onun şəriki də yoxdur, Muhəmməd də Onun qulu və elçisidir, İsa Allahın qulu və kənizinin oğludur, Ondan olan ruh və Məryəmə verdiyi kəlməsidir, Cənnət haqdır, Cəhənnəm haqdır! – deyərsə, Allah onu Cənnətin səkkiz qapısından istədiyi birindən oraya daxil edər".

**Mənbə:** əl-Buxari (3435), Muslim (28).

5) Osman ibn Əffandan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim Allahdan başqa ibadətə layiq məbudun olmadığını bildiyi halda ölərsə, Cənnətə daxil olar."

**Mənbə:** Hədisi Muslim (26) rəvayət etmişdir.

6) Əbu Hureyrə ﷺ və Əbu Səid ﷺ (Əaməş şübhə etmişdir) demişlər: "Təbuk döyüşü zamanı insanlara aclıq üz verdi. Onlar dedilər: – Ey Allahın Elçisi, bizə icazə versən qurbanlarımızı kəsər, rahatlanar, yeyib, yağ sürtərdik. Allahın Elçisi ﷺ dedi: "Elə edin". Sonra Ömər ﷺ gəlib dedi: – Ey Allahın Elçisi, belə etsək heyvanlar azalar. Allaha dua et ki, Allah onlara bərəkət versin və saylarını artırsın, ola bilsin ki, Allah bərəkət versin. Allahın Elçisi ﷺ dedi: "Olsun". Sonra o, bir heyvan gətirdib yerə uzatdı, sonra da onların sayının artması üçün dua etdi. Beləcə, insanlardan biri bir ovuc dən, digəri bir ovuc xurma, başqa birisi də ləpə gətirir. Bu minvalla heyvanın yanında müəyyən qədər ərzaq toplanır. Sonra Allahın Elçisi ﷺ dua edərək bərəkət diləyib dedi: "Yeməkdən qablarınızda götürün". Ordugahda elə bir qab qalmadı ki, onu yeməklə doldurmasınlar. Onlar yeyib doydular və hətta yeməkdən artıq da qaldı. Sonra Allahın Elçisi ﷺ dedi: "Şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur və mən Allahın elçisiyəm. Hər kim bu sözləri qəlbində heç bir şübhə olmadan söyləyərsə, Cənnəti qazanar".

**Mənbə:** Hədisi Muslim (27) rəvayət etmişdir.

**b) İmamilərin mənbələrindən:**

1) Əbu Həmzə Əbu Cəfərdən عليه السلام rəvayət edərək demişdir: – Mən onun belə dediyini eşitmişəm: "Lə ilələ illəllahdan daha böyük savabı olan bir şey yoxdur. Çünki

Allahın tayı-bərabəri yoxdur və Onun əmrlərində həmşəriki yoxdur."

**Mənbə:** "əl-Kafi" (2/516), əs-Saduqun "Tövhid" əsəri (19), "Bihar əl-ənvar" (90/194).

2) Ubeydullah ibn əl-Valid əl-Vassafi Allahın Elçisinin ﷺ belə dediyini rəvayət etmişdir: – Kim "Lə iləhə illəllah" deyərsə, onun üçün Cənnətdə qırmızı yaqutdan bir ağac əkilər – onun torpağı ağ müşkdən olar, o, baldan şirin, qardan ağ, müşkdən daha gözəl qoxulu olar. Onun üzərində bakirə qızların məmələrinə bənzər meyvələr olar və o, yetmiş zənbildən artıq bar verər."

Allahın Elçisi ﷺ həmçinin demişdir: "Ən xeyirli ibadət "Lə iləhə illəllah" deməkdir".

O ﷺ həm də demişdir: "Ən xeyirli ibadət istiğfardır. Necə ki, İzzət və Cəlal Sahibi olan Allah öz kitabında buyurur: **"Bil ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur və günahların üçün bağışlanma dilə".**

**Mənbə:** "əl-Məhasin" (1/30), "əl-Kafi" (2/517), "Bihar əl-ənvar" (8/183).

3) Əbu Abdullah عليه السلام demişdir: "Cənnətin qiyməti "Lə iləhə illəllah və Allahu əkbər"dir."

**Mənbə:** "əl-Kafi" (2/517), əs-Saduqun "Tövhid" əsəri (21), "Vəsail əş-şiə" (7/190).

4) Əbu Abdullah عليه السلام demişdir: “Kim hər gün “Allahdan başqa ibadətə layiq məbud yoxdur, O, Haqdır, O, Haqdır; Allahdan başqa ibadətə layiq məbud yoxdur, biz Onun bəndələriyik; Allahdan başqa ibadətə layiq məbud yoxdur, biz Ona səmimi qəlbdən iman gətiririk” deyərsə, Allah üzünü ona tərəf çevirər və həmin adam Cənnətə girənədək ondan üz döndərməz”.

**Mənbə:** “əl-Məhasin” (1/32), “əl-Kafi” (2/519), “Vəsail əş-şiə” (7/220).

5) Abdullah ibn Asim demişdir: – Allahın Elçisi صلى الله عليه وآله وسلم demişdir: “Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur və Muhəmməd Onun qulu və elçisidir. Canım Əlində olan Allaha and olsun ki, bunu deyən hər kəsə Cəhənnəm odu haram olar.”

**Mənbə:** ət-Tusinin “əl-Amali” əsəri (260), “Mənaqib ali Əbu Talib” (1/89), “Bihar əl-ənvar” (18/24).

6) Peyğəmbər صلى الله عليه وآله وسلم demişdir: “İnsanlara çatdırın ki, kim “Allahdan başqa ibadətə layiq məbud yoxdur və mənim Onun elçisiyəm” deyə şahidlik etsə, Cənnətə daxil olar.”

**Mənbə:** “Mustədrak əl-vəsail” (5/366), “Cami əhadis əş-şiə” (15/424), Qutub ər-Ravəndinin “Lubb əl-əlbab” əsərinə isnad olunur.

# İBADƏTDƏ UCA ALLAHAİXLASLI OLMAQ

## a) Əhli-sünnə mənbələrindən:

1) Ömər ibn əl-Xattab ﷺ demişdir: – Mən Allahın Elçisinin ﷺ belə dediyini eşitmişəm: "Əməllər niyyətlərə görədir və hər kəsə də yalnız niyyət etdiyi şey qalacaq. Kimin hicrəti Allah və Onun Rəsulu üçündürsə, onun hicrəti, Allaha və Onun Rəsuluna aiddir. Kimin də hicrəti əldə edəcəyi dünya *malına* və ya evlənəcəyi qadına görədirsə, onun hicrəti, xatirinə hicrət etdiyi şeyə aiddir."

**Mənbə:** əl-Buxari (1), (54); Muslim (1907). Burada keçən mətn Muslimindir.

2) Süleyman ibn Yəsar demişdir: Şam əhlindən öncül olan bir neçə şəxs Əbu Hureyraya ﷺ dedilər: – Ey şeyx, bizə Allahın Elçisindən ﷺ eşitdiyin bir hədis danış. O dedi: – Bəli, mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Qiyamət günü hamıdan öncə mühakimə olunacaq kəslər bunlardır: Şəhid Allahın hüzuruna gətiriləcək və Allah ona bəxş etdiyi nemətlər haqqında xəbər verib deyəcək: "Bu nemətlərin müqabilində nə etmisən?" O deyəcək: "Sənin yolunda vuruşub şəhid olmuşam". Allah da ona deyəcək ki, "Yalan deyirsən, sənə "qəhrəmandır" deyilsin deyə vuruşmusan və ona da nail olmusan". Sonra əmr olunacaq və o, üzü üstə sürüklənib Cəhənnəmə atılacaq. Sonra elm öyrənmiş və onu insanlara öyrətmiş, çoxlu Quran oxumuş

bir şəxs Allahın hüzuruna gətiriləcək və Allah ona bəxş etdiyi nemətlər haqqında xəbər verib deyəcək: "Bu nemətlərin müqabilində nə etmisən?" O deyəcək: "Sənin yolunda elm öyrənib onu insanlara öyrətmişəm və Quran oxumuşam". Allah da ona deyəcək ki, "Yalan deyirsən, sənə "alimdir" deyilsin deyə elm öyrənmisən və sənə "qaridir" (gözəl Quran oxuyandır) deyilsin deyə Quran oxumusan və ona da nail olmusan". Sonra əmr olunacaq və o, üzü üstə sürüklənib Cəhənnəmə atılacaq. Daha sonra Allah tərəfindən çoxlu var-dövlət verilmiş bir şəxs Onun hüzuruna gətiriləcək və Allah ona bəxş etdiyi nemətlər haqqında xəbər verib deyəcək: "Bu nemətlərin müqabilində nə etmisən?" O da deyəcək: "Var-dövlətimi Sənin yolunda, Sənin razı qaldığın işlərə sərf etmişəm". Allah da ona deyəcək ki, "Yalan deyirsən, sənə "necə də səxavətli insandır" deyilsin deyə var-dövlətini sərf etmisən və ona da nail olmusan". Sonra əmr olunacaq və o, üzü üstə sürüklənib Cəhənnəmə atılacaq".

**Mənbə:** Hədisi Muslim (1905) rəvayət etmişdir.

3) Əbu Musa رضي الله عنه deyir ki, bir dəfə o Peyğəmbərdən ﷺ şücaət, təəssübkeşlik və ya riyakarlıqla vuruşan kəslərdən hansının Allah yolunda olması barədə soruşdu. Peyğəmbər ﷺ buyurdu: "Hər kim Allahın Sözü hər şeydən üstün olsun deyə vuruşarsa, Uca Allahın yolunda vuruşmuş olar".

**Mənbə:** əl-Buxari (123) və Muslim (1904).

**b) İmamilərin mənbələrindən:**

1) Cəfər ibn Muhəmməd atasından, o da babası Əli ibn Hüseyndən, o da atası Hüseyndən, o da atası Əli ibn Əbu Talibdən ﷵ rəvayət etmişlər ki, Peyğəmbər ﷺ Əlini bir orduya başçı təyin edib döyüşə göndərdi və insanlara əmr etdi ki, ona tabe olsunlar. Ənsarlardan biri öz qardaşına belə dedi: – Əlinin ordusunda vuruş ki, bəlkə əlimizə xadimədən, heyvandan bir şey keçə, biz də faydalanaq. Onun bu sözləri Peyğəmbərə ﷺ çatdıqda o, dedi: "Əməllər niyyətlərə görədir, hər kəsə niyyət etdiyi şey qalacaq. Kim Allah yanında olanları əldə etmək üçün vuruşarsa, Allah yanında əcrə nail olar. Hər kim dünya məqsədi ilə və ya özündə olmayan kəndiri əldə etmək üçün vuruşarsa, ona niyyət etdiyi şey qalar".

**Mənbə:** "Məsail Əli ibn Cəfər" (346), Tusinin "əl-Amali" əsəri (2/206), "Bihar əl-ənvar" (67/212).

2) Rəsulullahın ﷺ belə dediyi rəvayət olunur: "Şübhəsiz ki, əməllər niyyətlərə bağlıdır və hər kəsə yalnız niyyət etdiyi şey qalacaq. Kimin hicrəti Allah və Onun Rəsulu üçündürsə, onun hicrəti Allaha və Onun Rəsuluna aiddir. Kimin də hicrəti evlənəcəyi qadına və ya əldə edəcəyi dünya *malına* görədirsə, onun hicrəti, xatirinə hicrət etdiyi şeyə aiddir."

**Mənbə:** "Dəaim əl-İslam" (1/4), "Avali əl-Ləali" (1/81).

3) Əbul-Həsən ər-Ridadan عليه السلام rəvayət olunur ki, Möminlərin əmiri عليه السلام demişdir: “Allaha ibadətdə və duada ixlaslı olan, gözlərinin gördüyü ilə qəlbini məşğul etməyən, qulaqlarının eşitdiyi ilə Allahı zikr etməyi unutmayan, başqasına verdiyi ilə qəlbi sıxılmayan kəsə Cənnət olsun.”

**Mənbə:** “əl-Kafi” (2/16), “Bihar əl-ənvar” (67/229).

4) Əbu Abdullah عليه السلام İzzət və Cəlal Sahibi Allahın: **“Hənif müsəlman olaraq...”** ayəsi barəsində buyurmuşdur: “Yəni səmimi, ixlasla, heç bir bütə ibadət etmədən”.

**Mənbə:** “əl-Kafi” (2/15), “Vəsail əş-şiə” (1/43).

5) Əbu Abdullah عليه السلام İzzət və Cəlal sahibi olan Allahın: **“Hansınızın daha yaxşı əməl sahibi olduğunu bildirmək üçün...”** ayəsi barəsində buyurmuşdur: “Yəni ən çox əməli olan deyil, ən savablı əməli olandır. Burada Allah qorxusu, sədaqət və xoş niyyət olmalıdır”. Sonra dedi: “Əməl üzərində ixlaslı qalmaq əməli etməkdən daha çətindir. İxlaslı əməl odur ki, İzzət və Cəlal sahibi olan Allahdan başqa kiminsə ona görə səni tərifləməsini istəməyəsən. Niyyət əməldən daha əfzəldir, əslində niyyətin özü də əməldir”. Sonra o, İzzət və Cəlal sahibi olan Allahın bu ayəsini oxudu: **“Hər kəs öz şəklində əməl edər”** – yəni niyyətinə görə”.

**Mənbə:** “əl-Kafi” (2/16), “Bihar əl-ənvar” (67/230).

6) Əbu Abdullah ﴿عليه السلام﴾ İzzət və Cəlal sahibi olan Allahın: **"Yalnız sağlam qəlblə Rəbbinin yanına gələn kəsdən başqa"** ayəsi barəsində buyurmuşdur: "Sağlam qəlb odur ki, onun içərisində Allahdan savayı heç kəs olmasın. İçərisində şirk və ya şəkk olan qəlb etibarsızdır. Bunanla dünyaya göz dikməməyi istəmişlər ki, qəlblər axirətə bağlı olsun."

**Mənbə:** "əl-Kafi" (2/16), "Vəsail əş-şiə" (1/60).

# KİM İXLASLA “LƏ İLƏHƏ İLLƏLLAH” DEYƏRSƏ...

## a) Əhli-sünnə mənbələrindən:

Əbu Hureyrə ﷺ demişdir: “Mən Allahın Elçisindən ﷺ soruşdum: – Ey Allahın Elçisi, Qiyamət günü sənin şəfaətinə nail ola biləcək kəslər kimlərdir? O ﷺ dedi: – Ey Əbu Hureyrə, sənin hədislərə olan hərisliyini görüb fikirləşirdim ki, bu barədə səndən öncə heç kim soruşmaz. Qiyamət günü mənim şəfaətimə nail olan kəslər ixlasla, səmimi qəlbdən “Lə iləhə illəllah” deyənlər olacaqdır.”

**Mənbə:** Hədisi əl-Buxari (99) rəvayət etmişdir.

## b) İmamilərin mənbələrindən:

Asbağ ibn Nəbatə demişdir: – İbn əl-Kəvva əmirəl-mömininindən عليه السلام soruşdu ki, “Sənin ayağının yerindən Ərşə qədər olan məsafə nə qədərdir?” Dedi: “Anan səni itirsin, ey ibn əl-Kəvva, öyrənmək üçün sual ver, hər ağlına gələni də soruşma! Ayağımı qoyduğum yerdən Rəbbimin Ərşinə qədər olan məsafə ixlasla “Lə iləhə illəllah” deyiləcək qədərdir”. Dedi: – Ey möminlərin əmiri, “Lə iləhə illəllah” deyən kəsin savabı nə qədərdir? O dedi: “Kim səmimi qəlbdən “Lə iləhə illəllah” deyərsə, günahları silinər, göylərin qapıları və mələklərin sıraları

açılar. Hətta mələklərdən bəziləri digərlərinə deyər ki, “Allahın əzəmətindən qorxun!”. Üçüncü dəfə ixlasla “Lə iləhə illəllah” deyərsə, Ərşin altınadək ucalar. Allah da deyər: “Orada məskunlaş! İzzətimə və Cəlalıma and olsun ki, səni deyən kəsin bütün günahlarını bağışlayacağam”. Sonra o, bu ayəni oxudu: **“Gözəl söz Ona tərəf yüksəlir və onu ucaldan yaxşı əməldir.”**

**Mənbə:** “əl-İhticac” (1/386), “Bihar əl-ənvar” (10/122).

# “RİYAKARLIQ ŞİRKDİR” fəsli

## a) Əhli-sünnə mənbələrindən:

1) Mahmud ibn Lubeyd رضي الله عنه nəql edir ki, Allahın Elçisi صلى الله عليه وآله وسلم demişdir: “Sizin üçün ən çox qorxduğum şey kiçik şirkdir.” Səhabələr soruşdular: “Kiçik şirk nədir, ey Allahın elçisi?” O صلى الله عليه وآله وسلم buyurdu: “Bu, riyakarlıqdır. Uca Allah Qiyamət günü insanları mükafatlandıracağı zaman belə buyuracaq: – Dünya həyatında ikən əməllərinizi göstərdiyiniz kəslərin yanına gedin, qoy sizin mükafatınızı onlar versin.”

**Mənbə:** Hədisi İmam Əhməd “Müsnəd” əsərində səhih isnadla (23686) rəvayət etmişdir.

2) Əbu Hureyra رضي الله عنه nəql edir ki, Allahın Elçisi صلى الله عليه وآله وسلم demişdir: “Uca və Böyük Allah buyurur: – Mən şərik olmağa möhtac deyiləm. Kim bir əməl edər və əməlində bir kəsi Mənə şərik qoşarsa, onu da, onun qoşduğu şəriki də tərk edərəm".

## b) İmamilərin mənbələrindən:

1) Yezid ibn Xəlifə demişdir: “Əbu Abdullah عليه السلام demişdir: “Hər bir riyakarlıq şirkdir. Kim insanlar üçün bir əməli edərsə, onun savabını vermək də həmin insanlara

düşər. Kim də Allah üçün bir əməli edərsə, savabını da Allahdan alar".

**Mənbə:** "əl-Kafi" (2/414), "əl-Məhasin" (1/122), "Bihar əl-ənvar" (69/281).

2) Əli ibn Salim demişdir: "Mən Əbu Abdullahın عليه السلام belə dediyini eşitmişəm: "İzzət və Cəlal Sahibi olan Allah buyurur: – Mən şəriklərin ən xeyirlisiyəm. Kim etdiyi əməlində başqasını Mənə şərik qoşarsa, Mən ondan bunu qəbul etmərəm, yalnız ixlasla Mənim üçün edilən əməli qəbul edərəm".

**Mənbə:** "əl-Kafi" (2/295), "əl-Məhasin" (252-ci səh.).

2) Hişam ibn Salim Əbu Abdullahın عليه السلام belə dediyini rəvayət etmişdir: "İzzət və Cəlal Sahibi olan Allah buyurur: – Mən şəriklərin ən xeyirlisiyəm. Kim həm Mənim üçün, həm də başqası üçün bir əməl edərsə, o əməl başqası üçündür."

**Mənbə:** "əl-Məhasin" (1/252), "Bihar əl-ənvar" (69/299), "Vəsail əş-şiə" (1/72).

# HƏR BİR ABİD İBADƏT ETDİYİNƏ TABE OLACAQ

## a) Əhli-sünnə mənbələrindən:

Əbu Hureyra ﷺ rəvayət edir ki, insanlar soruşdular: "Ey Allahın Elçisi, bizlər Qiyamət günü Rəbbimizi görəcəyikmi?" Dedi: "Bədirlənmiş ayı maneəsiz görməkdə çətinlik çəkirsinizmi?" Dedilər: "Xeyr, ey Allahın Elçisi". Dedi: "Bulud olmadığı halda günəşi görməkdə çətinlik çəkirsinizmi?" Dedilər: "Xeyr". Dedi: "Onu da belə görəcəksiniz. Qiyamət günü insanlar həşr olunacaq və onlara deyiləcək: – Kim nəyə ibadət edirdisə, ona tabe olsun! Bəziləri günəşə, bəziləri aya, bəziləri də tağutlara tabe olacaq. Yalnız içərisində münafiqlərin də olduğu bu ümmət qalacaq..."

**Mənbə:** Hədisi əl-Buxari (806) və Muslim (299) rəvayət etmişlər.

## b) İmamilərin mənbələrindən:

Əbu Abdullah عليه السلام demişdir: "Şübhəsiz ki, Allah özündən başqa bütün ibadət olunanları, günəşi, ayı, heykəli və şəkili gətirəcək və deyəcək: – Allahdan başqa ibadət etdiklərinizlə birlikdə Cəhənnəmə gedin!"

**Mənbə:** "əl-Məhasin" (1/254).

# ƏMƏL OLMADAN "LƏ İLƏHƏ İLLƏLLAH" DEMƏK SAHİBİNƏ FAYDA VERMƏZ

**a) Əhli-sünnə mənbələrindən:**

1) İbn Ömərdən ﷺ rəvayət olunan hədisdə Allahın Elçisi ﷺ demişdir: "İnsanlarla, onlar Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına və Muhəmmədin Allahın Elçisi olduğuna şəhadət edincəyə, namaz qılıb, zəkat verincəyə qədər vuruşmağa əmr olundum. Elə ki bunu etdilər, İslamın haqqı müstəsna olmaqla, qanları və mallarını məndən qorumuş olarlar. Haqq-hesablarını çəkmək isə Allaha aiddir"

**Mənbə:** əl-Buxari (25) və Muslim (22).

2) Əbu Malik atasından ﷺ rəvayət etmişdir ki, mən Allahın Elçisinin ﷺ belə dediyini eşitdim: "Kim "Lə iləhə illəllah" deyərək Allahdan başqa ibadət olunanları inkar edərsə, onun malı və qanı toxunulmaz sayılar, onun hesabını vermək isə Allaha aiddir".

**Mənbə:** Hədisi Muslim (23) rəvayət etmişdir.

**b) İmamilərin mənbələrindən:**

1) Əbu Abdullah عليه السلام deyir ki, Allahın Elçisi ﷺ demişdir: "Ey insanlar! "Lə iləhə illəllah, Muhəmmədən rəsulullah" deyənədək insanlarla vuruşmağa əmr olundum. Əgər bunu etsəniz, haqqı istisna olmaqla malınızı

və qanınızı qorumuş olarsınız. Hesabınızı vermək isə Allaha aiddir."

**Mənbə:** "əl-Məhasin" (1/284), "Bihar əl-ənvar" (65/282).

2) ər-Rida عليه السلام Əlidən عليه السلام rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanlarla, onlar "Lə iləhə illəllah" deyənədək döyüşməyə əmr olundum. Əgər bunu desələr, qanları və malları toxunulmaz olar".

**Mənbə:** "Musnəd ər-Rida" (3/380), "Bihar əl-ənvar" (65/242).

3) Əbu Cəfər عليه السلام deyir ki, Möminlərin əmirinə عليه السلام deyildi: "Kim "Lə iləhə illəllah, Muhəmmədən Rəsulullah" deyərsə, mömin olarmı?" O soruşdu: "Bəs Allahın fərzləri haradadır?" Mən onun belə dediyini də eşitmişəm ki, Əli belə deyərdi: "İman təkcə kəlam olsaydı, onda oruc, namaz, halal və haram ona aid olmazdı". Dedi: "Mən Əbu Cəfərə dedim: – Bizdə bir qövm deyirdi ki, birisi "Lə iləhə illəllah, Muhəmmədən Rəsulullah" deyərsə, mömin olar". Dedi: "Sərhədləri açdıqda əllər kəsilmirmi? İzzət və Cəlal sahibi olan Allah üçün mömindən daha hörmətli bəndə yoxdur, çünki mələklər möminlərin xidmətçiləridir. Allahın dərgahı möminlər üçündür, Cənnət möminlər üçündür, hurilər möminlər üçündür". Sonra da dedi: "Məgər fərzləri inkar edən kafir olmurmu?"

**Mənbə:** "əl-Kafi" (2/50), "əl-Fusul əl-muhimmə" (1/432).

## "İSLAMIN ƏSASLARI" fəsli

### a) Əhli-sünnə mənbələrindən:

1) İbn Ömər ﵁ nəql edir ki, Allahın Elçisi ﷺ demişdir: "İslam beş əsas üzərində bina edilmişdir: Allahdan başqa ibadət haqqına malik məbudun olmadığına və Muhəmmədin Onun elçisi olmasına şəhadət vermək, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan ayında oruc tutmaq."

**Mənbə:** əl-Buxari (8) və Muslim (16).

2) Əbu Hureyra ﵁ demişdir: "Bir gün Peyğəmbər ﷺ insanların arasında olarkən Cəbrayıl onun yanına gəlib dedi: – İman nədir? Dedi: – İman Allaha, mələklərinə, Onunla görüşə, elçilərinə və ölümdən sonra dirilməyə inamdır. Dedi: – İslam nədir? Dedi: – İslam, Allaha ibadət edib Ona şərik qoşmamaq, namaz qılmaq, fərz olan zəkatı vermək və Ramazan ayında oruc tutmaqdır. Dedi: – Ehsan nədir? Dedi: – Allaha, Onu görürmüş kimi ibadət etmək, əgər sən Onu görmürsənsə də, O səni görür. Dedi: – Saat nə vaxtdır? Dedi: – Bu xüsusda soruşulan soruşandan çox bilmir. Sənə onun işarələri barədə xəbər verəcəyəm – kəniz öz ağasını dünyaya gətirəcəyi zaman, dəvə otaran çobanlar hündür bina tikməkdə yarışacağı zaman. Beş şey vardır ki, onları Allahdan başqası bilmir. Sonra o, Uca Allahın **"Şübhəsiz**

**ki, Qiyamət saatının vaxtı yalnız Allaha məlumdur"** ayəsini oxudu. Sonra çıxıb getdi. Sonra onu geri qaytarmaq istədilər, lakin heç bir kəsi görmədilər. Dedi: – Bu Cəbrail idi, gəlmişdi ki, insanlara öz dinlərini öyrətsin".

**Mənbə:** Hədisi əl-Buxari (50) və Muslim (9) rəvayət etmişlər. Burada keçən mətn əl-Buxariyə məxsusdur.

3) Ənəs ibn Malik ﵁ nəql edir ki, bizlərə Allahın Elçisinə ﷺ [yerli-yersiz] sual vermək nəhy olundu. Arzu edirdik ki, çöldən keçən ağıllı birisi gəlib Rəsulullaha ﷺ sual versin, biz də dinləyək. Bir dəfə də çöldən birisi gəlib soruşdu: "Ey Muhəmməd, sənin səfirin bizim yanımıza gəlib bəyan edir ki, sən Allahın səni göndərdiyini iddia edirsən". O dedi: "Doğru deyir". Yolçu soruşdu: "Səmanı kim yaradıb?" Dedi: "Allah". Dedi: "Yeri kim yaradıb?" Dedi: "Allah". Dedi: "Bu dağları və onların üzərində olanları kim yaradıb?" Dedi: "Allah". Dedi: "Səni göyü, yeri və oradakı məxluqları yaradan Allaha and verirəm, səni Allahmı göndərib?" Dedi: "Bəli". Dedi: "Göndərdiyin səfir dedi ki, gecə və gündüz ərzində beş dəfə namaz qılmaq bizlərə fərz olunmuşdur". Dedi: "Doğru söyləyib". Dedi: "Allah xatirinə de görüm, Allahmı bunu sənə əmr edib?" Dedi: "Bəli". Dedi: "Göndərdiyin səfir dedi ki, biz malımızdan zəkat verməliyik". Dedi: "Doğru söyləyib". Dedi: "Səni and verirəm səni göndərən Allaha, Allahmı bunları sənə əmr edib?" Dedi: "Bəli". Dedi: "Göndərdiyin səfir dedi ki, bizlər hər il Ramazan ayını oruc tutmalıyıq".

Dedi: "Doğru söyləyib". Dedi: "Səni and verirəm səni göndərən Allaha, Allahmı bunları sənə əmr edib?" Dedi: "Bəli". Dedi: "Göndərdiyin səfir dedi ki, aramızda imkanı olanlar Həcc ziyarəti etməlidir". Dedi: "Bəli". Sonra həmin adam: "Səni haqq olaraq göndərən Allaha and olsun ki, bunların üzərinə nə bir şey artıracağam, nə də onlardan bir şey azaldacağam" – deyərək çıxıb getdi. Peyğəmbər صلى الله عليه وآله وسلم dedi: "Əgər dediyində doğru olsa, Cənnətə daxil olacaq".

**Mənbə:** Hədisi Muslim (12) rəvayət etmişdir.

4) Əbu Əyyub əl-Ənsari رضي الله عنه demişdir: "Bir dəfə səfər vaxtı bir bədəvi Allahın Elçisinə صلى الله عليه وآله وسلم yaxınlaşıb onun dəvəsinin ovsarından tutub dedi: "Ey Allahın Elçisi (və ya ey Muhəmməd), mənə elə bir əməl de ki, həmin əməl məni Cənnətə yaxınlaşdırsın və Cəhənəmdən uzaqlaşdırsın. Peyğəmbər صلى الله عليه وآله وسلم bir müddət susduqdan sonra səhabələrinə nəzər salıb dedi: "Bu adam müvəffəq oldu (və ya hidayət olundu)". Dedi: "Necə dedin?" O yenidən təkrar etdi. Peyğəmbər صلى الله عليه وآله وسلم dedi: "Allaha ibadət edərək ona heç bir şeyi şərik qoşmursan, namaz qılırsan, zəkat verirsən, qohumlarla əlaqə saxlayırsan. Dəvəni burax."

**Mənbə:** Hədisi Muslim (13) rəvayət etmişdir.

**b) İmamilərin mənbələrindən:**

1) Əbu Abdullah عليه السلام demişdir: "Uca və Ulu Allah Muhəmmədə Nuha, İbrahimə, Musa və İsaya verilmiş

şəriətləri vermişdir: tövhid, ixlas, şirkdən uzaqlıq, açıq həniflik fitrəti; rahiblik və səyahət yoxdur; yaxşı nemətlər halal, pis nemətlər də haram; çətinlikləri yüngülləşdirmiş, sonra onlara namaz, zəkat, oruc, həcc, miras, haramlar, fərzlər, Allah yolunda cihad, əlavə olaraq dəstəmaz, "Fatihə" surəsini, "Bəqərə" surəsinin sonunu və müfəssəl formasını vermiş, qənimətləri halal etmiş, qorxu ilə qələbə vermiş, yer üzərini pak və məscid buyurmuş, (Peyğəmbəri) bütün insanlara – ağlara, qaralara, cinlərə və insanlara göndərmiş, cizyəni buyurmuş, müşrikləri əsir götürərək onlardan fidyə almağı halal görmüş, sonra heç bir peyğəmbərə mükəlləf etmədiyi əmrlərlə onu mükəlləf etmiş, səmadan ona qınsız qılınc nazil etmiş və ona: "Allah yolunda vuruş, yalnız özünü mükəlləf et" – deyə əmr olunmuşdur.

**Mənbə:** "əl-Kafi" (2/17), "əl-Məhasin" (1/287), "Bihar əl-ənvar" (16/331).

2) Əbu Cəfərdən ﷺ rəvayət olunan uzun bir hədisdə o demişdir: "Bəzi insanlar bu Quran barəsində elmsiz danışmışlar,.. ... ... Dedi: "Allah Muhəmmədə Məkkədən çıxıb Mədinəyə yola düşməyə izn verdikdə, İslamı beş əsas üzərində bina etdi: "lə iləhə illəllah, Muhəmmədən abduhu və rəsuluhu" şəhadəti, namaz qılmaq, zəkat vermək, həcc etmək, Ramazanda oruc tutmaq..."

**Mənbə:** "əl-Kafi" (2/31), "Bihar əl-ənvar" (66/89).

3) Əbu Abdullah ﷺ demişdir: "Bir dəfə Rəsulullah səfərdə ikən səhabələrinə dedi ki, bu yerlərdən birisi çıxıb sizin yanınıza gələcək, o, üç gündən bəri köməksiz vəziyyətdədir. Az sonra dərisi sümüyünə yapışmış, gözləri də başının içərisinə batmış, paxla yeməkdən dodaqları yamyaşıl bir bədəvi onların yanına gəldi. Onlara çatınca, Peyğəmbəri soruşub ona yaxınlaşdı və dedi: "Mənə islamı öyrət". Dedi: "Şahidlik edirəm ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur, mən Muhəmməd də Onun elçisiyəm" de!". Dedi: "Təsdiq edirəm". Dedi: "Beş vaxt namaz qıl, Ramazan ayında da oruc tut". Dedi: "Təsdiq edirəm". Dedi: "əl-Həram evinə həcc et, zəkat ver, cənabət halında da qüsl et". Dedi: "Təsdiq edirəm". Sonra bədəvinin qatırı oradan uzaqlaşdı. Bir müddət sonra Peyğəmbər onu soruşdu. İnsanlar onu axtarmağa getdilər və ordugahın sonunda gördülər ki, qatırının ayağı bir quyuya düşüb, həm qatır, həm də bədəvi ölüblər. Peyğəmbər əmr etdi, bir çadır qurub onu yudular. Daha sonra Peyğəmbər onu kəfənlədi. Az sonra peyğəmbərin etdiyi bir hərəkətin səsini eşitdilər. Sonra o, alnından tər damcıladığı halda çölə çıxdı və dedi: "Bu bədəvi ac ikən dünyasını dəyişdi. O, iman gətirib imanına zülm qatmayan kəslərdəndir. İndi hurilər Cənnət meyvələri ilə onun ağzını doldurur, biri deyir ki, ey Allahın Elçisi, məni onun xanımı et, digəri də deyir ki, məni onun xanımı et."

**Mənbə:** "əl-Xəraic val-cəraih" (88), "Bihar əl-ənvar" (22/75).

4) Səlim ibn Qeys demişdir ki, bir dəfə birisi Əli ibn Əbu Talibdən ﷺ iman barədə soruşdu: "Ey möminlərin əmiri, mənə iman barədə elə xəbər ver ki, səndən sonra başqasından bu barədə soruşmayım". Əli dedi: "Bir dəfə bir kişi Peyğəmbərin yanına gələrək mənə verdiyin bu sualı ona vermiş, eynilə sənin söylədiyin kimi də ona belə demişdi. Sonra onunla söhbət etdi. Sonra dedi: "Əyləş". Ona dedi: "İman etdim". Sonra Əli üzünü həmin adama çevirib dedi: "Bilirsənmi, bir dəfə Cəbrail insan qiyafəsində Allahın Elçisinin yanına gəlib ondan soruşdu: – İslam nədir? Dedi: – "Allahdan başqa ibadətə layiq məbud yoxdur və Muhəmməd Onun qulu və elçisidir" şəhadəti, namaz qılmaq, zəkat vermək, həcc etmək, Ramazan ayını oruc tutmaq və cənabətdən qüsül almaq. Soruşdu: – İman nədir? Dedi: – Allaha, mələklərinə, kitablarına, elçilərinə, ölümdən sonra həyata, qədərin xeyrinə və şərinə, şirininə və acısına inanmaq. Kişi ayağa qalxdıqda Rəsulullah dedi: – Bu Cəbraildir, gəlib ki, sizlərə dininizi öyrətsin. Rəsulullah ona hər dəfə bir şey söylədikcə, o: – Doğrudur, deyə cavab verirdi. Sonra qonaq soruşdu: – Qiyamət saatı nə vaxtdır? Dedi: – Bu haqda soruşulanla soruşan eyni biliyə malikdir. Dedi: – Doğrudur.

**Mənbə:** "Kitab Səlim ibn Qeys" (175), "Bihar əl-ənvar" (65/288).

5) Süleyman ibn Xalid Əbu Cəfərin ﷺ belə dediyini rəvayət etmişdir: "Sənə İslam, onun birinci əsası, ikinci

əsası və zirvəsi haqqında xəbər verimmi?" Dedim: "Bəli, qurbanın olum". Dedi: "Birinci əsasına gəlincə, o, namazdır, ikinci əsası zəkat, zirvəsi isə cihaddır". Sonra dedi: "İstəyirsən sənə xeyir qapıları barəsində xəbər verim?" Dedim: "Bəli, qurbanın olum". Dedi: "Oruc, oddan qoruyan bir qalxandır, sədəqə günahları yuyub aparır, bir də kişinin gecə vaxtı Allahı zikr edərək ibadət etməsi". Sonra oxudu: **"Onlar (gecə namazını qılmaq üçün) böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən (Allah yolunda) xərcləyirlər".**

**Mənbə:** "əl-Kafi" (2/24), "Dəaim əl-İslam" (1/342), "Bihar əl-ənvar" (65/331).

6) Əbu Abdullah عليه السلام demişdir: "Allah Elçisinin صلى الله عليه وآله وسلم zamanında Zun-Nəmira adlı bir kişi var idi. Olduqca pis [xislətli] birisi idi, məhz bu səbəbdən də pis insan adlandırılmışdı. Bir dəfə o, Peyğəmbərin yanına gəlib dedi: "Ey Allahın Elçisi, mənə xəbər ver görüm İzzət və Cəlal Sahibi olan Allah nəyi fərz buyurub?". Allahın Elçisi ona dedi: "Allah sənə gecə və gündüz ərzində on yeddi rükət namaz qılmağı, Ramazana yetişdikdə oruc tutmağı, imkanın olduğu təqdirdə Həccə ziyarəti etməyi və zəkat verməyi fərz buyurmuşdur". Sonra da ona bunları açıqladı. Kişi dedi: "Səni haqq olaraq göndərən Allaha and olsun ki, Rəbbimin mənə fərz etdiklərinə bir şey artırmayacağam". Peyğəmbər ona dedi: "Niyə, ey Zun-Nəmira?"

Dedi: “Çünki O, məni bədheybət yaratmışdır”. Bu zaman Cəbrail Peyğəmbərin yanına nazil oldu və dedi: “Ey Allahın Elçisi, Rəbbin sənə əmr edir ki, Zun-Nəmiraya çatdırasan ki, Uca və Ulu Allah buyurur: “Razı deyilsənmi ki, Qiyamət günü səni Cəbrail kimi gözəl görkəmdə həşr edim?” Rəsulullah dedi: “Ey Zun-Nəmira, bu Cəbraildir, mənə əmr edir ki, sənə salam çatdırım. Rəbbin də buyurur ki, məgər sən Cəbrail kimi gözəl görkəmdə həşr olunmağa razı deyilsənmi?” Zun-Nəmira dedi: “Razıyam, ey Rəbbim! İzzətinə and olsun ki, Sən razı qalanadək daha artığını edəcəyəm”.

**Mənbə:** “əl-Kafi” (8/336), “Bihar əl-ənvar” (22/140), “Cami əhadis əş-şiə” (1/469).

# "UCA ALLAHIN QƏZA VƏ QƏDƏRİ İLƏ RAZILIQ" fəsli

**a) Əhli-sünnə mənbələrindən:**

1) İbn Abbas ﵄ demişdir: "Bir dəfə mən Peyğəmbərin ﷺ arxasına düşüb gedərkən mənə dedi: "Ay uşaq, mən sənə bəzi sözlər öyrədəcəyəm. Allahı qoru ki, Allah da səni qorusun. Allahı qoru ki, Onu önündə tapasan. Soruşduqda, Allahdan istə, yardım istədikdə, Allahdan yardım istə. Bil ki, insanlar yığışıb sənə bir fayda vermək istəsə, Allahın sənə yazdığı şeydən savayı bir fayda verə bilməzlər. Həmçinin, insanlar yığışıb sənə bir zərər vermək istəsələr, Allahın sənə yazdığı şeydən savayı heç bir şeylə sənə zərər verə bilməzlər. Artıq qələmlər qaldırılıb, səhifələr də quruyub."

**Mənbə:** Hədisi Tirmizi (2516), İmam Əhməd "Müsnəd" əsərində (2669) və başqaları rəvayət etmişlər.

İmam Əhmədin rəvayətində deyilir: "Allahı qoru ki, O da səni qorusun. Allahı qoru ki, Onu önündə tapasan. Rahat vaxtlarında Allahı tanı ki, O da səni çətin vaxtlarında tanısın. Soruşduqda, Allahdan istə, yardım istədikdə, Allahdan yardım istə. Artıq qələmlər quruyub. Əgər bütün məxluqatlar Allahın yazmadığı bir şeylə sənə fayda vermək istəsələr, bunu edə bilməzlər. Həmçinin, onlar Allahın yazmadığı bir şeylə sənə zərər vermək

istəsələr, bunu edə bilməzlər. Bil ki, xoşlamadığın br şeyə səbir etməkdə böyük xeyir vardır, yardım səbirlə gəlir, bəlanın aradan qalxması bəladan sonra olur və hər bir çətinlikdən sonra asanlıq gəlir".

**Mənbə:** "əl-Müsnəd" (2804), isnadı səhihdir.

2) İbn Məsuddan ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Allahı qəzəbləndirən bir əməllə heç kimi razı salma, Allahın sənə verdiyi fəzilətə görə heç kimə həmd etmə, Allahın sənə vermədiyi bir şeyə görə də heç kimi məzəmmət etmə. Şübhəsiz ki, Allahın ruzisini sənə həris olan bir kimsənin hərisliyi gətirmir, nifrət edənin nifrəti də ruzinin qarşısını ala bilməz. Uca Allah Öz ədaləti ilə ruhu və sevinci razılıq və yəqinliyə bağlamış, kədər və hüznü isə qəzəbə pərçim etmişdir."

**Mənbə:** Hədisi Təbərani "əl-Kəbir" əsərində (10/215, 10514 saylı hədis), əl-Beyhəqi "əş-Şuəb" əsərində (1/221, 208 saylı hədis) nəql etmişlər, lakin həmin rəvayətdə zəiflik vardır. Hənnad "əz-Zuhd" əsərində (1/304) bu hədisi İbn Məsuddan səhih olaraq rəvayət etmişdir.

**b) İmamilərin mənbələrindən:**

1) Peyğəmbər ﷺ demişdir: "Ey Əbu Zərr, mən sənə elə sözlər öyrədimmi ki, onların vasitəsilə İzzət və Cəlal

Sahibi olan Allah sənə fayda versin?" Mən dedim: "Bəli, ey Allahın Elçisi". Dedi: "Allahı qoru ki, O, da səni qorusun. Allahı qoru ki, Onu önündə tapasan. Rahat vaxtlarında İzzət və Cəlal Sahibi olan Allahı tanı ki, O da səni çətin vaxtlarında tanısın. Soruşduqda İzzət və Cəlal Sahibi olan Allahdan istə, yardım istədikdə Allahdan yardım istə. Qələm Qiyamət gününədək olacaq işləri yazmışdır. Əgər bütün məxluqatlar sənə yazılmayan bir şeylə sənə fayda verməyə cəhd göstərsələr, bunu edə bilməyəcəklər. Həmçinin, onlar sənə yazılmayan bir şeylə sənə zərər verməyə cəhd etsələr, bunu edə bilməyəcəklər. Əgər İzzət və Cəlal Sahibi olan Allah üçün yəqinliklə razı ola bilsən, bunu et. Yox, əgər bunu edə bilməsən, bil ki, istəmədiyin bir şeyə səbir etməkdə çoxlu xeyir vardır, yardım səbirlə olur, bəlanın aradan qalxması bəladan sonra olur və hər bir çətinlikdən sonra da asanlıq gəlir."

**Mənbə:** Tusinin "əl-Amali" (2/113), "Bihar əl-ənvar" (87/74).

2) Əbu Abdullah عليه السلام demişdir: "Müsəlman olan kəsin yəqinliyinin gözəl sübutudur ki, Allahı qəzəbləndirəcək əməllərlə insanları razı salmasın, Allahın bəxş etmədiyinə görə onları qınamasın. Şünhəsiz ki, ruzi ona həris olanın hərisliyi ilə gəlməz, nifrət edənin nifrəti də ruzinin qarşısını ala bilməz. Əgər sizlərdən biri ölümdən qaçdığı kimi öz ruzisindən qaçmış olarsa, ölüm onu

haqladığı kimi, ruzisi də onu haqlayacaqdır". Sonra əlavə etdi: "Şübhəsiz ki, Uca Allah öz ədaləti ilə ruhu və rahatlığı yəqinlik və razılığa bağlamış, şübhə və qəzəbə isə kədər və hüznü pərçim etmişdir."

**Mənbə:** "əl-Kafi" (2/89), əl-Mufidin "əl-Amali" əsəri (183), ət-Tusinin "əl-Amali" əsəri (1/68).

## İnsanın başına gələn onu səhv işə məhkum etmək üçün deyil, həmçinin onu səhvə məhkum edən də başına gələnə görə deyil.

**a) Əhli-sünnə mənbələrindən:**

1) Ubadə ibn əl-Valid ibn Ubadə demişdir ki, atam mənə danışaraq demişdir: "Ubadə xəstə ikən mən onun yanına daxil oldum. Düşünürdüm ki, o artıq ölümün caynağındadır. Mən dedim: – Atacan, mənə tövsiyə et. Dedi: – Mənə oturmağa kömək edin. Sonra dedi: – Ey oğlum! Sən qədərin xeyrinə və şərinə iman gətirməyincə, imanın dadını bilməyəcək, Uca və Böyük Allah barədə həqiqi elmə malik olmayacaqsan. Dedim: – Atacan, bəs mən necə bilim ki, qədərin xeyirlisi hansıdır, şərli olanı hansı? Dedi: – Bil ki, səni səhvə işə vadar edən şey sənə gələn müsibət səbəbindən deyil, həmçinin sənin başına gələn də səni səhvə məhkum etmək üçün deyil. Ey oğlum! Mən Allahın Elçisinin ﷺ belə dediyini eşitmişəm: "Şübhəsiz ki, Uca və Böyük Allahın yaratdığı ilk şey qələmdir. Sonra ona: – Oxu! deyə buyurdu. O vaxt Qiyamətədək olacaq hər bir şey yazıldı". Ey oğlum! Əgər bunun üzərində olmadan ölmüş olsam, Cəhənnəmə atılacam."

**Mənbə:** Hədisi İmam Əhməd (22757) və İbn əl-Cəad (3444) rəvayət etmişlər. İsnadı səhihdir.

2) İbn əd-Deyləmi deyir ki, mən Ubey ibn Kəbin ﵁ yanına gəlib ona dedim: “Qədər barəsində qəlbimdə bir narahatlıq var. Mənə elə bir şey danış ki, onunla qəlbimdəki bu narahatlıq aradan qalxsın”. O dedi: “Əgər Allah göy əhlinə və yer əhlinə əzab vermiş olsa, onlara zülm etmiş olmaz. Əgər onlara rəhm etsə, Onun rəhməti onların əməllərindən daha xeyirli olar. Əgər Allah yolunda Uhud dağı boyda sədəqə vermiş olsan, qədərə iman gətirməyincə, Allah onu səndən qəbul etməz. Həmçinin bil ki, nə başına gələn müsibətlər səni xətaya sövq etmək üçündür, nə də ki, səni xətaya sövq edənlər də sənə müsibət gəlsin deyə baş vermir. Bunun üzərində ölməsən, Cəhənnəmə atılarsan”.

İbn əd-Deyləmi deyir ki, sonra mən Abdullah ibn Məsudun ﵁ yanına getdim, o da eyni sözləri dedi. Sonra Hüzeyfə ibn Yəmənin ﵁ yanına getdim, o da eyni sözləri dedi. Sonra Zeyd ibn Sabitin ﵁ yanına getdim, o da Peyğəmbərdən ﷺ nəql edərək həmin sözləri dedi.

**Mənbə:** Bu hədisi Əbu Davud (4699), İbn Macə (77), İmam Əhməd (21629) səhih isnadla rəvayət etmişlər.

**b) İmamilərin mənbələrindən:**

1) Əbu Abdullah ﵇ demişdir ki, möminlərin əmiri (ona Allahın salavatı olsun) minbərdə ikən demişdir: “Sizlərdən biri, başına gələn müsibətlərin onu xətaya sövq etməsi üçün deyil, onu xətaya sövq edən işlərin də

ona müsibət gəlsin deyə baş vermədiyini bilməyincə, imanın şirinliyini dadmış olmaz."

**Mənbə:** "əl-Kafi" (2/89), "Bihar əl-ənvar" (67/148).

2) Əbu Abdullah عليه السلام demişdir ki, möminlərin əmiri demişdir: "Sizlərdən biri, başına gələn müsibətlərin onu xətaya sövq etməsi üçün deyil, onu xətaya sövq edən işlərin də ona müsibət gəlsin deyə baş vermədiyini, habelə xeyir və zərərin İzzət və Cəlal sahibi Allahdan olduğunu bilməyincə, imanın şirinliyini dadmış olmaz."

**Mənbə:** "əl-Kafi" (2/90), "Bihar əl-ənvar" (67/154), "Vəsail əş-şiə" (12/254).

3) Əbu Abdullah عليه السلام nəql edir ki, Əlinin Qənbər adlı xidmətçisi Əlini çox sevirdi. Əli (ona Allahın salavatı olsun) çölə çıxdıqda o da gətirib qılıncını verərdi. Bir gecə Əli عليه السلام onu görüb dedi: "Ey Qənbər, nə olub?" O dedi: "Ey möminlərin əmiri, gəldim ki, sənin arxanca gəzim". Dedi: "Vay sənin halına, məni səma əhlindən qoruyursan, yoxsa yer əhlindən?" Dedi: "Xeyr, yer əhlindən". Dedi: "Səmadan Allahın izni olmadan, yer əhli mənə heç bir şey edə bilməz, geri qayıt". O da geri qayıtdı.

**Mənbə:** "əl-Kafi" (2/91), "Hilyətul-əbrar" (2/46), "Bihar əl-ənvar" (5/104).

# ALLAHA BAĞLANMAQ VƏ ONA TƏVƏKKÜL ETMƏK

**a) Əhli-sünnə mənbələrindən:**

1) İbn Abbas ﵄ nəql edir ki, bir dəfə Peyğəmbər ﷺ mənim yanıma gəlib dedi: "Ümmətlər mənə göstərildi. Elə peyğəmbər var idi ki, onun yanında bir nəfər, eləsi də var idi ki, onun yanında iki nəfər var idi. Bəzilərinin yanında çoxsaylı insanlar, bəzilərinin yanında isə ümumiyyətlə heç kim yox idi. Sonra mən üfüqü bağlayan böyük bir qaraltı gördüm, istədim ki, o, mənim ümmətim olsun. Mənə dedilər: – Bu Musa və onun qövmüdür. Sonra mənə dedilər: – Bax! Mən baxıb üfüqü bağlamış daha böyük bir qaraltı gördüm. Sonra mənə dedilər: – Ora-bura bax! Mən də baxdım ki, onlar üfüqü bağlayıblar. Dedilər ki, bu sənin ümmətindir, onlarla birlikdə yetmiş min nəfər də sorğu-sualsız Cənnətə gedəcək". Səhabələr arasında fikir ayrılığı baş verdi, ancaq onlara [bu yetmiş min nəfərin kimliyi barədə] bir şey bəyan olmadı. Səhabələr bu barədə söhbət edib dedilər: "Bizlər şirk üzərində doğulmuşuq, lakin sonradan Allaha və Onun elçisinə iman gətirdik, bunlar da bizim oğullarımızdır". Bu söhbət Peyğəmbərə çatdıqda o dedi: "Bunlar özlərinə ovsun oxunmasını tələb etməyən, hər hansı bir hadisəni uğursuzluq əlaməti hesab etməyən, müalicə məqsədilə bədəninə dağ basmayan və yalnız Rəbbinə

təvəkkül edən kimsələrdir". Bu vaxt Ukkaşə ibn Mihsən dedi: "Mən onlardanammı, ey Allahın Elçisi?" Peyğəmbər dedi: "Bəli". Sonra başqa birisi ayağa qalxıb: "Mən də onlardanammı?"– deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "Ukkaşə səni qabaqladı."

**Mənbə:** Hədisi əl-Buxari (5752) rəvayət etmişdir.

2) Ömər ibn Xəttab رضي الله عنه deyir ki, mən peyğəmbərin ﷺ belə dediyini rəvayət eşitmişəm: "Siz Allaha layiqincə təvəkkül etsəydiniz, O, sizləri də quşlar kimi ruziləndirərdi – səhər (evinizdən) ac çıxar, axşama tox qayıdardınız".

**Mənbə:** Hədisi İmam Əhməd (370, 373), İbn Macə (4164) səhih isnadla rəvayət etmişlər.

**b) İmamilərin mənbələrindən:**

1) Peyğəmbər ﷺ demişdir: "Siz Allaha layiqincə təvəkkül etsəydiniz, O, sizləri də quşlar kimi ruziləndirərdi – səhər (evinizdən) ac çıxar, axşama tox qayıdardınız".

**Mənbə:** "Əvali əl-ləali" (4/57), "Bihar əl-ənvar" (68/151), "Cami əhadis əş-şiə" (14/148).

2) Əbu Abdullah عليه السلام demişdir ki, İzzət və Cəlal Sahibi Allah Davuda belə vəhy etmişdir: "Qullarımdan kim məxluqlarımdan birinə deyil, Mənə sığınarsa, Mən

onu niyyətindən bilərəm. Əgər səmalar, yer və içərisindəkilər ona qarşı çıxsalar, Mən ona bir çıxış yolu verərəm. Qullarımdan kim də mənə deyil, məxluqlarımdan birinə sığınarsa, Mən bunu niyyətindən bilərəm. Onun səmalar və yerlə olan bağlarını kəsər, ayaqlarının altından yeri lərzəyə gətirər, sonra da hansı vadidə həlak olmasına heç önəm də vermərəm."

**Mənbə:** "Fiqhur-rida" (358), "əl-Kafi" (2/63), "Bihar əl-ənvar" (68/126).

3) Əbu Abdullah ﷺ demişdir: "Hər hansı qul İzzət və Cəlal Sahibi olan Allahın sevdiyi bir şeyə üz çevirərsə, Allah da onun sevdiyi şeyə üz çevirər. Kim Allaha bağlanarsa, Allah onu qoruyar. Allah da kimə tərəf üz döndərib onu qoruyarsa, göylər yerə düşsə belə, həmin adam buna əhəmiyyət verməz. Hətta yer əhlinə bəla nazil olub onların hamısını bürüsə belə, o adam Allahın hər bir bəladan qoruduğu toplumun içərisində olar. İzzət və Cəlal Sahibi olan Allah buyurur: "Şübhəsiz ki, müttəqilər təhlükəsiz bir məqamda olarlar."

**Mənbə:** "əl-Kafi" (2/65), "Bihar əl-ənvar" (68/127), Vəsail əş-şiə" (15/211).

4) Hüseyn ibn Ulvan demişdir ki, bir dəfə biz bir məclisdə elmlə məşğul idik. Səfər zamanı mənim pulum tükənmişdi. Dostlarımdan biri məndən soruşdu ki, başına bir iş gələndə kimin barəsində düşünürsən? Dedim ki,

filankəs. Dedi: "Elə isə istədiyinə nail olmazsan və ümid etdiyinə çatmazsan". Dedim: "Allah sənə rəhm etsin, haradan bilirsən?" Dedi: "Əbu Abdullah ﷺ mənə danışmışdı ki, o, bəzi kitablarda Uca və Böyük Allahın belə dediyini oxumuşdur: "İzzətimə, Cəlalıma, Əzəmətimə, Ərşin üzərində olmağıma and olsun ki, Məndən başqa insanlardan kiməsə ümidini bağlayan kəsin ümidini puç edərəm, ona insanlar arasında zəlillik libası geyindirər, onu özümdən uzaqlaşdırar, fəzilətimdən kənarlaşdıraram. Heç çətin vaxtlarda Məndən başqasına da ümid bağlanarmı? Axı çətinliklər Məndəndir. Ancaq o başqasından rica edir, düşüncəsi ilə başqasının qapısını döyür. Bağlı qapıların açarı Mənim əlimdədir, Mənə dua edən üçün isə qapım açıqdır. Elə birisi varmı ki, ümidini Mənə bağlasın, Mən də onu əliboş buraxım? Elə birisi varmı ki, Məndən böyük bir iş istəsin, Mən də onu əliboş buraxım? Mən qullarımın Mənə olan ümidlərini qoruyuram. Onlar isə Mənim qorumağımdan razı qalmırlar. Səmalar Məni zikr etməkdən usanmayan məxluqlarla doludur. Mən onlara əmr etmişəm ki, Mənim qullarımla aramızdakı qapıları bağlamasınlar. Onlar (qullarım) isə Mənim bu sözümə inanmayıblar. Bilmirlərmi ki, bəlaya düçar olanın bəlasını Məndən savayı və ya Mənim iznim olmadan heç kəs aradan qaldıra bilməz? Bəs nə üçün o Məndən uzaqlaşır? Məndən istəmədiyini ona vermişəm. Sonra ondan nəyisə aldıqda, onun geri qaytarılmasını Məndən deyil, başqasından diləyir. İstəmədiyi halda ona daimi

nemətlər bəxş edirkən, Məndən diləyərsə niyə verməyim ki? Məgər Mən paxılam ki, qulum Məni paxıl hesab edir? Məgər səxavətlilik Mənə məxsus deyilmi? Məgər əfv və mərhəmət etmək Mənə aid deyilmi? Məgər Mən ümidlərin bağlanacağı yer deyiləmmi? Məndən başqa onları kim kəsə bilər ki? Mənə deyil də başqalarına ümid bəsləyənlər heç qorxmurlarmı? Əgər səmaların və yerin əhlinin hamısı Mənə ümid bəsləsə, Mən də onların hər birinin ümid etdiyini vermiş olsam, bu Mənim mülkümdən zərrə qədər belə azaltmaz. Mənim ixtiyarımda olan bir mülk necə azala bilər axı? Rəhmətimdən ümidini üzənlər necə də bədbəxtdirlər, Mənə asi olanlar və Mənə tabe olmayanlar necə də bədbəxtdirlər..."

**Mənbə:** "əl-Kafi" (2/66), "Uddətud-dai" (123), "Məniyyətul-murid" (160), "Bihar əl-ənvar" (68/130).

# QORXU VƏ RİCA

**a) Əhli-sünnə mənbələrindən:**

1) Əbu Hureyrədən رضي الله عنه rəvayət olunan uzun Cəbrail hədisində Peyğəmbərdən ﷺ "Ehsan nədir?" deyə soruşulduqda, o ﷺ demişdir: "Ehsan, Allaha, sanki Onu görürmüşsən kimi ibadət etməkdir, çünki sən Onu görməsən də, O, səni görür".

**Mənbə:** Hədisi əl-Buxari (50) və Muslim (8) rəvayət etmişlər.

2) Əbu Hureyrədən رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Əgər mömin Allah yanında veriləcək cəzadan xəbərdar olsaydı, Onun Cənnətinə heç kim tamah salmazdı. Əgər kafir olan kəs Allah yanında nə qədər mərhəmətin olduğunu bilsəydi, Onun Cənnətindən heç kim ümidini üzməzdi".

**Mənbə:** Hədisi Muslim (2755) rəvayət etmişdir.

3) Əbu Hureyrədən رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ Uca və Böyük Rəbbindən rəvayət edərək demişdir: "İzzətimə and olsun ki, Mən öz quluma iki qorxu ilə iki əmin-amanlıq vermərém. Əgər o, bu dünyada Məndən qorxarsa, Qiyamət günü ona əmin-amanlıq bəxş edərəm. Əgər bu dünyada ona əmin-amanlıq verərəmsə, Qiyamət günü onu qorxudaram."

**Mənbə:** İbn Hibbanın "Səhih" əsəri (640), əl-Bəzzar (2/403), Beyhəqinin "Şuəb əl-iman" əsəri (1/482), sənədi həsəndir.

4) Cabirdən ﵁ rəvayət olunur ki, mən Peyğəmbərin ﷺ vəfatından üç gün öncə onun belə dediyini eşitmişəm: "Biriniz ölüm ayağında ikən qoy Allah barədə gözəl zəndə olsun."

**Mənbə:** Hədisi Muslim (2877) rəvayət etmişdir.

5) Ənəs ﵁ nəql edir ki, bir dəfə Sabit ölüm ayağında ikən Peyğəmbər ﷺ onun yanına daxil oldu və dedi: "Necəsən?" Dedi: "Ey Allahın elçisi, həm Allahdan diləyirəm, həm də günahlarıma görə qorxuram". Allahın Elçisi ﷺ dedi: "Belə bir dar məqamda mömin bəndənin qəlbində rica və qorxu bir araya gələrsə, Allah onun dilədiyini ona verər və onun qorxusunu aradan qaldırar".

**Mənbə:** Hədisi ən-Nəsai "əl-Kubra" əsərində (6/262), İbn Macə (4261) və Əbu Yəalə (3303) rəvayət etmişlər, sənədi həsəndir.

6) Ənəs ibn Malik ﵁ deyir ki, mən Allahın Elçisinin ﷺ belə dediyini eşitmişəm: "Allah buyurur: – Ey Adəm övladı, Mənə dua edib Məndən rica etsən, sənin bütün günahlarını bağışlayar və buna əhəmiyyət verməərəm. Ey Adəm övladı, əgər sənin günahların göylərə

çatmış olsa, sonra da Məndən bağışlanma diləsən, səni bağışlayar və buna əhəmiyyət verməræm. Ey Adəm övladı, əgər Mənə şərik qoşmadığın halda yer üzü qədər günahla Mənim qarşıma gəlsən, sənə həmin miqdarda mərhəmət bəxş edərəm".

**Mənbə:** Hədisi Tirmizi (3540), İmam Əhməd (21544) və Beyhəqi "Şuəb əl-iman" əsərində Əbu Zərdən (2/16) həsən sənədlə rəvayət etmişlər.

**b) İmamilərin mənbələrindən:**

1) Əbu Abdullah عليه السلام demişdir: "İzzət və Cəlal Sahibindən şiddətlə qorxmaq ibadət sayılır. Uca Allah buyurur: **"Şübhəsiz ki, Allahdan alimlər qorxar".** Həmçinin buyurur: **"İnsanlardan qorxmayın, Məndən qorxun".** Uca və Böyük Allah həm də buyurur: **"Kim Allahdan qorxsa Allah ona çıxış yolu verər".** Sonra Əbu Abdullah عليه السلام dedi: "Şübhəsiz ki, şərəf və zikr sevgisi qorxan adamın ürəyində cəm ola bilməz".

**Mənbə:** "əl-Kafi" (2/69), "Bihar əl-ənvar" (67/359), "Cami əhadis əş-şiə" (14/17).

2) Həsən عليه السلام nəql edir ki, Rəsulullah صلى الله عليه وآله وسلم demişdir: "Uca və Böyük Allah buyurur: – İzzətimə və Cəlalıma and olsun ki, bu dünyada qulumda iki qorxu ilə iki əmin-amanlıq bir araya gələ bilməz. Kim bu dünyada əmin-amanlıqda olarsa, Qiyamət günü onu qorxudaram. Kim

bu dünyada Məndən qorxarsa, Qiyamət günü ona əmin-amanlıq bəxş edərəm."

**Mənbə:** "əl-Xisal" (79), ət-Tusinin "əl-Əmali" əsəri (530), "Bihar əl-ənvar" (67/379).

3) İshaq ibn Ammar deyir ki, Əbu Abdullah عليه السلام demişdir: "Ey İshaq! Allahdan, sanki Onu görürmüşsən kimi qorx. Sən Onu görməsən də, O, səni görür. Əgər Onun səni görmədiyinə etiqad etsən, küfr edərsən. Əgər Onun səni gördüyü qənaətində olsan, sonra da ona qarşı günah iş görsən, Onun gözündən düşmüş olarsan".

**Mənbə:** "əl-Kafi" (2/68), "Fiqhur-rida" (382), "Bihar əl-ənvar" (67/355).

4) əs-Səmali nəql edir ki, əs-Sadiq عليه السلام demişdir: "Allahdan elə rica et ki, O səni günahlara sövq etməsin. Allahdan elə qorx ki, O sənin ümidini Öz rəhmətindən üzməsin."

**Mənbə:** əs-Saduqun "əl-Əmali" əsəri (65), "Bihar əl-ənvar" (37/384), "Məaric əl-yəqin" (261).

5) Heysəm ibn Vaqid deyir ki, Əbu Abdullahın عليه السلام belə dediyini eşitmişəm: "Kim Allahdan qorxarsa, Allah onu başqa heç bir şeylə qorxutmaz. Kim də Allahdan qorxmazsa, Allah onu hər şeylə qorxudar".

**Mənbə:** "əl-Kafi" (2/68), "Bihar əl-ənvar" (67/381), "Vəsail əş-şiə" (15/219).

6) Əbu Abdullah ﷺ demişdir: "... Ona dedim: – Bəziləri günahlar işləyir və deyirlər ki, rica edirik. Ölüm gələnədək onlar bu vəziyyətdə qalarlar". Dedi: "Onlar elə bir qövmdür ki, xəyallarla yaşayır, yalan danışır, rica etmir. Kim bir şeyi rica edərsə, onu tələb edər, kim də bir şeydən qorxarsa, ondan qaçar".

**Mənbə:** "əl-Kafi" (2/68), "Bihar əl-ənvar" (67/375), "Cami əhadis əş-şiə" (14/169).

7) Həsən ibn Əbu Sara rəvayət edir ki, mən Əbu Abdullahın ﷺ belə dediyini eşitmişəm: "Mömin qorxu və rica içərisində olmayınca, mömin sayılmaz, qorxduğu və rica etdiyi şeyə də əməl etməyincə, qorxmuş və rica etmiş sayılmaz."

**Mənbə:** "əl-Kafi" (2/71), "Tuhəf əl-uqul" (369), əl-Mufidin "əl-Amali" əsəri (195), Vəsail əş-şiə" (15/217).

# ALLAH ÜÇÜN SEVMƏK VƏ ALLAH ÜÇÜN NİFRƏT ETMƏK

**a) Əhli-sünnə mənbələrindən:**

1) İbn Abbasdan ﷺ rəvayət olunan hədisdə Allahın Elçisi ﷺ Əbu Zərdən soruşdu: "Sənin fikrincə imanın ən etibarlı ipi hansıdır?" Dedi: "Allah və Elçisi daha yaxşı bilir". Dedi: "İmanın ən etibarlı ipi Allah üçün dostluq və düşmənçilik etmək, Allah üçün sevmək və Allah üçün nifrət etməkdir"

**Mənbə:** ət-Təbərani "əl-Kəbir" əsəri (11/215) və əl-Beyhəqi "əş-Şuəb əl-iman" əsəri (7/70).

2) Bəra ibn Azibdən ﷺ rəvayət olunan hədisdə o, demişdir: "Bir dəfə biz Peyğəmbərin ﷺ yanında oturmuş ikən o ﷺ soruşdu: "İslamın hansı ipləri ortadadır?" Dedilər ki, namaz. Dedi: "Çox gözəl, lakin o deyil". Dedilər ki, zəkat. Dedi: "Çox gözəl, lakin o da deyil". Dedilər ki, Ramazan orucu. Dedi: "Çox gözəl, lakin o da deyil". Dedilər ki, cihad. Dedi: "Çox gözəl, lakin o da deyil". Sonra əlavə etdi: "İmanın orta ipi Allah yolunda sevmək və Allah yolunda nifrət etməkdir".

**Mənbə:** İmam Əhməd (18547), ət-Tayalisinin "əl-Müsnəd" əsəri (747), İbn Əbu Şeybə (34338).

Hədis həmçinin Təbəraninin "əl-Əvsat" əsərində (4479), "əl-Kəbir" (10/171/220), əl-Hakimin "əl-Mustədrak"

əsərində (3790) İbn Məsuddan səhih sənədlə rəvayət olunmuşdur.

3) Əbu Umamədən ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: “Kim Allah üçün sevər, Allah üçün nifrət edər, Allah üçün verər və ya verməzsə, imanını kamilləşdirmiş olar.”

**Mənbə:** Hədisi Əbu Davud (4681), Təbərani “əl-Kəbir” əsərində (7613, 7737) və Beyhəqi “əş-Şuəb əl-iman” əsərində (9021) rəvayət etmişlər.

**b) İmamilərin mənbələrindən:**

1) Əbu Cəfər ﵇ demişdir ki, Allahın Elçisi ﷺ demişdir: “Möminin möminə qarşı Allah üçün mehriban davranışı imanın ən əzəmətli şöbələrindəndir. Kim Allah üçün sevib, Allah üçün nifrət edərsə, Allah üçün verib, Allah üçün də verməzsə, həmin şəxs Allahın seçdiyi adamlardandır.”

**Mənbə:** “əl-Kafi” (2/125), “əl-Məhasin” (1/263), “Tuhəful-uqul” (48).

2) Əbu Abdullah ﵇ demişdir ki, Allahın Elçisi ﷺ səhabələrindən soruşdu: “İmanın hansı ipi daha etibarlıdır?” Dedilər: “Allah və Onun Elçisi daha yaxşı bilir”. Sonra bəziləri namaz, bəziləri zəkat, digərləri oruc, başqa biriləri həcc və ümrə, digərləri də cihad dedilər. Allahın

Elçisi ﷺ dedi: “Şübhə yoxdur ki, imanın ən etibarlı ipi Allah üçün sevmək, Allah üçün nifrət etmək, Allahın dostlarını dost tutmaq, Allahın düşmənlərindən də uzaq durmaqdır”.

**Mənbə:** “əl-Məhasin” (1/264), “əl-Kafi” (2/125), “əl-İxtisas” (365), “Bihar əl-ənvar” (66/243).

3) Əbu Cəfər عليه السلام deyir ki, Allahın Elçisi ﷺ demişdir: “Allah üçün bir-birini sevənlər Qiyamət günü yaşıl zümrüddən olan bir yerdə, Ərşin kölgəsində, sağ tərəfində olacaqlar. Allahın hər iki əli sağdır. Onların üzləri doğmaqda olan günəşdən daha ağ və işıqlı olacaqdır. Hər bir yaxın hökmdar və göndərilmiş peyğəmbər onların məqamına qibtə edəcəklər. İnsanlar soruşacaqlar ki, bunlar kimdir belə? Deyiləcək ki, bunlar Allah uğrunda bir-birilərini sevənlərdir.”

**Mənbə:** “əl-Məhasin” (1/264), “əl-Kafi” (2/126), “Bihar əl-ənvar” (7/195).

# XALİQƏ ASİ OLMAQLA MƏXLUQA İTAƏT EDƏN KİMSƏ HAQQINDA

## a) Əhli-sünnə mənbələrindən:

1) Aişə deyir ki, mən Allahın Elçisinin ﷺ belə dediyini eşitmişəm: "Kim insanları qəzəbləndirməklə Allahın razılığına nail olmaq istəyərsə, Allah insanları ondan razı salar. Hər kim də Allahı qəzəbləndirməklə insanların razılığını qazanmaq istəyərsə, Allah onu insanlara müvəkkil edər."

İbn Hibbanın rəvayətində isə deyilir: "Kim insanları qəzəbləndirməklə Allahın razılığına nail olmaq istəyərsə, Allah ondan razı olar və insanları da ondan razı salar. Hər kim də Allahı qəzəbləndirməklə insanların razılığını qazanmaq istəyərsə, Allah ona qəzəblənər, insanları da ona qarşı qəzəbləndirər."

**Mənbə:** İbn Mübarəkin "əz-Zuhd" əsəri (66), Tirmizi (2414) və İbn Hibbanın "Səhih" əsəri (276).

2) Həsən əl-Bəsri demişdir: "Ziyad Həkəm əl-Ğifarini orduya rəhbər təyin edir. İmran ibn Husayn gəlib onu insanlar arasında görüncə soruşur: "Bilirsənmi sənin yanına nə üçün gəlmişəm?" Niyəsini soruşanda, dedi: "Allahın Elçisinin ﷺ yanına bir kişinin gəlməsi yadındadırmı? Həmin kişi deyirdi ki, rəhbəri ona "özünü oda at!" deyə əmr vermişdi. O da rəhbərinə itaət etmədiyinə görə

tapılıb həbs olunmuşdu. Kişi də gəlib bu barədə Allahın Elçisinə ﷺ xəbər verdikdə, o ﷺ belə dedi: "Əgər özünü oda atsaydı, onların hamısı cəhənnəm oduna vasil olardı. Uca və Böyük olan Allaha asi olmaqla məxluqa itaət edilməz". Dedi: "Bəli, yadımdadır". Dedi: "İstədim ki, bu hədisi sənə də xatırladım".

**Mənbə:** Hədisi Əhməd (20678) rəvayət etmişdir, sənədi səhihdir.

3) Aişə demişdir ki, mən Allahın Elçisinin ﷺ belə dediyini eşitmişəm: "Kim Allaha itaətdən xaric bir əməl edərsə, onu tərifləyən kəs həmin kimsəni pisləmiş olar."

**Mənbə:** Hədisi əl-Humeydi "Müsnəd" əsərində (1/292), İbn Əbu Şeybə (30637), Əbu Davud "əz-Zuhd" kitabında (283) və İbn əl-Ərabi öz lüğətində (2/427) rəvayət etmişlər.

4) Əbu Səid əl-Xudri ؓ deyir ki, Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Ey insanlar, Allahın kitabından bir ayəni inkar edənin dini yoxdur! Ey insanlar, batil bir iftiranı Allaha nisbət edənin dini yoxdur! Ey insanlar, İzzət və Cəlal Sahibi Allaha asi olana itaət edənin dini yoxdur!"

**Mənbə:** Hədisi Əbu Nueym "əl-Hilyə" əsərində (10/94) və "Axbar İsbahan" (2/227) əsərində rəvayət etmişdir, sənədində zəiflik var.

5) Udey ibn Hatim ؓ demişdir: "Bir dəfə mən Peyğəmbərin ﷺ yanına gəlmişdim, həmin vaxt boynumdan qızıl xaç asılmışdı. O dedi: "Ey Udey, bu bütü boynundan çıxar!". Mən də onu çıxardım. Sonra onun yanına gəldim. O ﷺ "Tövbə" surəsini oxuyurdu. Sonra o, bu ayəni oxudu: **"Onlar Allahı qoyub baş keşişlərini və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər."** (31-ci ayə). O, ayəni bitirincə mən dedim: "Biz ona ibadət etmirik". Dedi: "Məgər onlar Allahın halal buyurduğunu haram edərkən, siz də onu haram etmirsinizmi? Allahın haram buyurduğunu da onlar halal edərkən, siz də onu halal etmirsinizmi?" Dedim ki, bəli. Dedi: "Bu elə onlara ibadət etməkdir".

**Mənbə:** Hədisi Tirmizi (3095), Təbərani "əl-Kəbir" əsərində (17/92) və Beyhəqi "əl-Kubra" əsərində (10/116) rəvayət etmişlər. Mətn Təbəraniyə məxsusdur, sənədi də həsəndir.

**b) İmamilərin mənbələrindən:**

1) Əbu Abdullah عليه السلام deyir ki, Allahın Elçisi ﷺ demişdir: "Kim Allahı qəzəbləndirərək insanların razılığını əldə etmək istəyərsə, Allah elə edər ki, onu tərifləyən kəs də həmin kimsəni pisləyər."

**Mənbə:** "əl-Kafi" (2/372), "əl-Xisal" (3), "Bihar əl-ənvar" (70/391).

2) Əbu Cəfər ﷷ deyir ki, Allahın Elçisi ﷺ demişdir: "Kim Allahı qəzəbləndirərək insanların razılığına nail olmaq istəyərsə, Allah elə edər ki, onu tərifləyən kəs də həmin kimsəni pisləyər. Kim də insanları qəzəbləndirməklə Allahı razı salarsa, Allah onu hər bir düşmənin ədavətindən, həsəd edənin həsədindən, pislik edənin pisliyindən qoruyar. İzzət və Cəlal Sahibi olan Allah da ona yardım edər."

**Mənbə:** "əl-Kafi" (2/372), "Təhzib əl-əhkam" (6/179), "Avali əl-ləali" (3/188).

3) Muhəmməd ibn Muslim nəql edir ki, Əbu Cəfər ﷷ demişdir: "Allaha asi olana itaət edənin dini yoxdur, Allaha batil iftira atanın dini yoxdur, Allahın ayələrindən birini inkar edənin dini yoxdur."

**Mənbə:** "əl-Kafi" (2/373), "əl-Məhasin" (1/5), "Məcma əl-faidə" (12/350).

4) Əbu Bəsir demişdir ki, mən Əbu Abdullahdan İzzət və Cəlal Sahibi olan Allahın: **"Onlar Allahı qoyub baş keşişlərini və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər"** ayəsi barədə soruşduqda, o dedi: "Vallahi ki, onlar özlərinə ibadət olunmasına dəvət etmirdilər, əgər onlar insanları özlərinə ibadət edilməsinə dəvət etmiş olsaydılar, insanlar ona cavab verməzdilər. Lakin onlar haramları halal, halalları isə haram etdilər, bununla da bilmədən ona ibadət etmiş oldular."

**Mənbə:** "əl-Kafi" (2/398), "əl-Məhasin" (1/246), "Bihar əl-ənvar" (2/98).

5) Əbu Bəsir demişdir ki, Əbu Abdullah عليه السلام Uca Allahın: **"Onlar Allahı qoyub baş keşişlərini və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər."** ayəsi barəsində demişdir: "Vallahi ki, onlar üçün nə namaz qıldılar, nə də oruc tutdular. Lakin onlar haramları halal, halalları isə haram etdilər, onlar da tabe oldular."

**Mənbə:** "əl-Məhasin" (1/246), "əl-Kafi" (1/53), "Raudatul-vaizin" (21).

## "Amma xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca, iman gətirmiş olmazlar" ayəsi haqqında fəsil.

### a) Əhli-sünnə mənbələrindən:

Abdullah ibn Zubeyr رضي الله عنه nəql edir ki, bir dəfə ənsarlardan birisi xurma ağaclarının suvarıldığı Şərac əl-Hurra adlı yerdə Peyğəmbərin صلى الله عليه وآله وسلم hüzurunda Zubeyrlə رضي الله عنه mübahisə etdi. Ənsar dedi: "Suyu aç, qoy buradan keçsin". O isə razı olmadı və peyğəmbərdən صلى الله عليه وآله وسلم onların aralarında hökm verməsini istədi. Rəsulullah صلى الله عليه وآله وسلم Zubeyrə dedi: "Ey Zubeyr, özün suvar, sonra suyu qonşuna burax". Ənsar qəzəblənib dedi: "Bibin oğludur deyə belə edirsən?" Bu zaman Peyğəmbərin صلى الله عليه وآله وسلم üzü qızardı və dedi: "Ey Zubeyr, özün suvar, sonra da suyu bağla ki, geri qayıtsın". Zubeyr dedi: "Hesab edirəm ki, bu ayə həmin hadisə ilə bağlı nazil olmuşdur: "**Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar.**"

**Mənbə:** əl-Buxari (2359) və Muslim (2357).

**b) İmamilərin mənbələrindən:**

Abdullah ibn Yəhya əl-Kahili nəql edir ki, Əbu Abdullah عليه السلام demişdir: "Əgər bir qövm Allaha ibadət edər, Ona heç bir şeyi şərik qoşmaz, namaz qılar, zəkat verər, həcc edər, Ramazan ayını oruc tutarsa, sonra da Allahın və Peyğəmbərin etdiyinə: "Başqa cür etsəydi, daha yaxşı olmazdımı?" deyərsə, yaxud bu barədə düşünərsə, buna görə müşrik olar". Sonra o, bu ayəni oxudu: "**Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar".** Sonra Əbu Abdullah əlavə etdi: **"**Odur ki, təslim olun!".

**Mənbə:** "əl-Kafi" (1/390), "ət-Tuhfətus-Səniyyə" (19), "əl-Məhasin" (1/371).

## DUA fəsli

### a) Əhli-sünnə mənbələrindən:

1) Noman ibn Bəşir ﷺ demişdir ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Dua ibadətdir. Sonra oxudu: **"Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər".**

**Mənbə:** Hədisi İmam Əhməd (18378), Tirmizi (3247) və Əbu Davud (1479) rəvayət etmişlər, sənədi səhihdir.

2) Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim Allahdan istəməzsə, Allahın ona qəzəbi tutar."

**Mənbə:** əl-Buxarinin "Ədəb əl-Mufrad" əsəri (658), Tirmizi (3373), İbn Macə (3827) və İmam Əhməd (9717), sənədi həsəndir.

3) Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah üçün duadan daha hörmətli bir şey yoxdur."

**Mənbə:** Hədisi əl-Buxari "Ədəb əl-Mufrad" əsərində (712) və İmam Əhməd (8733) rəvayət etmişlər, sənədi həsəndir.

4) Əbu Hureyradan ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Cavab veriləcəyinə tam əmin olduğunuz halda Allaha dua edin. Bilin ki, Allah qafil və məşğul qəlbdən dua qəbul etməz".

**Mənbə:** Tirmizi (3479) və İmam Əhmədin "Müsnəd" əsəri (6655), sənədi həsəndir.

5) Salman əl-Farisi ﵁ Allahın Elçisinin ﷺ belə dediyini demişdir: "Qədəri yalnız dua dəyişdirə bilər, ömrü də yalnız yaxşılıq artırar".

**Mənbə:** Tirmizi (2139), Təbərani "əl-Kəbir" əsəri (6128) və Tahavinin "əl-Muşkil" əsəri (7/201), sənədi həsəndir.

6) Yenə Salman əl-Farisi ﵁ Allahın Elçisinin ﷺ belə dediyini demişdir: "Uca və Ulu Allah Diri və Səxavətlidir – qulu əllərini Ona doğru qaldırdıqda, onları cavabsız qoymaqdan həya edir."

**Mənbə:** Hədisi Əbu Davud (1488), Tirmizi (3556, "ümidsiz" sözünü əlavə etməklə), Təbərani "əl-Kəbir" əsərində (6148, "içərilərində bir şey olmadan" əlavəsi ilə), Əbdur-Razzəq "əl-Musənnəf"də (3250, "içərilərinə xeyir qoymadan" əlavəsi ilə) səhih sənədlə rəvayət etmişlər.

**b) İmamilərin mənbələrindən:**

1) Hinan ibn Sudeyr atasından rəvayət edərək demişdir ki, mən Əbu Cəfərdən ؑ soruşdum: "Hansı ibadət

daha üstündür?” Dedi: “İzzət və Cəlal Sahibi Allahın yanında ən üstün ibadət Ondan istəmək və diləməkdir. İzzət və Cəlal Sahibi Allah üçün ən xoşagəlməz şey isə Ona ibadət etməyi özünə sığışdırmamaq və Ondan istəməməkdir.”

**Mənbə:** “əl-Kafi” (2/467), “ət-Tuhfətus-Səniyyə” (64), “Məkarim əl-əxlaq” (268).

2) Əbu Abdullah عليه السلام demişdir: “Dua ibadətdir. İzzət və Cəlal Sahibi olan Allah buyurur: “**Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər”.** İzzət və Cəlal Sahibi olan Allaha dua et və demə ki, – Olan olacaq.”

**Mənbə:** “əl-Kafi” (2/467), “Zəxiratul-miad” (1/296), “Cami əhadis əş-şiə” (15/187).

3) Meysər ibn Əbdül-əziz Əbu Abdullahın عليه السلام belə dediyini rəvayət etmişdir ki, o mənə dedi: “Ey Meysər, dua et və demə ki, – Olan olacaq. İzzət və Cəlal Sahibi Allahın yanında elə bir məqam vardır ki, o məqama yalnız dua sayəsində yetişmək olar. Əgər qul ağzını qapayıb heç bir dua etməsə, ona heç bir şey verilməz. İstə ki, versin. Ey Meysər, elə bir qapı yoxdur ki, döyüldükdə sahibi onu açmasın”.

**Mənbə:** “əl-Kafi” (2/466), “Uddətud-dai” (23), “Cami əhadis əş-şiə” (15/188).

4) Möminlərin əmiri عليه السلام demişdir: "Dua uğurun açarı, nicatın cilovudur. Duaların ən xeyirlisi təmiz və təqvalı qəlbdən çıxanıdır. Yardım diləmək uğurun səbəblərindəndir. İxlasda qurtuluş vardır. Qorxu artdıqda yönələcək yer Allahdır".

**Mənbə:** "əl-Kafi" (2/468), "ət-Tuhfətus-Səniyyə" (146), "Cəvahir əl-kəlam" (7/202).

5) Peyğəmbər صلى الله عليه وآله وسلم demişdir: "Sizə elə bir silah göstərimmi ki, o sizi düşmənlərinizdən qorusun, ruzinizi də artırsın?" Dedilər: "Bəli". Dedi: "Gecə və gündüz Rəbbinizə dua edin. Şübhəsiz ki, möminin silahı duadır."

**Mənbə:** "əl-Kafi" (2/468), "ər-Risalətus-Sədiyyə" (128), "Savab əl-əaməl" (26).

6) Seyf ət-Təmmar deyir ki, mən Əbu Abdullahın عليه السلام belə dediyini eşitmişəm: "Çoxlu dua edin, çünki siz onun kimi başqa bir şeylə yaxınlaşa bilməzsiniz. Elə bir kiçik şey buraxmayın ki, onun barəsində dua etmiş olmayasınız. Şəkk yoxdur ki, kiçiklərə yiyələnən böyüklərə də sahib olar."

**Mənbə:** "əl-Kafi" (2/467), əl-Mufidin "əl-Amali" əsəri (20), "Bihar əl-ənvar" (90/293).

7) Ömər ibn Yezid demişdir ki, mən Əbu Həsənin عليه السلام belə dediyini eşitdim: "Şübhəsiz ki, dua qədərdə olanı da, olmayanı da dəyişdirər". Mən dedim: "Qədərdə olanı

anladım, bəs qədərdə olmayan nə deməkdir?" Dedi: "Yəni olmasın deyə."

**Mənbə:** "əl-Kafi" (2/469), əl-Mufidin "əl-İxtisas" əsəri (219), "Vəsail əş-şiə" (7/37).

8) Allahın Elçisi ﷺ demişdir: "Dua etməkdə acizlik göstərməyin, çünki dua edən kəs həlak olmaz. Rəbbinizdən hər şey istəyin, hətta ayaqqabınızın qırılmış bağını belə Ondan istəyin. Allahdan Onun fəzilətini diləyin, çünki O, özündən istənilməsini sevir. Hər hansı bir müsəlman günah olmayan, yaxud qohumluq əlaqələrinin kəsilməsinə səbəb olmayan bir şey diləyərsə, Allah ona üç şeydən birini əta edər: ya onun duasına həmən cavab verər, ya onun əvəzini axirətdə verər, ya da başına gələ biləcək şəri ondan dəf edər". Dedilər: "Ey Allahın Elçisi, yəni duanı çoxaldaq?". Dedi: "Allahın sizə verə biləcəyi nemətlər daha çoxdur."

**Mənbə:** "əd-Dəavat" (19), "Bihar əl-ənvar" (90/300), "Cami əhadis əş-şiə" (15/189).

# KƏDƏR VƏ QƏM ANINDA NƏ DEYİLİR

**a) Əhli-sünnə mənbələrindən:**

1) Əsma bint Umeys demişdir ki, Allahın Elçisi ﷺ kədər anında deməyim üçün mənə bəzi sözlər öyrətdi: “Allah mənim Rəbbimdir və Ona heç bir şeyi şərik qoşmuram.”

**Mənbə:** Hədisi İmam Əhməd (27127), Əbu Davud (1525), İbn Macə (3882) rəvayət etmişlər. Sənədi səhihdir.

2) İbn Abbas رضي الله عنه demişdir ki, kiməsə bir kədər, qəm, bəla üz verərsə, yaxud rəhbərindən qorxan bir kimsə bu sözlərlə dua edərsə, ona cavab verilər: “Səndən diləyirəm, Səndən başqa ibadətə layiq məbud yoxdur, ey yeddi qat göyün və əzəmətli Ərşin Rəbbi! Səndən diləyirəm, Səndən başqa ibadətə layiq məbud yoxdur, ey yeddi qat göyün və əzəmətli Ərşin Rəbbi! Səndən diləyirəm, Səndən başqa ibadətə layiq məbud yoxdur, ey yeddi qat göyün, yeddi qat yerin və üzərində olanların Rəbbi! Şübhəsiz ki, Sən hər şeyə Qadirsən”. Sonra Allahdan ehtiyacını dilə.”

**Mənbə:** Hədisi əl-Buxari “Ədəb əl-Mufrad” əsərində (709) rəvayət etmişdir.

**b) İmamilərin mənbələrindən:**

1) Əsma dedi ki, Allahın Elçisi ﷺ demişdir: “Kimə bir kədər, qəm və ya bəla üz verərsə, belə desin: “Allah mənim Rəbbimdir, mən Ona heç nəyi şərik qoşmuram. Diri və Ölməz olan Allaha təvəkkül etdim.”

**Mənbə:** “əl-Kafi” (2/556), “Uddətut-dai” (260), “Bihar əl-ənvar” (92/208).

2) Əbu Abdullah عليه السلام kədər haqqında demişdir ki, qüsl aldıqdan sonra iki rükət namaz qıl və de: “Ey kədəri aradan Qaldıran, ey qüssəni yox Edən, ey dünyanın və axirətin Mərhəmətlisi və Rəhmlisi, kədərimi aradan qaldır, qüssəmi yox et! Ey Tək olan, Ehtiyacsız olan, Doğmamış, Doğulmamış, bənzəri, tayı-bərabəri olmayan Allah. Məni qoru, məni təmizlə, bəlamı uzaq et”. Sonra “ayətul-Kursi”ni, “Fələq” və “Nas” surələrini oxu.

**Mənbə:** “əl-Kafi” (2/557), “Məvsuətu əhadis əhlil-beyt” (8/172).

3) Əbu Abdullah عليه السلام demişdir ki, bir işdən qorxduqda de: “Allahım, Səndən heç kəs kifayətlənməz, Sən isə məxluqatından heç kəsə möhtac deyilsən. Mənim filan işimi avand et.”

**Mənbə:** “əl-Kafi” (2/557), “əs-Sahifətus-Sadiqa” (63).

# UCA ALLAHA ONUN ADLARI , SİFƏTLƏRİ, YAXŞI İŞLƏR VƏ ƏMƏLISALEH ADAMIN DUASI VASİTƏSİLƏ TƏVƏSSÜL ETMƏK

## a) Əhli-sünnə mənbələrindən:

1) Abdullah ibn Ömər ﷺ demişdir ki, mən Allahın Elçisinin ﷺ belə dediyini eşitmişəm: "Sizdən əvvəlki xalqlardan üç nəfər səfərə çıxmaq məqsədilə yola düzəlmişlər. Gecələmək vaxtı çatdıqda bir mağaraya rast gəlmiş və gecələmək üçün ora girmişlər. Bu zaman dağdan bir qaya qoparaq mağaranın ağzını örtmüş, onlar da: "Bizi buradan ancaq saleh əməllərimizlə Allaha edilən dualar xilas edə bilər" demişlər. Onlardan birincisi söhbətə belə başlamışdır: – Allahım, mənim çox qoca valideynlərim var idi. Onlardan qabaq nə ailəmdən, nə də xidmətçi və kölələrimdən heç kimə bir şey yedirtməzdim (axşamlar süd içirtməzdim). Bir gün (heyvanların otlaması və ya odun yığmaq üçün) ağaclıq axtarmaq fikrinə düşməyim məni yubatdı və mən heyvanları sağıb qayıdanda onların artıq yuxuya getdiklərini gördüm. Nə onları oyatmağa qıydım, nə də onlardan qabaq ailəmə və kölələrimə süd verməyə ürəyim gəldi. Uşaqlar ayağıma dolaşaraq acından ağladıqları halda, mən əlimdə qab sübh açılana qədər onların oyanmasını gözlədim. Onlar oyandılar və südlərini içdilər. Allahım! Əgər bu işi Sənin razılığın üçün etmişəmsə, bizim bu qayadan çıxmağımızı asanlaşdır. Qaya bir qədər aralansa da, onlar

oradan çıxa bilməmişlər. Aralarından ikincisi belə başlamış ki: – İlahi, mənim bir əmim qızı vardı, mən də onu hamıdan çox sevirdim. Hətta ona qarşı olan bu sevgim bir kişinin qadına olan sevgisindən də artıq idi. Ondan özünü istədim, amma o buna razı olmadı. Bir il bərk quraqlıq oldu, torpaq yararsız hala gəldi, məhsul qıtlığı baş verdi. Bu vaxt o yanıma gəldi və məndən yüz iyirmi dinar istədi. Mən də özünü mənə təslim etməsi şərti ilə pulu ona verdim. Razılaşdı. Ona yaxınlıq etmək ərəfəsində: "Allahdan qorx! Haqsızlıq edərək (qanuni nikaha girmədən) bakirəliyimi pozma, bunu sənə halal etmirəm" — dedi. Mən də onu hamıdan çox sevdiyim halda, ona sahib olmaq fikrindən döndüm və ondan uzaqlaşdım. Heç ona verdiyim qızılları da geri götürmədim. Allahım, əgər mən bu işi Sənin razılığın üçün etmişəmsə, bizi düşdüyümüz bu çətinlikdən qurtar! Qaya bir qədər də aralanmış, lakin bu yenə də onların çıxa bilməsi üçün kifayət etməmişdir. Onlardan üçüncüsü də belə demişdir: – Allahım! Mən bir neçə adamı işə götürmüşdüm. Hamısının haqqını versəm də, onlardan yalnız biri haqqını almadan getmişdi. Onun pulunu işlədib dövriyyəyə buraxdım. Nəhayət, onun bu pulu ilə malım xeyli çoxaldı. Bir müddətdən sonra yanıma gəlib: "Ey Allahın qulu! Haqqımı ver." — dedi. Mən də: "Gördüyün bu dəvələr, inəklər, qoyunlar, kölələr hamısı sənin haqqındandır" — dedim. O təəccüblənərək: "Məni ələ salma" — dedi. Mən də: "Səni ələ salmıram" – dedim. O da gözü gördüyünün hamısını özü ilə götürüb apardı, heç nə

saxlamadı. Allahım, əgər mən bu işi Sənin razılığın üçün etmişəmsə, bizi buradan qurtar!" Bundan sonra qaya parçası tamamilə aralanmış və nəhayət onlar çıxıb gedə bilmişlər".

**Mənbə:** Hədisi əl-Buxari (2272) və Muslim (100) rəvayət etmişlər.

2) Muhəccin ibn əl-Ədra ﵁ demişdir: "Bir dəfə Allahın Elçisi ﷺ məscidə daxil olub gördü ki, bir nəfər namazını bitirib təşəhhüd edərək deyir: – Allahım, mən Səndən istəyirəm. Sən Təksən, Nöqsansızsan, Sən doğmamış, doğulmamışsan, Sənin nə bənzərin, nə də tayın-bərabərin yoxdur. Mənim günahlarımı bağışla. Şübhəsiz ki, Sən Bağışlayansan, Rəhmlisən. Allahın Elçisi ﷺ dedi: – O, bağışlandı, o, bağışlandı. O, bu sözləri üç dəfə təkrar etdi.

**Mənbə:** Hədisi Əbu Davud (985), Nəsai (1301) və İmam Əhməd (18995) rəvayət etmişlər, sənədi səhihdir.

3) Ənəs ﵁ demişdir: "Bir dəfə mən Allahın Elçisi ﷺ ilə birlikdə oturmuş ikən o, bir nəfərin namaz qılıb belə dua etdiyini gördü: – Allahım, mən Səndən istəyirəm! Həmd Sənə məxsusdur, Səndən başqa ibadətə layiq məbud yoxdur, Sən minnət Sahibi, yerlərin və göyün Xəlq edənisən, ey İzzət və Cəlal Sahibi olan Allah, ey Diri və Ölməz olan! Peyğəmbər dedi: "Bu adam İzzət və Cəlal Sahibi olan Allaha Onun ən əzəmətli adı ilə dua etdi. Bu cür dua edənə Allah cavab verər, istədiyini bəxş edər."

**Mənbə:** Hədisi Əbu Davud (1495), Nəsai (1300) və İmam Əhməd (13595) rəvayət etmişdir, sənədi səhihdir.

4) Abdullah ibn Məsud ﷺ nəql edir ki, Allahın Elçisi ﷺ demişdir: Kimə bir kədər və ya qəm üz verdikdə bu duanı edərsə, Allah həmin adamın üzüntüsünü və kədərini aradan qaldırar, onu sevinclə əvəz edər: "Allahım! Mən Sənin qulunam, qulunun oğluyam, kənizinin oğluyam! Kəkilim (məni idarə etmək) Sənin əlindədir. Barəmdə verdiyin hökm yerinə yetəndir. Mənə yazdığın tale ədalətlidir. Sənə, Özünə aid etdiyin və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin, yaxud da Öz yanında olan qeyb elmində saxladığın Özünə aid olan hər bir adla yalvarıram ki, Quranı qəlbimin baharı və köksümün nuru et, üzüntümün aradan qalxması və kədərimin getməsi (üçün səbəb) et!" Soruşdular ki: "Ey Allahın Elçisi, bunu öyrənəkmi?" Dedi: "Bəli, bunu eşidən gərək öyrənsin".

**Mənbə:** Hədisi İmam Əhməd (3712) və Əbu Yəalə (5297) rəvayət etmişlər.

**b) İmamilərin mənbələrindən:**

1) Əlinin ﷺ belə dediyi rəvayət olunur: "Təvəssül əhlinin ən yaxşı təvəssül etdiyi əməl Allaha və Elçisinə iman gətirmək, Allah yolunda cihad etmək və ixlas kəlməsidir. Bu, fitrətin tamamıdır. Namazın kamilliyi millətlədir. Zəkat vermək Allahın fərzlərindəndir. Ramazan ayı oruc

tutmaq əzabdan bir qoruyucudur. Həcc ziyarəti etmək kasıblığı aradan qaldırır, günahları da yuyur. Qohumluq əlaqələrini möhkəmlətmək mal-dövləti çoxaldır, əcəli isə yubadır. Gizlində verilən sədəqə günahı silir, Rəbbin qəzəbini isə söndürür. Yaxşı işlər görmək pis sonluqdan qoruyur və Qiyamətin çətinliklərindən mühafizə edir. Çalışın doğru danışın, çünki Allah doğrunu sevər, yalandan isə uzaq olun, çünki yalan imanla ziddiyyət təşkil edir. Şübhəsiz ki, sadiq insan ehtiram və nicat sahibidir. Həmçinin yalançı olan kəs də rüsvay və həlak olmağa yaxındır. Xeyir söyləyin ki, onunla tanınasınız, xeyirə əməl edin ki, onun əhlindən olasınız. Əmanəti öz əhlinə qaytarın. Sizinlə əlaqələri kəsən qohumlarla əlaqə saxlayın ki, onlardan daha fəzilətli olasınız".

**Mənbə:** "əl-Məhasin" (1/289), "Mən lə yəhduruhul-fəqih" (205), "Vəsail əş-şiə" (6/275).

2) Peyğəmbər ﷺ demişdir: "Kim bu duanı edərsə, Allah onun kədərini aradan qaldırar, hüznünü yox edər: – Allahım, mən Sənin qulunam, Sənin qulunun oğluyam, kənizinin oğluyam, kəkilim Sənin əlindədir, Sənin hökmün altındayam, hökmün üzərimdə keçərlidir, Sənə məxsus olan, Özünə aid etdiyin, Kitabında nazil etdiyin, məxluqatından kiməsə öyrətdiyin, yaxud da qeyb elmində saxladığın adlarla Sənə dua edirəm ki, Quranı qəlbimin baharı, sinəmin nuru et. Onunla hüznümü sona yetir, kədərimi də aradan qaldır".

**Mənbə:** ər-Ravandinin "əd-Dəavat" əsəri (56), "əs-Sahifətus-səccadiyyə" (64), "əl-Kafi" (2/561).

3) Udey ibn Hatim ət-Tai demişdir: "Bir dəfə möminlərin əmiri Əli ibn Əbu Talibin yanına daxil olub gördüm ki, o, rəngi dəyişmiş halda namaz qılır. Mən Allahın Elçisindən sonra onun kimi rukunu və səcdəni tamamlayan bir adam görməmişəm. Ona yaxınlaşdıqda mənim gəldiyimi hiss edib əli ilə mənə dayanmağıma işarə etdi. O, qısa və kamil şəkildə iki rükət namaz qılıb salam verdikdən sonra uzun bir səcdə etdi. Mən fikirləşdim ki, yəqin yuxulayıb. Sonra o, başını qaldırıb dedi: "Allahdan başqa ibadətə layiq məbud yoxdur, haqdır, haqdır. Allahdan başqa ibadətə layiq məbud yoxdur, iman edir və təsdiq edirik. Allahdan başqa ibadətə layiq məbud yoxdur, qul və bəndəyik. Ey möminləri Öz səltənəti ilə izzətləndirən, ey təkəbbürlüləri Öz əzəməti ilə zəlil edən. İşlərimi səhmana saldıqda, çətinlik çəkdiyimdə, yer və üzərindəkiləri məni sıxdıqda sığınacağım Sənsən. Ey rəhbərim! Məni Sən yaratdın, mərhəmət Səndəndir, Sənin mərhəmətin olmasaydı, mən həlak olanlardan olardım. Düşmənlərimə qarşı mənə dəstək verən sənsən, Sənin yardımın olmasaydı, mən məğlub olanlardan olardım. Ey yerlərində bərəkət yaradan, rəhməti öz mədənindən göndərən, ey Özünü izzət və ucalıqla xüsusiləşdirən! Dostların Sənin izzətinlə güclənirlər, ey padşahların zəlilliklə təzim edib Ondan qorxduqları Allah! Əzəmətinin bir

parçası olan təkəbbürlüyünlə Səndən diləyirəm – o əzəmətin ki, onunla Ərşin üzərinə yüksəlmiş, onunla da məxluqatın üzərində ucalmısan, hər kəs Sənin izzətin qarşısında zəlildir. Muhəmmədə və onun ailəsinə salavat de. Bu iki işdən birini mənim üçün seç, Sən Böyüksən, ey rəhimlilərin rəhimlisi."

Udey bin Hatim ət-Tai deyir ki, sonra möminlərin əmiri mənə tərəf çevrilib dedi: "Ey Udey, mənim söylədiklərimi eşitdinmi?" Dedim: "Bəli, ey möminlərin əmiri". O dedi: "Dəni partladan, onu artıran Allaha and olsun ki, kədər içərisində olan hər hansı bir kəs, bu sözlərlə Allaha təvəssül edən hər bir çətinlikdə olan kəsin çətinliyini Allah aradan qaldırar, işini avand edər, qəmini yox edər, kədərini yüngülləşdirər. Bunu eşidən hər bir kəs gərək bunu əzbərləsin".

Udey əlavə etdi ki, mən möminlərin əmirini eşitdiyimdən sonra bu duanı əsla tərk etmədim.

**Mənbə:** "Bihar əl-ənvar" (83/225), "Cami əhadis əş-şiə" (5/458).

4) əs-Səmali demişdir ki, mən Əli ibn Hüseynə عليه السلام dedim: "Mənə dua öyrət". Dedi: "Ey Sabit, de: – Allahım, mən Səndən diləyirəm! Həmd Sənə məxsusdur, Səndən başqa ibadətə layiq məbud yoxdur! Ey minnət Sahibi, göylərin və yerin Yaradanı, İzzət və Cəlal Sahibi, mənim filan işimi düzəlt". Sonra dedi: "Allahın Elçisi demişdir: "Bu dua ilə dua edənin duası qəbul olar, istədiyi verilər."

**Mənbə:** ər-Ravandinin "əd-Dəavat" əsəri (57), "əs-Sahifətus-Səccadiyyə" (94), "əl-Kafi" (2/557).

5) Əbu Bəsir demişdir ki, Əbu Abdullah عليه السلام Ramazan ayında belə dua edərdi: "Allahım, Sənə təvəssül edir, ehtiyacımı Səndən diləyirəm. Bəziləri insanlardan yardım istəyir, mən isə ehtiyacımı yalnız Səndən istəyirəm, Səndən fəzilətinlə, razılığınla diləyirəm ki, Muhəmmədə və onun ailəsinə salavat yetir. Diləyirəm ki, bu il mənə səmimi bir həcc ziyarətini nəsib et və onu qəbul et, onun vasitəsilə gözlərimi aydınlat, dərəcəmi qaldır. Mənə gözlərimi, övrət yerimi haramdan qorumağı nəsib et ki, bütün haramlardan qorunum. Elə et ki, mənim üçün Sənə itaətdən və Səndən qorxmaqdan daha önəmli bir şey olmasın. Sənin sevdiyin əməlləri edim, nəhy etdiyin və sevmədiyin əməllərə isə heç yaxın durmayım – bunları mənim üçün asanlaşdır. Mənə bəxş etdiyin nemətlərə görə Sənə şükür etməyi nəsib et. Elə et ki, ölümüm Sənin yolunda, Peyğəmbərinin bayrağı altında, övliyalarınla birlikdə olsun. Səndən diləyirəm ki, Sənin və göndərdiyin Elçinin düşmənlərini məhv edəsən. Diləyirəm ki, mənə qullarından dilədiyini nəsib edəsən, övliyalarından hər hansı birinin kəraməti ilə məni alçaltma. Allahım, mənə Öz Elçinlə birlikdə bir yol nəsib et. Allah mənə kifayət edər, Allahın dilədiyi olar."

**Mənbə:** "əl-Kafi" (4/74), "Vəsail əş-şiə" (10/325), "Cami əhadis əş-şiə" (9/74).

# ALLAHDAN BAŞQASINA AND İÇMƏK

## a) Əhli-sünnə mənbələrindən:

1) Səd ibn Ubeydə ﷺ demişdir: Bir dəfə ibn Ömər bir kişinin "Kəbəyə and olsun ki, xeyr" deyə and içdiyini eşidib dedi ki, mən Allahın Elçisinin ﷺ belə dediyini eşitmişəm: "Allahdan başqasına and içən şəxs Ona şərik qoşmuş sayılır."

**Mənbə:** Hədisi Əbu Davud (3251), Tirmizi (1535) və İmam Əhməd (6072) rəvayət etmişlər, sənədi səhihdir.

2) Səd ibn Ubeydə ﷺ nəql edir ki, bir dəfə mən ibn Ömərin yanında idim. Sonra onu Kindədən olan bir kişi ilə baş-başa buraxıb Səid ibn əl-Museyyibin yanına getdim. Bu vaxt Kindəli adam həyəcanlı halda mənim yanıma gəlib dedi: "Bir nəfər ibn Ömərdən soruşdu ki, Kəbəyə and içə bilərəmmi? Dedi: "Xeyr, Kəbənin Rəbbinə and iç. Ömər də atasına and içmişdi, ancaq bunu eşidən Peyğəmbər ﷺ ona dedi: "Atana and içmə! Allahdan başqasına and içən kəs şirk qoşmuş olur."

**Mənbə:** Hədisi İmam Əhməd (5593) və ət-Tayəlisi (2008) rəvayət etmişlər.

3) Abdullah ibn Ömər ﷺ nəql edir ki, Allahın Elçisi ﷺ demişdir: "Allahdan başqasına and içən kəs barəsində şiddətli söz söyləndi."

**Mənbə:** İmam Əhməd (5356) və İbn Mübarəkin "Müsnəd" əsəri (171).

4) İbn Ömərdən ﷺ rəvayət olunur ki, o, miniklə Ömər ibn əl-Xəttaba çatdıqda gördü ki, o, atasına and içir. Bu zaman Allahın Elçisi ﷺ onu çağırıb dedi: "Şəkk yoxdur ki, Allah sizlərə atalarınıza and içməyi qadağan etmişdir. And içən ya Allaha and içsin, ya da sussun."

**Mənbə:** Hədisi əl-Buxari (6108) və Muslim (1646) rəvayət etmişlər.

5) İbn Ömər ﷺ demişdir ki, mən Ömərin belə dediyini eşitmişəm: "Allahın Elçisi ﷺ mənə belə dedi: "Şəkk yoxdur ki, Allah sizlərə atalarınıza and içməyi qadağan etmişdir". Sonra Ömər dedi: "Allaha and olsun ki, Peyğəmbərin ﷺ bu sözündən sonra heç bir halda belə and içmədim".

**Mənbə:** Hədisi əl-Buxari (6648) və Muslim (1646) rəvayət etmişlər.

6) İbn Ömərdən ﷺ rəvayət olunan hədisdə Allahın Elçisi ﷺ demişdir: "And içən kəs yalnız Allaha and içsin". O zaman qureyşlilər atalarına and içərdilər deyə o ﷺ dedi: "Atalarınıza and içməyin."

**Mənbə:** Hədisi əl-Buxari (3836) və Muslim (1646) rəvayət etmişlər.

7) Abdur-Rahmən ibn Səmura ؓ deyir ki, Allahın Elçisi ﷺ belə demişdir: “Hədlərini aşanlara və atalarınıza and içməyin.”

**Mənbə:** Hədisi İbn Əbu Şeybə (12277) və Muslim (1648) rəvayət etmişlər.

8) Əbu Hureyrədən ؓ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: “Kim: – Lata və ya Üzzaya and olsun! deyə and içərsə, tez: – Lə iləhə illəllah! desin. Kim də dostuna: – Gəl qumar oynayaq! deyərsə, sədəqə versin”.

**Mənbə:** Hədisi əl-Buxari (6107) və Muslim (1647) rəvayət etmişlər.

9) Əbu Hureyrədən ؓ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: “Atalarınıza, analarınıza və batil ilahlara and içməyin. Yalnız Allaha and için, Allaha da yalnız sədaqətlə and için.

**Mənbə:** Hədisi Əbu Davud (3248) və Nəsai (3769) rəvayət etmişlər, sənədi səhihdir.

10) Bureydədən ؓ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: “Əmanətə and içən bizdən deyildir.”

**Mənbə:** Hədisi Əbu Davud (3253) və İmam Əhməd (23030) rəvayət etmişlər.

11) İbn Ömərin ﵄ belə dediyi rəvayət olunur ki, Peyğəmbər ﷺ belə and içərdi: "Qəlbləri çevirənə and olsun ki, xeyr."

**Mənbə:** Hədisi əl-Buxari (6628) rəvayət etmişdir.

**b) İmamilərin mənbələrindən:**

1) Möminlərin əmiri Əli ibn Əbu Talib ﵇ demişdir: "Peyğəmbər ﷺ ... qadağan etmişdir. Həmçinin adamın Allahdan qeyrisinə and içməsini qadağan etmişdir". Sonra dedi: "Kim İzzət və Cəlal Sahibi olan Allahdan başqasına and içərsə, Allahın bəxş etdiyi heç bir şey üzərində olmaz". Həmçinin o, İzzət və Cəlal Sahibi olan Allahın kitabından hər hansı bir surəyə and içilməsini qadağan etmişdir. O demişdir: "Kim Allahın kitabından hər hansı bir surəyə and içərsə, içdiyi hər anda görə kəffarə verməlidir". Kim istəyir buna riayət etsin, kim də istəyir qarşı çıxsın. Həmçinin o, birinin başqasına: "Sənin canın haqqı" və ya "filankəsin canı haqqı" deyilməsini də qadağan etmişdir".

**Mənbə: "**Mən lə yəhduruhul fəqih" (4/9), əs-Saduqun "əl-Amali" əsəri (5112), "Bihar əl-ənvar" (73/331).

2) Muhəmməd ibn Muslim demişdir ki, mən Əbu Cəfərin belə dediyini eşitmişəm: "Şeytanın addımları ilə addımlamayın" Sonra əlavə etdi: "Allahdan başqasına and içilməsi şeytanın addımlarındandır".

**Mənbə: "**əl-Əyyaşi təfsiri" (1/73), "Bihar əl-ənvar" (101/223).

3) Cəfər ibn Muhəmməd عليه السلام demişdir: "Andlar yalnız Allaha içilməlidir, insanlar da yalnız Allaha içilən andlara riayət etməlidirlər. Digər andlara gəlincə, onlara riayət olunmamalı və kəffarə verilməlidir".

Həmçinin demişdir: "Gərək heç kim Allahdan başqasına and içməsin. Allaha and içən kəs sadiqdir və Allahı Uca tutmuş sayılır."

**Mənbə:** "Dəaim əl-İslam" (2/969), "Cami əhadis əş-şiə" (19/459).

4) Peyğəmbərin صلى الله عليه وآله وسلم belə dediyi rəvayət olunur: "Allahdan başqasına and içən kəs küfr və şirk etmiş sayılır."

**Mənbə:** "Əvali əl-ləali" (1/262), "Cami əhadis əş-şiə" (19/460).

5) Zurara Əbu Cəfərdən عليه السلام rəvayət edərək demişdir ki, mən ondan Uca Allahın **"Atalarınızı zikr etdiyiniz kimi, yaxud ondan daha şiddətli şəkildə Allahı zikr edin"** ayəsi haqqında soruşanda, o dedi: "Cahiliyyə əhli deyərdilər: – Atanın canı üçün, xeyr! Atamın canı, bəli! Sonra onlara əmr olundu ki, deyilsin: – Allaha and olsun ki, xeyr! Vallahi ki, bəli."

**Mənbə:** "əl-Əyyaşi təfsiri" (1/98), "Bihar əl-ənvar" (96/311).

6) Əli ibn əl-Hüseyn عليه السلام nəql edir ki, Allahın Elçisi ﷺ demişdir: “Yalnız Allaha and için! Allaha and içən kəs sadiq olar. Kimə Allaha and verilsə, razı qalsın, kimə Allaha and verildikdə razı qalmazsa, bu Allahdan deyildir.”

**Mənbə:** “ən-Nəvadir” (50), “əl-Kafi” (7/438), “Təhzib əl-Əhkam” (8/284).

7) Cəfər ibn Muhəmməd عليه السلام demişdir: “Allahdan başqasına and içilməz.”

**Mənbə:** “Dəaim əl-İslam” (2/521), “Mustədrək əl-vəsail” (16/66).

8) Musa ibn Cəfər عليه السلام demişdir: “Allahdan başqasına and içilməz. Bəzilərinin “Sənin şəninə and olsun” sözləri isə cahiliyyə sözlərindəndir. Kim buna və ya buna bənzər başqa bir şeyə and içərsə, Allaha and içməyi tərk edər.”

**Mənbə:** “Məsail Əli ibn Cəfər” (306), “Qurbul-isnad” (292), “Mən lə yəhduruhul-fəqih” (3/363).

9) Muhəmməd ibn Muslim demişdir ki, mən Əbu Cəfərə عليه السلام dedim: “Uca Allah buyurur: **– Bürünməkdə olan gecəyə and olsun”, “And olsun batmaqda olan ulduza”** və buna bənzər başqa ayələr barədə nə deyirsən? O dedi: “Allah məxluqlarından dilədiyinə and içə bilər, məxluqlar isə yalnız Ona and içə bilərlər.”

**Mənbə:** "ən-Nəvadir" (52), "əl-Kafi" (7/449), "Təhzib əl-əhkam" (8/277).

10) Əli عليه السلام demişdir ki, Allahın Elçisinin صلى الله عليه وآله وسلم andı belə idi: "Muhəmmədin canı əlində olan Allaha and olsun ki...". Bəzən də belə and içərdi: "Qəlbləri çevirənə and olsun ki, xeyr.".

**Mənbə:** Zeyd ibn Əlinin "Müsnəd"i (219), "Əvali əl-ləali" (3/443).

# UCA ALLAHA SƏCDƏ ETMƏYİN FƏZİLƏTİ

## a) Əhli-sünnə mənbələrindən:

1) Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Allahın Elçisi ﷺ demişdir: “Qulun Allaha ən yaxın olduğu vaxt səcdədə olduğu vaxtdır. Odur ki, [həmin vaxt] duanı çoxaldın.”

**Mənbə:** Hədisi Muslim (482) rəvayət etmişdir.

2) Midan ibn Əbu Talhə əl-Yamuri ﷺ demişdir: Allahın Elçisinin ﷺ mövlası Sövbanla görüşdüm və dedim: “Mənə elə bir əməl de ki, onun sayəsində Allah məni Cənnətə daxil etsin” və ya dedim: “Allaha ən sevimli olan əməlləri göstər ki, onların sayəsində Allah məni Cənnətə daxil etsin”. O, susdu. Sonra yenə soruşdum və susdu. Sonra üçüncü dəfə soruşdum, yenə də susdu. Sonra dedi: “Mən Allahın Elçisindən ﷺ bu barədə soruşduqda, o, belə demişdi: “Çalış Allaha çoxlu səcdə edəsən, çünki sən hər dəfə Allaha səcdə etdikdə, Allah bununla sənin dərəcəni qaldırar, günahlarından silər”. Midan deyir ki, mən Əbu Dərda ilə də görüşüb bu barədə soruşdum, o da bu sözləri mənə Sövbanın dediyi kimi təkrarladı.

**Mənbə:** Hədisi Muslim (488) rəvayət etmişdir.

3) Rabiə ibn Kəb əl-Əsləmi رضي الله عنه deyir ki, mən Allahın Elçisi ﷺ ilə birlikdə gecələyərkən ona dəstəmaz üçün su və digər ehtiyaclarını gətirdim. O, mənə dedi: “İstə”. Mən dedim: “Səninlə birlikdə Cənnətdə olmağı istəyirəm”. Dedi: “Başqa bir şey?” Dedim: “Ancaq bunu”. Dedi: “Çalış çoxlu səcdə edəsən.”

**Mənbə:** Hədisi Muslim (489) və İmam Əhməd (16629) rəvayət etmişlər.

İmam Əhmədin rəvayətində deyilir ki, Rabiə ibn Kəb رضي الله عنه demişdir: “Allahın Elçisi ﷺ işa namazını qılanadək mən gün boyu onun qulluğunda dururdum. O, evə daxil olduqda mən qapıda durardım ki, birdən Allahın Elçisi ﷺ nə isə istəyər. Mən onun “Subhanallah, subhanallah, subhanallahi va bihəmdihi” dediyini eşidərdim. Sonra yorğunluqdan yuxu mənə güc gələr, mən də gedib yatardım. Bir dəfə o, mənim xidmətimi və qulluğumu görüb dedi: “Ey Rabiə, məndən istə, sənə verim”. Dedim: “Ey Allahın Elçisi, mənim halıma bax, sonra sənə deyərəm”. Sonra öz-özümə dünyanın fani olduğunu düşündüm. Düşündüm ki, mənə yazılan ruzi gəlib mənə çatacaqdır. Fikirləşdim ki, yaxşısı budur axirətim üçün Allahın Elçisindən ﷺ bir şey istəyim. Çünki İzzət və Cəlal Sahibi olan Allah ona yüksək bir məqam nəsib etmişdir. Onun yanına getdim. O dedi: “Bir qərara gəldinmi, ey Rabiə?” Dedim: “Bəli, ey Allahın Elçisi, istəyirəm ki, Rəbbinin yanında mənə şəfaətçilik edəsən ki, məni Cəhənnəm odundan qorusun”. Dedi: “Ey Rabiə,

bunu sənə kim əmr edib?" Dedim: "Səni haqq olaraq göndərən Allaha and olsun ki, bunu mənə heç kim əmr etməyib. O zaman ki sən "istə" dedin, fikirləşdim ki, Allah yanında yüksək məqam sahibisən, düşündüm ki, dünya fanidir və mənə yazılan ruzi gəlib çatacaqdır. Özüm-özümə dedim ki, Allahın Elçisindən axirətim üçün istəyəcəyəm". Sözlərimi eşidən Allahın Elçisi ﷺ uzun müddət susdu, sonra mənə dedi: "Edərəm, lakin çoxlu səcdə etməyə çalış."

4) Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə o deyir ki, insanlar soruşdu: "Ey Allahın Elçisi, Qiyamət günü biz öz Rəbbimizi görəcəyikmi?" Allahın Elçisi ﷺ dedi: "... Allah Cəhənnəm əhlindən olanlara rəhm etmək istədikdə, mələklərə əmr edər ki, Allaha ibadət etmiş kəslər cəhənnəmdən çıxarılsın. Mələklər də onları səcdə nişanələrindən tanıyarlar. Allah cəhənnəm oduna səcdə nişanələrini yeməyi haram etmişdir. Beləcə onlar oddan çıxmış olacaqlar. Səcdə nişanəsindən başqa Adəm oğlunun hər yerini od yandıracaqdır..."

**Mənbə:** Hədisi əl-Buxari (806) və Muslim (182) rəvayət etmişlər.

**b) İmamilərin mənbələrindən:**

1) Əli ibn Əbu Həmzə nəql edir ki, Əbu Abdullah عليه السلام Əbu Bəsirə demişdir: "Olacaq bir işdən qorxsan və ya istədiyin bir şey olsa, Allahdan başla... Onu layiqli şəkildə

tərif et, sonra Peyğəmbərə salavat de, sonra ehtiyacını istə, hətta milçək başı qədər olsa belə, ağla. Atam belə deyərdi: "Qulun İzzət və Cəlal Sahibinə ən yaxın olduğu vaxt səcdədə ağladığı vaxtdır".

**Mənbə:** "əl-Kafi" (2/482), "Uddətud-dai" (161), "Bihar əl-ənvar" (90/334).

2) Həsən ibn Əli əl-Vaşşə deyir ki, mən Rzanın عليه السلام belə dediyini eşitmişəm: "Qulun İzzət və Cəlal Sahibinə ən yaxın olduğu vaxt səcdədə olduğu vaxtdır. Uca və Böyük Allahın buyurduğu kimi: **"Səcdə et və yaxınlaş".**

**Mənbə:** "Uyun axbar ər-Rida" (1/10), "əl-Kafi" (3/256), "Bihar əl-ənvar" (82/162).

3) Əbu Abdullah عليه السلام demişdir ki, mən onun belə dediyini eşitmişəm: "İzzət və Cəlal Sahibi Allah üçün ən sevimli əməl namazdır. O, peyğəmbərlərin son vəsiyyətidir. Qüsl alıb gözəl şəkildə dəstəmaz alan, sonra da heç kimin görmədiyi yerdə ruku və səcdə etməklə ibadət edən kəsin bu əməli necə də gözəldir. Şübhəsiz ki, qul uzun-uzadı səcdə edərsə, İblis deyər: – Vay mənim halıma! O itaət etdi, mən isə asi oldum, o səcdə etdi, mən isə qarşı çıxdım."

**Mənbə:** "əl-Kafi" (3/264), "Bihar əl-ənvar" (60/221).

4) Əbu Abdullah عليه السلام demişdir ki, bir dəfə Peyğəmbər صلى الله عليه وآله وسلم otaqlarından birini təmir edərkən onun yanına bir

kişi gəlib soruşdu: “Ey Allahın Elçisi, sənə kömək edimmi?” Dedi: “Özün bilərsən”. İşi bitirdikdən sonra Allahın Elçisi ona dedi: “Nə istəyirsən?” Dedi: “Cənnət”. Peyğəmbər əli ilə oranı döyüb dedi: “Bəli”. Getdikdə isə dedi: “Ey Əbu Abdullah, çalış uzun-uzadı səcdə edəsən.”

**Mənbə:** “əl-Kafi” (3/266), “əl-Ərbəun hədisən” (81), “Bihar əl-ənvar” (82/165).

5) Əbu Bəsir deyir ki, Əbu Abdullah عليه السلام demişdir: “Ey Əbu Muhəmməd, çalış uzun-uzadı səcdə edəsən. Çünki bu Allaha çox tövbə edənlərin yoludur.”

**Mənbə:** “İləl əş-şərai” (2/340), “Bihar əl-ənvar” (82/162), “Cami əhadis əş-şiə” (5/235).

6) Əbu Abdullahın عليه السلام belə dediyi rəvayət olunur ki, atam babamdan, o da öz babalarından Allahın Elçisinin صلى الله عليه وآله وسلم belə dediyini rəvayət etmişdir: “Səcdələri uzadın! İblisə ən ağır gələn iş Adəm övladının səcdə etməsini görməsidir. Çünki ona səcdə etmək əmr olunduqda, o, asi olmuşdu, bu (Adəm) isə səcdə etməyə əmr olunduqda, itaət etmişdir.”

**Mənbə:** “İləl əş-şərai” (2/340), “Bihar əl-ənvar” (82/161), “Vəsail əş-şiə” (6/381).

7) Həsən ibn Əli əl-Vaşşə demişdir ki, mən ər-Ridanın belə dediyini eşitmişəm: “İnsan səcdədə olduğu

halda yatarsa, Uca və Böyük Allah buyurar: – Qulumun ruhu Mənə itaət etdiyi vəziyyətdə alındı."

**Mənbə:** "Uyun axbar ər-Rida" (2/253), "Bihar əl-ənvar" (83/230), "Cami əhadis əş-şiə" (5/233).

8) Əbu Cəfər عليه السلام nəql edir ki, bir dəfə Allahın Elçisinin صلى الله عليه وآله وسلم yanına bir kişi gəlib dedi: "Allaha dua et ki, məni Cənnətə salsın". Dedi: "Çalış çoxlu səcdə edəsən."

**Mənbə:** "Təhzib əl-əhkam" (2/236), "Mən lə yəhduruhul-fəqih" (1/210), "Cami əhadis əş-şiə" (5/226).

9) Əbu Abdullah عليه السلام demişdir ki, bir dəfə bəziləri Allahın Elçisinin صلى الله عليه وآله وسلم yanına gəlib dedilər: "Ey Allahın Elçisi, Rəbbindən bizim üçün Cənnəti zəmanət ver". Dedi: "Bir şərtlə ki, çoxlu səcdə edəsiniz". Dedilər: "Oldu, ey Allahın Elçisi". Beləcə o onlara Cənnəti zəmanət verdi.

**Mənbə:** ət-Tusinin "Amali" əsəri (664), "Bihar əl-ənvar" (22/142), "Mustədrək əl-vəsail (4/471).

10) Əbu Abdullah عليه السلام atalarından rəvayət edərək deyir ki, Allahın Elçisi صلى الله عليه وآله وسلم demişdir: "Səcdə edən kəsin səcdəsinə görə günahı silinər, dərəcəsi qalxar."

**Mənbə:** "Savab əl-əmal" (34), "Bihar əl-ənvar" (82/163), "Cami əhadis əş-şiə" (5/228).

11) əs-Sadiq عليه السلام demişdir: "Səcdə, Adəm övladının etdiyi ibadətlərin ən yüksəyidir."

**Mənbə:** “əd-Dəavat” (33), “Bihar əl-ənvar” (82/164), “Mustədrək əl-vəsail” (4/472).

12) Möminlərin əmiri ﷺ demişdir ki, bir dəfə bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Mənə elə bir əməl öyrət ki, həm Allah, həm də məxluqlar onun sayəsində məni sevsin, Allah var-dövlətimi artırsın, bədənimi sağlam etsin, ömrümü uzatsın, məni səninlə birlikdə həşr etsin”. Dedi: “Bu altı xüsusiyyətin altı xüsusiyyətə ehtiyacı var. Əgər Allahın səni sevməsini istəyirsənsə, Ondan qorx. Əgər məxluqatın səni sevməsini istəyirsənsə, onlara yaxşılıq et və onların əllərindəkinə göz dikmə. Əgər Allahın sənin var-dövlətini artırmasını istəyirsənsə, malının zəkatını ver. Əgər bədəninin sağlam olmasını istəyirsənsə, sədəqələri artır. Əgər Allahın sənin ömrünü uzatmasını istəyirsənsə, qohumlarla əlaqələri möhkəmlət. Əgər Allahın səni mənimlə həşr etməsini istəyirsənsə, Tək və Qahhar olan Allahın önündə uzun-uzadı səcdə et.”

**Mənbə:** “Əlam əd-din” (268), “Bihar əl-ənvar” (82/164), “Mustədrək əl-vəsail” (4/472).

# UCA ALLAHDAN BAŞQASINA SƏCDƏ ETMƏYİN HARAMLIĞI

## a) Əhli-sünnə mənbələrindən:

1) Qeys ibn Səd ؓ nəql edir ki, mən Heyraya gəldikdə oradakıların öz baş sərkərdələrinə səcdə etdiklərini gördüm. Mən dedim: "Allahın Elçisinin ﷺ səcdə olunmağa daha çox haqqı var". Sonra peyğəmbərin ﷺ yanına gəlib dedim: "Mən Heyraya getdim və gördüm ki, onlar baş sərkərdələrinə səcdə edirlər. Sən isə səcdə olunmağa daha çox layiqsən, ey Allahın Elçisi". Dedi: "Əgər sən mənim qəbrimin yanından keçmiş olsan, ona səcdəmi edəcəksən?" Dedim: "Xeyr". Dedi: "Elə isə belə etməyin, əgər mən kiminsə kiməsə səcdə etməli olduğunu demiş olsaydım, qadınlara əmr edərdim ki, öz ərlərinə səcdə etsinlər. Çünki onların qadınları üzərində haqları vardır."

**Mənbə:** Hədisi Əbu Davud (2140) və əd-Darimi (1463) rəvayət etmişlər.

2) Əbu Hureyradan ؓ rəvayət olunan hədisdə deyilir ki, Allahın Elçisi ﷺ ənsarlara məxsus bir evə daxil olduqda orada iki dəvənin bir-biri ilə vuruşduğunu gördü. Allahın Elçisi ﷺ onlara yaxınlaşdı, bu zaman dəvələr boyunlarını yerə sərdilər. Onunla birlikdə olanlar dedilər ki, ona səcdə etdilər. Bu vaxt Allahın Elçisi ﷺ dedi: "Heç kim heç kimə səcdə edə bilməz. Əgər kiminsə

kiməsə səcdə etməsinə icazə verilsəydi, əmr edərdim ki, qadın öz ərinə səcdə etsin. Çünki Allah kişinin qadın üzərində haqqını əzəmətli etmişdir.”

**Mənbə:** Hədisi İbn Hibban “Səhih” əsərində (4126) rəvayət etmişdir.

3) Abdullah ibn Əbu Əufə belə nəql edir ki, Müaz Yəmənə və ya Şama gəldikdə görür ki, nəsranilər öz keşişlərinə və rahiblərinə səcdə edirlər. Öz-özünə fikirləşdi ki, Allahın Elçisi ﷺ ehtiram olunmağa daha çox layiqdir. Geri döndükdə dedi: “Ey Allahın Elçisi, mən nəsranilərin öz rahiblərinə və keşişlərinə səcdə etdiklərini gördüm və öz-özümə fikirləşdim ki, sən təzim olunmağa daha çox layiqsən”. O dedi: “Əgər kiminsə kiməsə səcdə etməsini əmr etmiş olsaydım, əmr edərdim ki, qadın öz ərinə səcdə etsin. Qadın öz ərinin bütün haqlarını ödəmədikcə İzzət və Cəlal Sahibi Allahın haqqını ödəmiş olmaz. Hətta qütbdə olsa belə, əri ondan yaxınlıq tələb etsə, gərək onun çağırışına cavab versin”.

**Mənbə:** Hədisi İmam Əhməd (19422), Təbərani “əl-Kəbir” əsərində (5117) və Hakim “əl-Mustədrək” əsərində (7325) rəvayət etmişlər.

4) Aişə demişdir ki, bir dəfə Allahın Elçisi ﷺ bir neçə mühacirlə birlikdə idi. Bu vaxt bir dəvə gəlib ona səcdə etdi. Səhabələri dedilər: “Ey Allahın Elçisi, heyvanlar və ağaclar sənə səcdə edirlər. Əslində bizlər sənə

səcdə etməliyik". Dedi: "Rəbbinizə ibadət edin, qardaşlarınıza ikram edin. Əgər kiminsə kiməsə səcdə etməsini əmr etmiş olsaydım, əmr edərdim ki, qadın öz ərinə səcdə etsin. Hətta əri ona sarı dağdan qara dağa, qara dağdan da ağ dağa köçməsini əmr etsə, gərək ona tabe olsun".

**Mənbə:** Hədisi İmam Əhməd (24515) rəvayət etmişdir.

**b) İmamilərin mənbələrindən:**

1) Əbu Abdullah عليه السلام deyir ki, bir dəfə bəzi insanlar Allahın Elçisinin ﷺ yanına gəlib dedilər: "Ey Allahın Elçisi, biz bəzi insanların bir-birilərinə səcdə etdiklərinin şahidi olmuşuq". Allahın Elçisi ﷺ dedi: "Əgər kiminsə kiməsə səcdə etməsini əmr etmiş olsaydım, əmr edərdim ki, qadın öz ərinə səcdə etsin."

**Mənbə:** "əl-Kafi" (5/508), "Mən lə yəhduruhul fəqih" (3/439), "Məkarim əl-əxlaq" (215).

2) Əbu Abdullah عليه السلام nəql edir ki, bir dəfə Allahın Elçisi ﷺ öz səhabələri ilə oturmuşdu. Bu vaxt oradan keçən bir dəvə gəlib boynunu onun önündə yerə sərdi. Adamlardan biri dedi: "Ey Allahın Elçisi, bizlər sənə səcdə etməli ikən dəvə sənə səcdə etdi". Allahın Elçisi ﷺ dedi: "Xeyr, Allaha səcdə edin. Bu dəvə gəlib sahiblərindən şikayət edir edir ki, onlar ona kiçik olduqda baxmış, ancaq böyüyüb boya-başa çatdıqdan sonra onu kəsmək istəyiblər". Adamlardan biri Allahın Elçisinin sözlərini

inkar etməyə başladı. Bu vaxt Allahın Elçisi ﷺ dedi: "Əgər kiminsə kiməsə səcdə etməsini əmr etmiş olsaydım, əmr edərdim ki, qadın öz ərinə səcdə etsin."

**Mənbə:** "Bəsair əd-dəracət" (372), "Bihar əl-ənvar" (27/265), "Vəsail əş-şiə" (6/385).

3) əl-Əskəridən عليه السلام rəvayət olunur ki, Peyğəmbər ﷺ ərəb müşriklərinə etiraz edərək demişdir: "Nə üçün Allahdan başqa bütlərə ibadət etdiniz?" Dedilər ki, biz bununla Allaha yaxınlaşırıq. Bəziləri isə belə dedi: "Allah Adəmi yaratdıqda mələklərə əmr etmişdi ki, ona səcdə etsinlər. Onlar da Allaha yaxınlaşmaq üçün Adəmə səcdə etmişdilər. Bizlər isə bunu görməmişdik. Odur ki, müxtəlif surətlər çəkib Allaha yaxınlaşmaq məqsədilə onlara səcdə etdik – necə ki, mələklərə əmr olunmuşdu ki, Adəmə səcdə etsinlər. İndi sizlərə də əmr olunub ki, Məkkə istiqamətində səcdə edəsiniz, ona görə siz də belə edirsiniz. Sonra da müxtəlif yerlərdə mehrablar yaradaraq onlara tərəf səcdə etdiniz". Allahın Elçisi ﷺ dedi: "Sizlər səhv yolda və zəlalətdəsiniz. Bir mənə deyin görüm, ibadət etdiyiniz həmin surətlər Allaha ibadət etmiş kəslərdirsə, sizlər də onlara səcdə, dua etdikdə, səcdə edərkən mübarək üzlərinizi onların qarşısında yerə qoyduqda, aləmlərin Rəbbi olan Allaha nə saxlamış olursunuz?! Məgər bilmirsiniz ki, təzim və ibadət olunmağa layiq olan gərək quluna bərabər olmasın?! Əgər hansısa bir hökmdara, yaxud rəhbərə onun qulları

ilə bərabər təzim, qorxu və itaət etmiş olsanız, bununla kiçiklərin haqqını böyüklərin haqqına bərabər etmiş olmazsınızmı?" Dedilər ki, bəli. Dedi: "Məgər bilmirsiniz ki, sizlər Allahın itaətkar bəndələrinin şəkillərinə təzim etməklə aləmlərin rəbbi olan Allaha qarşı itaətsizlik etmiş olursunuz? İzzət və Cəlal sahibi olan Allah Adəmə səcdə edilməsini əmr etdikdə onun surətinə təzim olunmasını əmr etməmişdir. Bu cür müqayisəniz doğru deyildir, çünki ola bilsin O, sizin bu əməlinizdən xoşlanmasın. O bunu sizə əmr də etməmişdir". Sonra dedi: "Əgər bir adam sizə müəyyən bir gündə evinə daxil olmağa icazə vermişdirsə, siz onun evinə başqa günlərdə daxil ola bilərsinizmi? Yaxud başqa bir evə icazəsiz daxil ola bilərsinizmi?" Dedilər ki, xeyr. Dedi: "Allahın da izni olmadan Onun mülkündə iş görmək olmaz. Bəs nə üçün siz belə edirsiniz? O, nə vaxt sizə əmr edib ki, bu şəkillərə ibadət edəsiniz?!"

**Mənbə:** "əl-İhticac" (1/22), "Bihar əl-ənvar" (9/264).

4) Əbu Abdullah عليه السلام uzun bir hədisdə belə nəql edir: "Münafiqlərdən biri soruşdu: – Allahdan başqasına səcdə etmək olarmı? Dedi: – Xeyr. Dedi: – Bəs nə üçün Allah mələklərinə Adəmə səcdə etməyi əmr etmişdir?! Dedi: "Kim Allahın əmri ilə səcdə edərsə, Allaha səcdə etmiş sayılar".

**Mənbə:** "əl-İhticac" (2/80), "Bihar əl-ənvar" (10/168), "Vəsail əş-şiə" (6/387).

5) Aişə rəvayət edir ki, Peyğəmbər ﷺ bir neçə səhabəsi ilə birlikdə ikən bir dəvə gəlib ona səcdə etdi. Dedilər: "Ey Allahın Elçisi, heyvanlar və ağaclar sənə səcdə etdi, halbuki bizim sənə səcdə etməyimiz daha münasibdir". O dedi: "Rəbbinizə ibadət edin, qardaşınıza hörmət edin. Heç kim Allahdan başqasına səcdə etməməlidir. Əgər kiminsə kiməsə səcdə etməsinə icazə versəydim, qadınlara əmr edərdim ki, ərlərinə səcdə etsinlər. Hətta əri ona əmr etsə ki, qırmızı dağdan qara dağa, qara dağdan da qırmızı dağa getsin, gərək qadın ona əməl etsin".

**Mənbə:** "Mənaqib İmam Əmirəl-möminin" (1/65).

6) Rəvayət olunur ki, bir bədəvi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Dəvət etdiyin şeydə bir möcüzən varmı?" Dedi: "Bəli. O ağacı çıxar və de ki, Allahın Elçisi səni çağırır". O da ağacın sağına-soluna boylanıb önündə durdu və onu kökündən çıxardı. Dedi: "İndi ona əmr et ki, yerinə qayıtsın". O da əmr etdi və ağac bitdiyi yerə geri döndü. Bədəvi dedi: "İcazə ver, sənə səcdə edim". Dedi: "Əgər kiminsə kiməsə səcdə etməsinə icazə versəydim, əmr edərdim ki, qadın öz ərinə səcdə etsin". Dedi: "Elə isə icazə ver, əllərini öpüm". O da icazə verdi.

**Mənbə:** "əl-Xəraic val-cəraih" (1/44), "Bihar əl-ənvar" (17/377).

# OVSUNLU İP VƏ TALISMANLAR BARƏDƏ VARID OLANLAR

**a) Əhli-sünnə mənbələrindən:**

1) Abdullah ibn Abdullah ibn Məsudun ﷺ xanımı Zeynəb rəvayət edərək demişdir ki, mən Allahın Elçisinin ﷺ belə dediyini eşitmişəm: “Şübhəsiz ki, ovsunlu iplər, talismanlar və quş uçurdaraq uğur ummaq şirkdir”. Soruşdum: “Nə üçün belə deyirsən? Vallahi ki, bir dəfə gözüm titrəyirdi, mən də filan yəhudinin yanına gedirdim ki, mənə ovsun oxusun. O ovsun oxuduqdan sonra sakitləşirdim”. Abdullah dedi: “Bu şeytan əməlidir. O əli ilə bunu edirdi. Ovsun oxuduqda isə dayanırdı. Allahın Elçisinin dediyi kimi desəydin, sənə kifayət edərdi: “Ey insanların Rəbbi, rahatsızlığı apar, şəfa ver! Sən şəfa verənsən, Sənin şəfandan başqa şəfa olmaz – bu elə bir şəfadır ki, xəstəlikdən əsər-əlamət saxlamaz”.

**Mənbə:** Hədisi Əbu Davud (3883) rəvayət etmişdir.

Başqa bir rəvayətdə deyilir ki, Zeynəb demişdir: “Bir qoca qarı yanımıza gəlib bizə qızdırmaya qarşı ovsun oxuyardı. Bizim də ayaqları uzun bir çarpayımız var idi. Abdullah evə gələndə öskürərək səs edərdi. Bir dəfə o evə daxil oldu. Qadın onun səsini eşitdikdə hicabını örtdü. O gəlib mənim yanımda oturdu. Əlini mənə vuranda üzərimdə ip görüb soruşdu ki, bu nədir? Dedim ki, bu qadın

mənə qızdırmaya qarşı ovsun oxuyub. O ipi qopararaq kənara atdı və dedi: – Abdullahın ailəsinin şirkə ehtiyacı yoxdur. Mən Allahın Elçisinin belə dediyini eşitmişəm: "Şübhəsiz ki, ovsun, talisman və uğur məqsədi ilə quş uçurmaq şirkdir". Mən dedim: "Bir dəfə mən çıxmışdım və filankəs məni gördü. Həmin vaxt ona tərəf baxan gözüm yaşardı. O, gəlib ovsun oxuduqda gözümün yaşı dayandı, ovsunu dayandırdıqda isə yenə gözümdən yaş axırdı". Dedi: "Bu şeytandır, ona itaət etdikdə səni tərk edir, ona asi olduqda isə əlini gözünə vurur. Lakin sən Allahın Elçisinin etdiyi kimi etmiş olsaydın, bu sənin üçün və şəfa tapmağın üçün daha xeyirli olardı. Gözünə su vurub de: "Ey insanların Rəbbi, rahatsızlığı apar, şəfa ver! Sən şəfa verənsən, Sənin şəfandan başqa şəfa olmaz – bu elə bir şəfadır ki, xəstəlikdən əsər-əlamət saxlamaz".

**Mənbə:** Hədisi İbn Macə (3530) və İmam Əhməd (3615) rəvayət etmişlər.

2) İmran ibn Husayndən ﷺ rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ bir kişinin qolunda qızıldan bir halqa görüb dedi: "Vay sənin halına, bu nədir?!" Dedi: "Bu zəiflikdəndir". Dedi: "Bu sənin zəifliyini daha da artırar, onu üzərindən çıxar. Əgər sən onunla birlikdə ölsən, əsla nicat tapmazsan"

**Mənbə:** Hədisi İmam Əhməd (20014), İbn Əbu Şeybə "Musənnəf" əsərində (23460), Abdur-Razzəq (20344) və İbn Macə (3531) rəvayət etmişlər.

3) Zeyd ibn Vahb demişdir ki, bir dəfə Hüzeyfə Nəxadan olan bir kişini ziyarət etməyə getmişdi. Mən də onunla birlikdə idim. Onun yanına daxil olduqda mən də onunla daxil oldum. Kişinin əlindən tutduqda gördü ki, qolunda ip var. O ipi qırdı və dedi: "Əgər bu qolunda ikən ölmüş olsaydın, sənin namazını qılmazdım."

**Mənbə:** Hədisi İbn Əbu Şeybə "Musənnəf" əsərində (12462) rəvayət etmişdir.

4) Abdur-Rahmən ibn Əbu Leyla رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Kim talisman asar, yaxud ovsunlu ip bağlayarsa, şirkin bir növü üzərində olar."

**Mənbə:** Hədisi İbn Əbu Şeybə (23470) rəvayət etmişdir.

5) Həsən رضي الله عنه demişdir ki, Allahın Elçisi ﷺ belə buyurmuşdur: "Kim bir ip bağlayarsa, ona bağlanar".

**Mənbə:** Hədisi Abdur-Razzəq "Musənnəf" əsərində (20345) rəvayət etmişdir.

6) İbn Məsuddan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ on şeyi xoşlamazdı: qocalığı gizləmək, qızıl üzük taxmaq, topuqlara vurmaq, surələrdən ibarət olmayan ruqya oxumaq, talismanlar, uzun libas geymək, qızıl, hədsiz açıq-saçıq geymək, suyun məcrasını dəyişmək."

**Mənbə:** Hədisi İmam Əhməd (4179) və İbn Hibban (5683) rəvayət etmişlər.

7) Uqbə ibn Amir əl-Cuhənidən ﷺ rəvayət olunur ki, bir dəfə Allahın Elçisinin ﷺ yanına bir toplum gəldi. O onlardan doqquzunun beyətini qəbul etdi, birini isə saxladı. Soruşdular ki: "Ey Allahın Elçisi, doqquzunu qəbul edib, birini niyə saxladın?" Dedi: "Onun üzərində talisman var". Sonra əlini uzadıb onu qırdı və dedi: "Talisman taxan kəs şirk etmişdir".

**Mənbə:** Hədisi İmam Əhməd (17458), Təbərani "əl-Kəbir" əsərində (820, "Allah onun işini tamamlamasın" əlavəsi ilə) və İbn Hibban (6086, "Allah onun işini tamamlamasın" əlavəsi ilə) rəvayət etmişlər.

8) Kureyb əl-Kindi deyir ki, bir dəfə Əli ibn Hüseyn mənim əlimdən tutdu və biz Qureyşdən olan İbn Əbu Həsəmə adlı bir ağsaqqalın yanına getdik. Bu vaxt o, üzü dirəyə namaz qılırdı. Biz onun yanında oturduq. Ağsaqqal Əlini gördükdə ona tərəf döndü. Əli ona dedi: "Ananın ruqyə barəsindəki hədisini bizə danış". Dedi: "Anam mənə danışmışdır ki, o, cahiliyyət dövründə ruqya etdirərdi. İslam gəldikdə isə o dedi: – Allahın Elçisindən icazə almadıqca ruqya etdirməyəcəyəm. O, gedib Allahın Elçisindən ﷺ izin istəyəndə, Allahın Elçisi ﷺ ona dedi: "Şirk olmadığı müddətdə ruqya etdirə bilərsən".

**Mənbə:** Hədisi Təbərani "əl-Kəbir" əsərində (796) və İbn Hibban (6092) nəql etmişlər.

9) Auf ibn Malik ﷺ nəql edir ki, biz cahiliyyət dövründə ruqya etdirərdik. Soruşduq ki, ey Allahın Elçisi, bu barədə nə deyə bilərsən? Dedi: "Ruqyalarınızı mənə göstərin", sonra əlavə etdi: "Şirk olmadığı müddətdə ruqya etdirməkdə bir qəbahət yoxdur."

**Mənbə:** Hədisi Muslim (2200) rəvayət etmişdir.

10) Aişədən rəvayət olunur ki, bir dəfə bir qadın onu müalicə, yaxud ona ruqya edərkən Allahın Elçisi onun yanına daxil olub dedi: "Onu Allahın kitabı ilə müalicə et."

**Mənbə:** Hədisi İbn Hibban "Səhih" əsərində (6098) rəvayət etmişdir.

**b) İmamilərin mənbələrindən:**

1) Qasim deyir ki, Əbu Abdullah Sadiq عليه السلام demişdir: "Talismanların çoxu şirkdir."

**Mənbə:** "Tıbbul əimmə" (48), "Bihar əl-ənvar" (92/5).

2) Əhməd ibn Muhəmməd ibn Muslim deyir ki, mən Əbu Cəfər Muhəmməd əl-Baqirdən عليه السلام soruşdum: "Bu ruqyalardan hər hansı birisi ilə qorunmaq olarmı?" Dedi: "Xeyr, yalnız Quranla olar. Əli deyərdi: – Şübhəsiz ki, ruqya və talismanların çoxu şirkdir."

**Mənbə:** "Tıbbul əimmə" (48), "Bihar əl-ənvar" (92/5).

3) Rəvayət olunur ki, Allahın Elçisi ﷺ Allahın kitabından savayı başqa bir şeylə ruqya olunmasını qadağan etmişdir. Həmçinin o, demişdir: "Bu ruqyalar Süleyman ibn Davudun insanlar, cinlər və həşəratlara qarşı işlətdiyindəndir."

**Mənbə:** "Dəaim əl-İslam" (2/141), "Bihar əl-ənvar" (60/18).

4) Rəvayət olunur ki, Peyğəmbər ﷺ talismanları və ipəyi qadağan etmişdir.

**Mənbə:** "Dəaim əl-islam" (2/142), "Bihar əl-ənvar" (60/18).

5) Abdullah ibn Sinan Əbu Abdullahdan عليه السلام belə rəvayət etmişdir ki, mən ondan əqrəb və ilan-çayana qarşı, habelə ağlını itirmiş kəs üçün, sehrdən əzab çəkən adama ruqya edilməsi barədə soruşdum. O dedi: "Ey Sinanın oğlu, əgər Qurandandırsa, ruqya oxuyaraq qorunmaqda bir qəbahət yoxdur. Məgər Uca Allah **"Biz Qurandan möminlərə şəfa və rəhmət olanını da nazil etdik"** – deyə buyurmurmu? Məgər Uca və Böyük Allah buyurmurmu ki, **"Əgər Biz bu Quranı bir dağa nazil etsəydik, sən onun Allah qorxusundan param-parça olduğunu görərdin"?** Bizdən soruşun, biz də sizə öyrədək, sizləri hər bir xəstəliyə şəfa olan Qurana yönəldək".

**Mənbə:** "Tıbbul əimmə" (48), "Bihar əl-ənvar" (92/4), "Vəsail əş-şiə" (4/877).

6) Əbu Bəsir danışır ki, Əbu Abdullah عليه السلام demişdir: “Gözdəymə, qızdırma, diş ağrısı və ziyanvericilərə qarşı ruqya olunmasında bir qəbahət yoxdur – bir şərtlə ki, kişi nə oxuduğunu bilsin, anlamadığı şeyləri isə ruqya kimi oxumasın.”

**Mənbə:** “Tıbbul əimmə” (48), “Bihar əl-ənvar” (92/4), “Vəsail əş-şiə” (4/878).

# SEHR BARƏDƏ VARİD OLANLAR

**a) Əhli-sünnə mənbələrindən:**

1) Aişə nəql edir ki, Zureyq oğulları qəbiləsindən Ləbid ibn Əsam adlı adam Peyğəmbərə ﷺ sehr etmişdi. Peyğəmbərə elə gəlirdi ki, o, bəzi işləri edib, amma həqiqətdə onu etməmiş olurdu. Bir gecə o, mənim yanımda ikən çoxlu dualar etdi. Sonra dedi: "Ey Aişə, soruşduğun məsələ barəsində Allahın mənə fətva verməsini bildinmi? Yanıma iki kişi gəlmişdi, biri mənim başımın yanında, digəri isə ayağımın yanında oturdu. Onlardan biri digərinə dedi: – Adamın dərdi nədir? Dedi: – Sehr olunub. Dedi: – Nə sehri? Dedi: – Ləbid ibn Əsamın sehri. Dedi: – Nə ilə? Dedi: – Daraq, saç və xurma ağacının balı ilə. Dedi: – Haradadır o? Dedi: – Zərvan quyusunda". Allahın Elçisi səhabələri ilə birlidkə ora getdi. Sonra gəlib mənə dedi: "Ey Aişə, oranın suyu sanki xınaya boyanmışdı. Ağacın meyvələri şeytan başlarına bənzəyirdi". Dedim: "Ey Allahın Elçisi, bəs niyə onu çıxartmadınız?" Dedi: "Allah mənə şəfa verdi. Ancaq insanların pislikləri ilə rastlaşacağımdan ehtiyat etdiyimdən, əmr etdim ki basdırsınlar".

**Mənbə:** Hədisi əl-Buxari (5763) və Muslim (2189) rəvayət etmişlər.

2) Əbu Hureyra ؓ rəvayət edir ki, Allahın Elçisi ﷺ demişdir: "Məhvedici yeddi günahdan çəkinin!"

Soruşdular ki, nədir onlar, ey Allahın Elçisi? Allahın Elçisi ﷺ buyurdu: "Allaha şərik qoşmaq, sehrbazlıq, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etmək, sələm yemək, yetimin malını yemək, döyüş meydanından qaçmaq və (zinadan) xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham etmək".

**Mənbə:** Hədisi əl-Buxari (2766) və Muslim (89) rəvayət etmişlər.

3) Safvan ibn Əssal رضي الله عنه nəql edir ki, bir yəhudi dostuna dedi ki, bizi bu peyğəmbərin yanına apar. Dostu dedi: "Peyğəmbər demə, əgər o səni eşitsəydi, onun dörd gözü olardı". Onlar Allahın Elçisinin ﷺ yanına gəlib doqquz açıq-aydın ayə barədə soruşdular. O ﷺ, onlara dedi: Allaha heç bir şeyi şərik qoşmayın, oğurluq etməyin, zina etməyin, Allahın haram buyurduğu cana haqsız yerə qəsd etməyin, günahsız insanı hökmdarın yanına aparıb öldürtməyin, sehr etməyin, faiz yeməyin, günahsız qadınları zinada ittiham etməyin, döyüş meydanından qaçmayın, seçilmiş yəhudilərə diqqət edin ki, şənbə günü ədavət aparmayasınız". Bunu eşidən yəhudilər onun əlini və ayağını öpüb dedilər: "Şahidlik edirik ki, sən peyğəmbərsən". Dedi: "Mənə tabe olmağa sizə mane olan nədir?" Dedilər: "Davud öz Rəbbinə dua etmişdi ki, peyğəmbərlər həmişə onun nəslindən olsun. Qorxuruq ki, biz sənə tabe olsaq, yəhudilər bizi öldürə".

**Mənbə:** Hədisi Tirmizi (2733), Nəsai (4078) və İmam Əhməd (18117) rəvayət etmişlər.

4) Cundəb ﷺ deyir ki, Rəsulullah ﷺ demişdir: “Sehrbazın cəzası qılıncla öldürülməsidir.”

**Mənbə:** Hədisi Tirmizi (1460), Təbərani “əl-Kəbir” əsərində (1665) və Daraqutni (112) rəvayət etmişlər.

5) Əbu Hureyrə ﷺ rəvayət edir ki, Allahın Elçisi ﷺ demişdir: “Kim bir düyün bağlayıb ona üfürərsə, sehr etmiş olar, sehr edən isə Allaha şərik qoşmuş olur. Kim də bir şey assa, ona müvəkkil olunar.”

**Mənbə:** Hədisi Nəsai (4079), Təbərani “əl-Əvsat” əsərində (1469) və əl-Bəzzar (3578) rəvayət etmişlər.

6) İbn Abbasdan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: “Kimdə bu üç pis xislət olmazsa, digər məsələlər həmin kəsə bağışlanar: Allaha şərik qoşmadığı halda ölən kəs, sehrbaz olmayan və sehrbazlara tabe olmayan və qardaşına nifrət etməyən.”

**Mənbə:** Hədisi əl-Buxari “Ədəbul-Mufrad” əsərində (413) və Təbərani “əl-Kəbir” əsərində (13004) rəvayət etmişlər.

**b) İmamilərin mənbələrindən:**

1) Əbu Abdullah عليه السلام rəvayət edir ki, möminlərin əmiri عليه السلام demişdir: “Cəbrayıl Peyğəmbərin ﷺ yanına

gəlib dedi: "Ey Muhəmməd!" Dedi: "Hüzurundayam, ey Cəbrail". Dedi: "Filan yəhudi sənə sehr edib. Həmin sehri də filan qəbilənin quyusuna atmışdır. Həmin quyuya ən çox etibar etdiyin və gözündə ən əzəmətli olan adamı göndər. Həmin adam sənin əvəzinə gedib həmin sehri sənə gətirsin". Peyğəmbər də Əli ibn Əbu Talibi göndərib dedi: "Zərvan quyusuna get, orada yəhudi Ləbid ibn Əsamın mənə etdiyi sehr var. Get onu gətir!". Əli demişdir: "Mən də Allahın Elçisinin işinin dalınca getdim. Quyuya enəndə gördüm ki, quyudakı su sehrin təsirindən heyz suyuna bənzəyir. Tələsik axtararaq quyunun dibinə endim, lakin tapa bilmədim. Mənimlə olanlar dedilər ki, orada heç bir şey yoxdur, çıx. Dedim: – Xeyr, vallahi ki, yalan demir, mən də yalan demirəm. Mənim nəfsim də sizinki kimi Allahın Elçisi ilədir. Sonra bir şey dilədim və həqiqətən də onu çıxardıb Peyğəmbərin yanına gətirdim. O, dedi: "Aç onu". Mən də onu açıb gördüm ki, içərisində xurma ağacının qabığının içərisində bir vətər, onun da üzərində iyirmi bir düyün var. Həmin gün Cəbrail Peyğəmbərə Fələq və Nəs surələrini nazil etmişdi. Peyğəmbər dedi: "Ey Əli, bunu vətərə oxu". Möminlərin əmiri də onu oxuduqca hər dəfə düyünlərdən biri açıldı. Beləcə onlar açıldı. İzzət və Cəlal Sahibi Allah da Peyğəmbərinin sehrini açmış oldu və ona şəfa verdi".

Digər bir hədisdə rəvayət olunur ki, Cəbrail və Mikayıl (onlara salam olsun) Peyğəmbərin yanına gəldi. Onlardan biri onun sağında, digəri isə solunda oturdu.

Cəbrail Mikayıla dedi: – Adamın dərdi nədir? Mikayıl dedi: – Ona sehr olunub. Cəbrail dedi: – Nə sehri? Dedi: – Yəhudi Ləbid ibn Əsam edib... Sonra da məlum hədisi sonunadək rəvayət etdi.

**Mənbə:** “Tıbbul-əimmə” (113), “Bihar əl-ənvar” (18/69) və “Təfsir əs-safi” əsəri (7/584).

2) Möminlərin əmiri Əli ibn Əbu Talibin عليه السلام belə dediyi rəvayət olunur: “Yəhudi Ləbid ibn Əsam və yəhudi Ummu Abdullah Allahın Elçisini ﷺ qırmızı, yaşıl və sarı ipək saplarla sehr etmişdilər. Onlar həmin saplara on bir düyün vurmuş, sonra da onu xurma ağacının dərisinə qoymuşdular. Sonra da onu Mədinənin vadisindəki quyulardan birindən çıxmış daşın içərisinə qoymuşdular. Peyğəmbər üç gün yemədi, içmədi, eşitmədi, görmədi və qadınlara yaxınlaşmadı. Sonra onun yanına Cəbrail nazil oldu və ona Fələq və Nəs surələrini gətirdi. Ondan soruşdu: “Ey Muhəmməd, sənə nə olub?” Dedi: Bilmirəm, gördüyün kimi bu haldayam”. Dedi: “Ummu Abdullah və Ləbid ibn Əsam sənə sehr edib”. Sonra ona sehrin yerini xəbər verdi. Daha sonra Cəbrail oxudu: “Bismilləhir-Rahmənir Rahim, Qul əuzu birabbil fələq”. Allahın Elçisi onu oxudu və düyünlərdən biri açıldı. Beləcə Cəbrail hər dəfə ayə oxuduqca Peyğəmbər də onu təkrar etdi və düyünlərdən biri açıldı. Peyğəmbər on bir ayə oxudu və on bir düyünün hamısı açıldı. Sonra Peyğəmbər oturdu və onun yanına Möminlərin əmiri

daxil oldu. O da Cəbrailin gətirdiyi ayələr barədə ona xəbər verdi. Ona dedi: "Get o sehri mənə gətir!" Əli də gedib onu gətirdi. Allahın Elçisi əmr etdi ki, onu açsınlar, sonra da onun üzərinə üfürdü. Sonra onu Ləbid ibn Əsama və yəhudi Ummu Abdullaha göndərib dedi: "Sizi bunu etməyə nə vadar etdi?" Sonra Allahın Elçisi Ləbidə bəddua edib dedi: "Allah səni bu dünyadan salamat çıxarmasın". O, zəngin bir adam idi. Onun yanında bir xidmətçisi var idi, onun qulağında bir dinar dəyərində sırğa var idi. Bir dəfə o, xidmətçinin qulağını dartaraq cırmışdı, o da götürüb onun əlini kəsmiş və beləcə ölmüşdü".

**Mənbə:** "Təfsir Furat" (619), "Dəaim əl-islam" (2/138), "Bihar əl-ənvar" (60/23).

3) Əbu Abdullah ﷺ deyir ki, bir kişi ondan Fələq və Nəs surələrinin nə barədə nazil olunması haqqında soruşdu. Yəhudi Ləbid ibn Əsam Allahın Elçisini sehr etmişdi. Əbu Bəsir Əbu Abdullahdan soruşdu: "O nə idi elə? Sehr ona təsir etmişdimi?" Əbu Abdullah Sadiq dedi: "Bəli, ona elə gəlirdi ki, qadını ilə yaxınlıq edib, lakin etmirdi. Qapıya baxırdı, lakin onu görmürdü, ona əlini vururdu. Sehr haqdır. Sehr gözə və övrət yerinə edilmişdi. Cəbrail onun yanına gəlib bu barədə ona xəbər verdi. O da Əlini çağırıb Zərvan quyusundan onu çıxartmaq üçün göndərdi...". Sonra hədisi sonunadək qeyd etdi.

**Mənbə:** “Tıbbul-əimmə” (114), “Bihar əl-ənvar” (60/25), “Cami əhadis əş-şiə“ (17/244).

4) Əbu Cəfər ﷷ atasından rəvayət edərək deyir ki, Əli ibn Əbu Talib dedi: “Kim az və ya çox olmasından asılı olmayaraq sehrdən bir şey öyrənərsə, küfr etmiş olar. Bu ona Rəbbi ilə son əhdi olar. Tövbə etməzsə, onun cəzası öldürülməkdir.”

**Mənbə:** “Qurbul-isnad” (152), “Vəsail əş-şiə” (17/148).

5) Nasr ibn Qabus deyir ki, mən Əbu Abdullahın ﷷ belə dediyini eşitmişəm: “Münəccim lənətlənmişdir, kahin lənətlənmişdir, sehrbaz lənətlənmişdir, müğənni, onu qoruyan və qazancını yeyən lənətlənmişdir.” Həmçinin demişdir: “Münəccim kahin kimidir, kahin sehrbaz kimidir, sehrbaz kafir kimidir, kafir isə cəhənnəmdədir.”

**Mənbə:** “əl-Xisal” (297), “Bihar əl-ənvar” (55/226), “Cami əhadis əş-şiə” (17/195).

6) Əbu Musa əl-Əşari deyir ki, Allahın Elçisi ﷺ belə demişdir: “Üç adam Cənnətə girməz: içki aludəçisi, sehr aludəçisi və qohumluq əlaqələrini kəsən.”

**Mənbə:** “əl-Xisal” (179), “Bihar əl-ənvar” (76/129), “Vəsail əş-şiə” (15/346).

# KAHİNLİK BARƏDƏ VARİD OLANLAR

**a) Əhli-sünnə mənbələrindən:**

1) Safiyyə Peyğəmbərin ﷺ bəzi xanımlarından belə rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kim bir falçının yanına gedərək ondan bir şey soruşarsa, qırx gün namazı qəbul olunmaz."

**Mənbə:** Hədisi Muslim (2230) rəvayət etmişdir.

2) Əbu Hureyrə ﵁ və Həsən ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Kim falçının və ya kahinin yanına gedərək onun dediklərinə inanarsa, Muhəmmədə nazil olana küfr etmiş olur."

**Mənbə:** Hədisi İmam Əhməd (9532), Əbu Davud (3904) və Tirmizi (135) rəvayət etmişlər.

3) Aişə demişdir ki, bəzi insanlar Allahın Elçisindən ﷺ kahinlər barədə soruşdular. Allahın Elçisi ﷺ də onlara belə dedi: "Onlar bir şey deyillər". Dedilər: "Ey Allahın Elçisi, onların danışdıqlarında bəzən həqiqət ola bilərmi?" Allahın Elçisi dedi: "Bəzən haqq olan kəlmələri cinlər oğurlayaraq dostunun qulağına toyuq səsi kimi pıçıldayır, onlar da onun üzərinə yüz yalan artırırlar."

**Mənbə:** Hədisi əl-Buxari (5859) və Muslim (2228) rəvayət etmişlər.

4) Əbu Məsud əl-Ənsari ﷺ demişdir: "Allahın Elçisi ﷺ itin, fahişənin və kahinin qazancını qadağan etmişdir."

**Mənbə:** Hədisi əl-Buxari (2122) və Muslim (1567) rəvayət etmişlər.

5) Müaviyə ibn əl-Həkəm əs-Suləmi ﷺ belə rəvayət edir ki, bir dəfə mən dedim: "Ey Allahın Elçisi, cahiliyyət dövründə biz bəzi işlər görər, kahinlərin yanına gedərdik". Allahın Elçisi dedi: "Kahinlərin yanına getməyin". Dedim: "Quş uçuraraq uğur umurduq". O dedi: "Bu, bəzilərinizin özündə rast gəldiyi şeydir. O sizi azdırmasın."

**Mənbə:** Hədisi Muslim (538) rəvayət etmişdir.

**b) İmamilərin mənbələrindən:**

1) Əli ﷺ demişdir: "Kim falçının yanına gedərək onun dediklərinə inanarsa, Muhəmmədə nazil olana küfr etmiş olur". O həmçinin deyərdi: "Şübhəsiz ki, ruqyaların və talismanların çoxu şirkin növlərindəndir".

**Mənbə:** "Dəaim əl-islam" (2/483), "Mustədrək əl-vəsail" (13/110), "Cami əhadis əş-şiə" (17/248).

2) Peyğəmbər ﷺ demişdir: "Kim bir kahinə və ya münəccimə inanarsa, Muhəmmədə nazil olana küfr etmiş olur."

**Mənbə:** "Avali əl-ləali" (3/140), "Mustədrək əl-vəsail" (13/112), "Cami əhadis əş-şiə" (9/140).

3) Allahın Elçisi ﷺ Əliyə (ə) belə tövsiyə vermişdir: "Ey Əli, həlakedicilər bunlardır: leşin pulu, itin pulu, içkinin pulu, zinakarın qazancı, hökmdə rüşvət alma və kahinin qazancı".

**Mənbə:** "Mən lə yəhduruhul-fəqih" (4/363), "Məkarim əl-əxlaq" (438), "Bihar əl-ənvar" (74/54).

4) Əli ibn Əbu Talib (ə) demişdir: "Həlakedicilər bunlardır: leşin pulu, mayalanma müqabilində alınan pul, fahişənin qazancı, qan alanın qazancı, kahinin qazancı...".

**Mənbə:** "əl-Cuğrafiyyət" (194), Mustədrək əl-vəsail" (13/69), "Cami əhadis əş-şiə" (17/170).

5) Əbu Abdullah (ə) demişdir ki, möminlərin əmiri demişdir: "Həlakedicilər bunlardır: leşdən əldə olunan qazanc, itdən əldə olunan qazanc, fahişənin qazancı, hökm müqabilində alınan rüşvət və kahinin qazancı".

**Mənbə:** "Təfsir əl-Qummi" (1/170), "əl-Kafi" (5/127), "Vəsail əş-şiə" (17/93).

## NƏZİR BABI

**a) Əhli-sünnə mənbələrindən:**

1) Aişə deyir ki, Peyğəmbər ﷺ demişdir: "Kim Allaha itaət etmək üçün nəzir edərsə, bunu etsin, kim də Allaha asi olmağı nəzir edərsə, bunu etməsin".

**Mənbə:** Hədisi əl-Buxari (6696) rəvayət etmişdir.

2) İmran ibn Husayn ﵁ deyir ki, Allahın Elçisi ﷺ demişdir: "Asiliklə bağlı olan, bir də qulun malik olmadığı bir şeylə etdiyi nəzir yerinə yetirilməz".

**Mənbə:** Hədisi Muslim (1641) rəvayət etmişdir.

3) Ənəs ﵁ deyir ki, Peyğəmbər ﷺ (minik üzərində olan) iki övladının arasında piyada gedən bir ağsaqqalı görüb dedi: "Buna nə olub belə?" Dedilər ki, belə gəzməyi nəzir edib. Dedi: "Allahın bu adamın özünə əzab verməsinə ehtiyacı yoxdur". Sonra ona miniyə minməyi əmr etdi.

**Mənbə:** Hədisi əl-Buxari (1865) və Muslim (1642) rəvayət etmişlər.

4) İbn Abbas ﵁ demişdir: "Bir dəfə Peyğəmbər ﷺ xütbə verərkən bir kişinin ayaq üstə dayandığını gördü. Onun barəsində soruşduqda dedilər ki, Əbu İsraildir, nəzir edib ki, ayaq üstə dayanacaq və əsla oturmayacaq,

kölgədə durmayacaq, danışmayacaq və oruc tutacaq. Peyğəmbər dedi: "Ona deyin danışsın, kölgədə dursun, otursun və orucunu tamamlasın".

**Mənbə:** Hədisi əl-Buxari (6704) rəvayət etmişdir.

**b) İmamilərin mənbələrindən:**

1) Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Kim Allaha itaət etmək üçün nəzir edərsə, bunu etsin, kim də Allaha asi olmağı nəzir edərsə, bunu etməsin".

**Mənbə:** "Avali əl-ləali" (3/448), "Mustədrək əl-vəsail" (16/92), "Cami əhadis əş-şiə" (19/532).

2) Peyğəmbər ﷺ demişdir: "Birinin asilik, yaxud malik olmadığı bir şeylə nəzir etməsi qəbuledilməzdir".

**Mənbə:** "Avali əl-ləali" (3/448), "Mustədrək əl-vəsail" (16/92), "Cami əhadis əş-şiə" (19/532).

3) Peyğəmbər ﷺ demişdir: "Kim adını çəkmədiyi bir nəzir edərsə, and kəffarəsi verməlidir. Kim asiliklə bağlı nəzir edərsə, and kəffarəsi verməlidir. Gücü çatmadığı bir işi nəzir edən kəs and kəffarəsi verməlidir. Taqəti çatmadığı bir işi nəzir edən kəs onu necə edə bilər axı?"

**Mənbə:** "Avali əl-ləali" (1/179), "Mustədrək əl-vəsail" (15/424).

4) Belə rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ bir nəfərin günün altında dayandığını gördü. Onun barəsində soruşduqda, dedilər ki, o adam nəzir edib ki, oruc tutsun, kölgədə durmasın, danışmasın, ayaq üstə dayansın. Peyğəmbər ﷺ dedi: "Ona deyin ki, danışsın, kölgədə dursun, otursun və orucunu tamamlasın."

**Mənbə:** "Avali əl-ləali" (3/448), "Mustədrək əl-vəsail" (16/92), "Cami əhadis əş-şiə" (19/532).

5) Əbus-sabah əl-Kinani demişdir: "Mən Əbu Abdullahdan عليه السلام soruşdum ki, əgər bir nəfər desə ki, nəzir edirəm... Dedi: "Allah üçün bir işin adını çəkmədən nəzir olmaz – oruc, sədəqə, qurban və ya həcc".

**Mənbə:** "əl-Kafi" (7/455), "Təhzib əl-əhkam" (8/303), "ən-Nəvadir" (34).

6) Muhəmməd ibn Muslim imamların birinin belə dediyini rəvayət etmişdir: "Mən ondan suruşdum ki, bir nəfər Allahın evinə piyada getmək istəsin, sonra da bunu edə bilməsə, nə etsin?" Dedi: "Miniklə həccə getsin".

**Mənbə:** "əl-Kafi" (7/458), "Təhzib əl-əhkam" (8/304), "ən-Nəvadir" (47).

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

**Əhli-sünnə mənbələri:**

1. İmam Əbu Nueym əl-İsbahaninin "Axbar İsbahan" əsəri. "əl-Kitab əl-İslami" nəşriyyatı.

2. İmam əl-Buxarinin "əl-Ədəb əl-Mufrad" əsəri. "əl-Bəşair əl-isləmiyyə" nəşriyyatı. Beyrut, 3-cü nəşr, hicri 1409 (miladi 1989). Təhqiq: Muhəmməd Fuad Abdul-Baqi.

3. Hafiz İbn Kəsirin "Təfsir əl-Quran əl-azim" əsəri. "Dar ət-taybə" nəşriyyatı, 2-ci nəşr, hicri 1420 (m.1999). Təhqiq: Sami ibn Muhəmməd Sələmə.

4. İmam Muhəmməd bin Cərir ət-Tabərinin "Cami əl-bəyan fi təvil əl-Quran" əsəri. "ər-Risalə" nəşriyyatı. 1-ci nəşr, hicri 1420 (m.2000). Təhqiq: Əhməd və Mahmud Şakir.

5. İmam Əbu Nueym əl-İsfahaninin "Hilyətul-əvliya" əsəri. "Dar əl-kitab əl-ərabi" nəşriyyatı, Beyrut, 4-cü nəşr, hicri 1405.

6. Şeyxul-islam ibn Teymiyyənin "ər-Raddu aləl-bəkri" əsəri. "əl-Ğurabə əl-əsəriyyə" kitabxanası, Mədinə, 1-ci nəşr, hicri 1417. Təhqiq: Muhəmməd Əli İcal.

7. İmam Nəsainin "əs-Sünən əs-suğra" əsəri. "əl-Mətbuət əl-isləmiyyə" ofisi, Hələb, 2-ci nəşr, hicri 1406 (m.1986). Təhqiq: Əbdül-Fəttah Əbu Ğuddə.

8. İmam Beyhəqinin "əs-Sünən əl-kubra" əsəri. Hindistanın Heydərabad şəhərindəki "Dar əl-məarif ən-nizamiyyə" məclisi.

9. İmam Nəsainin "əs-Sünən əl-kubra" əsəri. "əl-Kutub əl-ilmiyyə" yayım evi, Beyrut, 1-ci nəşr hicri 1411 (m.1991). Təhqiq: Doktor Abdul-Ğaffər əl-Bəndari, Seyyid Kisravi Həsən.

10. İmam İbn Macənin "Sünən" əsəri. "Darul-fikr", Beyrut. Təhqiq: Muhəmməd Fuad Abdul-Baqi.

11. İmam Əbu Davud əs-Sicistaninin "Sünən" əsəri. "Darul-fikr", Beyrut. Təhqiq: Muhəmməd Muhyiddin Abdul-Həmid.

12. İmam Tirmizinin "Sünən" əsəri. "Dar ihya ət-Turas əl-Ərabi", Beyrut. Təhqiq: Əhməd Muhəmməd Şakir və başqaları.

13. İmam Dariminin "Sünən" əsəri. "Darul-kitab əl-ərabi", Beyrut. 1-ci nəşr, hicri 1407. Təhqiq: Fəvvaz Əhməd Zumərli Xalid əs-Səbu əl-İlmi.

14. İmam Tahavinin "Muşkil əl-əsar" əsəri. "ər-Risalə" müəssisəsi, 2-ci nəşr, hicri 1427 (m.2006). Təhqiq: Şüeyb əl-Arnaut.

15. İmam Beyhəqinin "Şuəb əl-iman" əsəri. "Darul-kutub əl-ilmiyyə", Beyrut, 1-ci nəşr, hicri 1410. Təhqiq: Muhəmməd Səid Bəsyuni Zəğlul.

16. İmam Muhəmməd ibn Hibban əl-Bustinin "Səhih İbn Hibban" əsəri. "ər-Risalə" müəssisəsi, Beyrut, 2-ci nəşr, hicri 1414 (m.1993). Təhqiq: Şüeyb əl-Arnaut.

17. İmam Muhəmməd ibn İsmail əl-Buxarinin "Səhih əl-Buxari" əsəri. "Dar Tavqun-nəcət", 1-ci nəşr, hicri 1422. Təhqiq: Muhəmməd Zuheyr ən-Nasir.

18. İmam Muslim ibn Həccac ən-Nisaburinin "Səhih Muslim" əsəri. "Dar ihya ət-turas əl-arabi", Beyrut. Təhqiq: Muhəmməd Fuad Abdul-Baqi.

19. İmam İbn Qeyyim əl-Cəuziyyənin "Tariq əl-hicrateyn va bab əs-səadəteyn" əsəri. "Dar İbn əl-Qeyyim", Dammam, 2-ci nəşr, hicri 1414 (m.1994). Təhqiq: Yasir bin İbrahim-Ğanim ibn Abbas.

20. İmam Əbu Davud əs-Sicistaninin "Kitab əz-Zuhd" əsəri. "Dar əl-kutub əl-ilmiyyə", Beyrut. Təhqiq: Həbibur-rahmən əl-əzami.

21. İmam Abdullah ibn Mübarəkin "Kitab əz-Zühd" əsəri. "Dar əl-kutub əl-ilmiyyə", Beyrut. Təhqiq: Həbibur-rahmən əl-Əzami.

22. İmam Hənnad bin əs-Sirrinin "Kitab əz-Zuhd" əsəri. "Darul-xuləfə lil-kitab əl-islami", Küveyt. 1-ci nəşr, hicri 1406. Təhqiq: Abdur-rahmən Abdul-Cabbar əl-Fərivai.

23. Şeyxulislam İbn Teymiyyənin "Məcmu əl-fətava" əsəri. "Dar əl-vafə", 3-cü nəşr, hicri 1426 (m.2005). Təhqiq: Ənvər əl-Baz – Amir əl-Cəzzar.

24. İmam İbn əl-Qeyyim əl-Cəuziyyənin "Mədaric əs-salikin" əsəri. "Dar əl-kitab əl-arabi", Beyrut, 2-ci nəşr, hicri 1393 (m.1973). Təhqiq: Muhəmməd Hamid əl-Fiqqi.

25. İmam Əbu Abdullah Hakim ən-Nisaburinin "əl-Mustədrək" əsəri. "Dar əl-kutub əl-ilmiyyə", Beyrut, 1-ci nəşr, hicri 1411 (m.1990). Təhqiq: Mustafa Abdul-Qadir Əta.

26. İmam Əli ibn Cəad əl-Bağdadinin "Müsnəd İbn Cəad" əsəri. "Nadir" müəssisəsi, Beyrut, 1-ci nəşr, hicri 1410 (m.1990). Təhqiq: Amir Əhməd Heydər.

27. İmam Əbu Yəalə əl-Musilinin "Müsnəd Əbu Yəalə" əsəri. "Dar əl-Məmun lit-turas", Dəməşq, 1-ci nəşr, hicri 1404 (m.1984). Təhqiq: Hüseyn Səlim Əsəd.

28. İmam Əbu Bəkr əl-Bəzzarın "Müsnəd əl-Bəzzar" əsəri. "Ulum əl-quran" müəssisəsi, "əl-Ulumu val-hikəm" kitabxanası, hicri 1409. Təhqiq: Doktor Məhfuzur-rahmən Zeynullah.

29. İmam Abu Abdullah bin Zubeyr Əbu Bəkr əl-Humeydinin "Müsnəd əl-Humeydi" əsəri. "Dar əl-kutub əl-

ilmiyyə", "əl-Mutənəbbi" kitabxanası, Beyrut, Qahirə. Təhqiq: Həbibur-Rahmən əl-Əzami.

30. İmam Süleyman bin Davud ət-Tayəlisinin "Müsnəd ət-Tayəlisi" əsəri. "Dar əl-mərifə", Beyrut.

31. İmam Əhməd ibn Hənbəlin "Müsnəd" əsəri. "Qurtuba" müəssisəsi, Qahirə.

32. İmam İbn Əbu Şeybənin "əl-Müsənnəf" əsəri. "ər-Ruşd" kitabxanası, ər-Riyad, 1-ci nəşr, hicri 1409. Təhqiq: Kamal Yusuf əl-Hut.

33. İmam Abdur-Razzəq əs-Sanəninin "əl-Müsənnəf" əsəri. "əl-məktəb əl-İslami", Beyrut, 2-ci nəşr, hicri 1403. Təhqiq: Həbibur-Rahmən əl-Əzami.

34. İmam Təbəraninin "Mucəm əl-Əvsat" əsəri. "Darul-Harameyn", Qahirə, hici 1415. Təhqiq: Tariq ibn İvadullah ibn Muhəmməd, Abdul-Muhsin bin İbrahim əl-Hüseyni.

35. İmam Təbəraninin "Mucəm əl-Kəbir" əsəri. "əl-Ulumu val-hikəm" kitabxanası, Mosul, 2-ci nəşr, hicri 1404 (m.1983).Təhqiq: Həmdi bin Əbdül-Məcid əs-Sələfi.

36. İmam Əbu Səid ibn əl-Arabinin "Mucəm" əsəri. "İbn əl-Cəuzi" nəşriyyatı, Səudiyyə Ərəbistanı Krallığı, 1-ci nəşr, hicri 1418 (m.1997). Təhqiq və təxric: Abdul-Muhsin bin İbrahim bin Əhməd əl-Hüseyni.

**İmamilərin mənbələri:**

1. ət-Tabrasinin "əl-İhticac" əsəri. "Dar ən-Numan" nəşriyyatı, Nəcəf, hicri 1386 (m.1966). Əlavə və mülahizələr: Seyyid Muhəmməd Baqir əl-Xorasan.

2. əl-Mufidin "əl-İxtisas" əsəri. "Darul-Mufid" nəşriyyatı, Beyrut, 2-ci nəşr, hicri 1414 (m.1993). Təhqiq: Əli Əkbər əl-Ğifari, Mahmud əz-Zərandi.

3. əş-Şəhid əl-Əvvəlin "Qırx hədis" əsəri. "Əmir" mətbəəsi, "İmam Mehdi müsəssisəsi", Qum, hicri 1407.

4. əd-Deyləminin "Əlam əd-din fi sifət əl-muminin" əsəri. "Əhli-beyti li ihya ət-Turas" müəssisəsi. Qum.

5. İbn Babaveyh əl-Qumminin "əl-Amali" əsəri. "Əl-Bəasə" müəssisəsinin yayım evi, 1-ci nəşr, hicri 1417. Təhqiq: "Qism əd-dirasət əl-islamiyyə", "əl-Bəasə" müəssisəsi, Qum.

6. ət-Tusinin "əl-Amali" əsəri. "Darus-Səqafə" nəşriyyatı, Qum, 1-ci nəşr, hicri 1414.

7. əl-Mufidin "əl-Amali" əsəri. "Dar əl-Mufid" nəşriyyatı, Beyrut, 2-ci nəşr, hicri 1414 (m.1993). Təhqiq: Hüseyn əl-Əstad Vəli, Əli Əkbər əl-Ğifari.

8. əl-Məclisinin "Bihar əl-ənvar" əsəri, 2-ci nəşr, hicri 1403 (m.1983). "əl-Vafə" müəssisəsi, Beyrut.

9. Muhəmməd ibn Həsən əs-Saffərin "Bəsair əd-dəracət" əsəri, "əl-Əhmədi" mətbəəsi, "əl-Əlami" nəşriyyatı, Tehran, hicri 1404. Təshih, təliq və təqdim: Hacı Mirzə Həsən Kubaği.

10. İbn Şobə əl-Hərraninin "Tuhaf əl-uqul" əsəri. Qumdakı müəllimlər heyətinin "əl-İslami" nəşriyyatı, 2-ci nəşr, hicri 1404. Təshih və təliq: Əli Əkbər əl-Ğifari.

11. Abdullah əl-Cəzairinin "ət-Tuhfətus-sunniyyə" əsəri. Əlyazma nüsxəsi. Təhqiq və şərh: Əlcəzair. "Elektron əhli-beyt" kitabxanası.

12. əl-Feyd əl-Kaşaninin "ət-Təfsir əs-Safi" əsəri. "əl-Hadi" müsəssisəsi, Qum, "əs-Sadr" kitabxanası, Tehran. 2-ci nəşr, hicri 1416.

13. "əl-Əyyaşi" təfsiri. "əl-İlmiyyə əl-isləmiyyə" kitabxanası, Tehran. əl-Hac Seyyid Haşim ər-Rasuli əl-Məhəlləti.

14. Əli ibn İbrahim əl-Qumminin "Təfsir əl-Qummi" əsəri. "Dar əl-kitab" nəşriyyatı, Qum, İran. 3-cü nəşr, hicri 1404. Təshih, təliq və təqdim: Tayyib əl-Musəvi əl-Cəzairi.

15. Furat İbrahim əl-Kufinin "Təfsir əl-Furat" əsəri. Mədəniyyət və islami dəvət Nazirliyinin nəşriyyatı, Tehran, 1-ci nəşr, hicri 1410 (m.1990). Təhqiq: Muhəmməd əl-Kazım.

16. ət-Tusinin "Təhzib əl-Əhkam" əsəri. "Xurşid" mətbəəsi. "Darul-kutub əl-isləmiyyə", Tehran, 3-cü nəşr. Təhqiq və əlavələr: Seyyid Həsən əl-Musəvi əl-Xorasan.

17. İbn Babaveyh əl-Qumminin "Tövhid" əsəri. Qumdakı müəllimlər heyətinin nəşrləri. Təshih və təliq: Haşim əl-Hüseyni ət-Tahrani.

18. İbn Babaveyh əl-Qumminin "Savab əl-Əmal" əsəri. "əş-Şərif ər-Radinin" nəşriyyatı, Qum, 2-ci nəşr. Təqdim: Muhəmməd Mehdi Seyyid Həsən əl-Xorasan.

19. əl-Bürucərdinin "Cami əhadis əş-şiə" əsəri. "əl-İlmiyyə" mətbəəsi, Qum, hicri 1399.

20. Muhəmməd ibn Muhəmməd ibn Əşas əl-Kufinin "əl-Cuğrafiyyat" əsəri. "ən-Ninvi əl-hədisə" kitabxanası, Tehran.

21. Haşim əl-Bəhraninin "Hilyətul-əbrar" əsəri. "Bəhmən" mətbəəsi, "əl-Məarif əl-isləmiyyə nəşriyyatı". Qum, 1-ci nəşr, hicri 1411. Təhqiq: Ğulam Rida Məvlanə əl-Bürucərdi.

22. əl-Qutub ər-Ravandinin "əl-Xaraic val-cəraih" əsəri. "əl-Mətbəətul-ilmiyyə", "İmam Mehdi" nəşriyyatı, Qum, 1-ci nəşr, hicri 1409. Təhqiq: "İmam Mehdi" müəssisəsi, Muhəmməd Baqir əl-Muvahhid əl-Əbtahinin rəhbərliyi altında.

23. İbn Babaveyh əl-Qummininn "əl-Xisal" əsəri. Qumdakı elmi hövzənin müəllimlərinin nəşrləri, hicri 1403. Təshih və təliq: Əli Əkbər əl-Ğifari.

24. Qazi Noman əl-Məğribinin "Dəaim əl-islam" əsəri. "Dar əl-məarif", Qahirə, hicri 1383 (m.1963). Təhqiq: Asif ibn Əli Əsğər Feydi.

25. əl-Qutub ər-Ravandinin "əd-Dəavat" əsəri. "İmam Mehdi məktəbi", Qum, 1-ci nəşr, hicri 1407.

26. əs-Səbzəvarinin "Zəxiratul-məad". "Müəssəsətul Ali Beyt əleyhimus-salam li ihya ət- turas".

27. əl-Hillinin "ər-Risalətus əs-Sədiyyə" əsəri. "Bəhmən" mətbəəsi, "Kitabxana umumi həzrət ayətullah üzma Məraşi Nəcəfi", Qum, 1-ci nəşr, hicri 1410. İşraf: Mahmud Məraşi. İxrac, təliq və təhqiq: Əbdül-Muhsin Muhəmməd Əli Bəqqal.

28. ən-Nisaburinin "Raudatul-vaizinə lil-qitəl". "əş-Şərif ər-Ridanın nəşrləri", Qum. Muhəmməd Mehdi əs-Seyyid Həsən əl-Xorasan.

29. İmam Zeynul-Abidinin "Sahifətus-Səccadiyyə" əsəri. "Mətbəətu Nəmunə", Qum, 1-ci nəşr, hicri 1411. Təhqiq: Muhəmməd Baqir əl-Muvahhid əl-Əbtahi əl-İsfahani.

30. Baqir Şərif əl-Quraşinin "əs-Sahifətus-Sadiqa" əsəri. "Dar əl-Ədva", Beyrut, 1-ci nəşr, hicri 1410 (m.1989).

31. İbn Sabur əz-Zəyyatın "Tıbbul-əimmə" əsəri. "Əmir" mətbəəsi, Qum. "Şərif ər-Ridanın nəşrləri", Qum. 2-ci nəşr, hicri 1411.

32. İbn Fəhd əl-Hillinin "Uddətud-dai" əsəri. "Vicdani" kitabxanası, Qum. Təshih: Əhməd əl-Muvahhidi əl-Qummi.

33. İbn Babaveyh əl-Qumminin "İləl əş-şərai" əsəri. "Heydəriyyə kitabxanasının nəşrləri", Nəcəf, hicri 1385 (m.1966). Təqdim: Muhəmməd Sadiq Bəhrul-ulum.

34. İbn Əbu Cümhur əl-Əhissainin "Avali əl-ləali" əsəri. "Seyyiduş-şuhəda" mətbəəsi, Qum, 1-ci nəşr, hicri 1403

(m.1983). Təqdim: Seyyid Şihabuddin ən-Nəcəfi əl-Məraşi. Təhqiq: əl-Hac Ağa Muctəba əl-İraqi.

35. İbn Babaveyh əl-Qumminin “Uyun əl-əxbar” əsəri. “əl-Əlami” müəssisəsi mətbəəsi, Beyrut, hicri 1404 (m.1984). Təshih, təliq və təqdim: Hüseyn əl-Əlami.

36. əl-Hurr əl-Amilinin “əl-Fusul əl-muhimmə fi usul əl-əimmə” əsəri. “Nəkin” mətbəəsi, Qum, 1-ci nəşr, hicri 1418. Təhqiq və rəhbərlik: Muhəmməd ibn Muhəmməd əl-Hüseyn əl-Qaini.

37. Əli ibn Babaveyhin “Fiqh ər-Rida” əsəri. “İmam Rida beynəlxalq konfransı”, Məşhəd, 1-ci nəşr, hicri 1406. Təhqiq: “Muəssəsətu Alil-beyt aleyhimus-salam li ihya ət-turas”, Qum.

38. əl-Humeyri əl-Qumminin “Qurb əl-isnad” əsəri. “Məhr” mətbəəsi, Qum. “Muəssəsətu Alil-beyt aleyhimus-salam li ihya ət-turas”, Qum, 1-ci nəşr, hicri 1413. Təhqiq: “Muəssəsətu Alil-beyt aleyhimus-salam li ihya ət-turas”.

39. əl-Kuleyninin “əl-Kafi” əsəri. “Dar əl-kutub əl-islamiyyə”, Tehran, 5-ci cild, hicri 1363. Təshih və təliq: Əli Əkbər əl-Ğifari.

40. Səlim ibn Qeys əl-Hilalinin “Kitab Səlim ibn Qeys” əsəri. Təhqiq: Muhəmməd Baqir əl-Ənsari əz-Zəncani (əş-Şamilə əş-şiyyə).

41. Əhməd ibn Muhəmməd əl-Bərqinin “əl-Məhasin” əsəri. “Dar əl-kutub əl-islamiyyə”, Tehran, hicri 1370. Təshih və təliq: Cəlaləddin əl-Hüseyni.

42. “İmam Cəfəri Sadiqin oğlu Əli ibn Cəfərin məsələləri”. “Məhr” mətbəəsi, Qum. “İmam Rida beynəlxalq konfransı”, Məşhəd, 1-ci nəşr, hicri 1409.

43. Mirzə ən-Nurinin “Mustədrək əl-vəsail” əsəri. “Muəssəsətu Alil-beyt aleyhimus-salam li ihya ət-turas”,

Beyrut, 1-ci nəşr, hicri 1408 (m.1987). Təhqiq: "Muəssəsətu Alil-beyt aleyhimus-salam li ihya ət-turas".

44. Davud ibn Süleyman əl-Ğazinin "Musnəd ər-Rida" əsəri. "Məktəb əl-ilam əl-İslami" mətbəəsi, "Məktəb əl-ilam əl-isləmiyə tabe olan nəşriyyat mərkəzi", 1-ci nəşr, hicri 1418. Təhqiq: Muhəmməd Cavad əl-Hüseyni əl-Cəlali.

45. Zeyd ibn Əlinin "Müsnəd"i. "Darul-məktəbətul-həyat" nəşrləri, Beyrut.

46. Muhəmməd əs-Səbzəvarinin "Məaric əl-Yəqin" əsəri. "Muəssəsətu Alil-beyt aleyhimus-salam li ihya ət-turas", Qum, 1-ci nəşr, hicri 1410 (m.1993). Təhqiq: Əla Ali Cəfər.

47. ət-Tabrasinin "Məkarim əl-əxlaq" əsəri. "əş-Şərif ər-Ridanın nəşrləri", 6-cı nəşr, hicri 1392 (m.1972).

48. İbn Babaveyh əl-Qumminin "Mən lə yəhduruhul-fəqih" əsəri. Qumdakı müəllimlər heyətinə tabe olan "ən-Nəşr əl-islami" müəssisəsi, 2-ci nəşr. Təshih və təliq: Əli Əkbər əl-Ğifari.

49. İbn Şəhr Aşufun "Mənaqib ali Əbu Talib" əsəri. "əl-Mətbəətul-heydəriyyə", Nəcəful-əşrəf, hicri 1376 (m.1956). Təshih, şərh və üzləşdirmə: Nəcəful-əşrəf müəllimlərinin komitəsi.

50. Muhəmməd ibn Süleyman əl-Kufinin "Mənaqib li imam Əmirəl-möminin" əsəri. "ən-Nəhda" mətbəəsi, "İhya əs-səqafə əl-islamiyyə", Qum, 1-ci nəşr, hicri 1412. Təhqiq: Muhəmməd Baqir əl-Mahmudi.

51. əş-Şəhid əs-Saninin "Məniyyətul-murid" əsəri. "əl-İlam əl-islami" kitabxanası, 1-ci nəşr, hicri 1409. Təhqiq: Rida əl-Muxtari.

52. Hadi ən-Nəcəfinin "Məvsuətu əhadis əhlil-beyt" əsəri. "Dar ihya ət-turas əl-arabi nəşriyyatı", Beyrut, 1-ci nəşr, hicri 1423 (m.2002).

53. Əhməd ibn İsa əl-Əşarinin "ən-Nəvadir" əsəri. "Əmir" mətbəəsi, "Imam Mehdi" nəşriyyatı, Qum, 1-ci nəşr, hicri 1408.

54. əl-Hurr əl-Amilinin "Vəsail əş-şiə" əsəri. "Məhr" mətbəəsi, "Muəssəsətu Alil-beyt aleyhimus-salam li ihya ət-turas", Qum, 2-ci nəşr, hicri 1414.

Bu Əhli-beyt və səhabələr birliyinin mübarək silsiləsidir ki, onu "**Əhli-sünnə ilə imamilər arasındakı müştərək hədislər silsiləsi**" adlandırmışıq.

Burada Əhli-sünnə ilə İmamilərin etibarlı mənbələrində və hədis kitablarında onların müştərək şəkildə ittifaq etdikləri hədislər öz əksini tapır. Burada əsas hədəf dinin əsas və köməkçi məsələlərində, habelə İslamın həqiqətlərini izhar edən müştərək məsələlərdə iki məzhəb arasındakı oxşarlığın miqyasını müəyyən etməkdir ki, bu da birliyin hədəflərinin və yüksək məramının məğzidir.

Araşdırma zamanı ittifaq edilmiş bir sıra hədis və rəvayətlər meydana çıxmışdır ki, onların bəziləri deyiliş, digərləri də məna baxımından eynidir. Bu da müəyyən məsələlərdə müştərəkliyin olduğunu bir daha sübut edir. Bu minvalla ümmətin birliyi və vəhdəti naminə iş görmək istəyənlərə böyük imkanlar açmış olur.